# DÖVLƏT VƏ İNQİLAB V.İ.Lenin (1917)

## *DÖVLƏT HAQQINDA MARKSİZM TƏLİMİ VƏ İNQİLABDA PROLETARİATIN VƏZİFƏLƏRİ*

### Birinci nəşrə müqəddimə

Dövlət məsələsi hazırda həm nəzəri, həm də əməli-siyasi cəhətlərdən xüsusi əhəmiyyət kəsb edir. İmperialist müharibəsi inhisarçı kapitalizmin dövlət-inhisar kapitalizminə çevrilməsi prosesini son dərəcə surətləndirmiş və kəskinləşdirmişdir. Qüdrətli kapitalist ittifaqları ilə get-gedə daha sıx birləşən dövlətin zəhmətkeş kütlələrə etdiyi dəhşətli zülm getdikcə daha dəhşətli şəkil alır. Qabaqcıl ölkələr — biz onların "cəbhə arxasını" nəzərdə tuturuq — fəhlələr üçün hərbi katorqa habsxanalarına çevrilir.

Uzanmaqda olan müharibənin eşidilməmiş dəhşətləri və fəlakətləri kütlələrin vəziyyətini dözülməz bir hala salır, onların hiddətini artırır. Aşkar surətdə beynəlxalq proletar inqilabı güclənir. Onun dövlətə münasibəti məsələsi əməli əhəmiyyət kəsb edir.

On illər boyu davam edən nisbətən dinc inkişaf dövründə toplanmış opportunizm ünsürləri bütün dünyanın rəsmi sosialist partiyalarında hökm sürən sosial-şovinizm cərəyanı yaratmışdır. Sözdə sosializm, işdə isə şovinizm olan bu cərəyanın (Rusiyada Plexanov, Potresov, Breşkovskaya, Rubanoviç, sonra azacıq üstüörtülü şəkildə cənab Sereteli, Çernov və Kº-sı; Almaniyada Şeydeman, Legin, David və başqaları; İngiltərədə Haydman və fabiçilər və i. a. və i. a.) xüsusiyyəti ondan ibarətdir ki, "sosializm başçıları" yalnız "öz" milli burjuaziyasının mənafeyinə deyil, məhz "öz" dövlətinin mənafeyinə də alçaq bir yaltaqlıqla uyğunlaşır, çünki böyük dövlət deyilən dövlətlərin çoxu bir sıra kiçik və zəif xalqları artıq çoxdan bəri istismar edir və əsarət altında əzməkdədir. İmperialist müharibəsi isə məhz belə bir qəniməti bölüşdürmək və yenidən bölüşdürmək ustündə aparılan müharibədir. "Dövlət" haqqında opportunist mövhumatlarına qarşı mübarizə aparmadan zəhmətkeş kütlələri ümumiyyətlə burjuaziyanın və xüsusilə imperialist burjuaziyanın təsirindən xilas etmək uğrunda mübarizə aparmaq mümkün deyildir.

Biz əvvəlcə Marksın və Engelsin dövlət haqqında təlimini gözdən keçirərək, bu təlimin unudulmuş və ya opportunistcəsinə təhrif edilmiş cəhətləri üzərində xüsusilə ətraflı dayanırıq. Sonra biz həmin təlimi təhrif edənlərin başlıca nümayəndəsi və hazırkı mühatibə zamanı çox acınacaqlı dərəcədə iflas etmiş ikinci İnternasionalın (1889—1914-cü illər) ən məşhur başçısı olan Karl Kautskidən ayrıca danışacağıq. Nəjayət, biz 1905-ci il və xüsusilə 1917-ci il rus inqilablarının təcrübəsinin başlıca yekununu verəcəyik. 1917-ci il inqilabı, yəqin ki, indi (1917-ci avqustun əvvəllərində) öz inkişafının birinci dövrünü qurtarmaqdadır, lakin ümumiyyətlə bütün bu inqilab imperialist müharibəsinin doğurduğu sosialist proletar inqilabları silsiləsinin ancaq bir halqası kimi başa düşülə bilər. Beləliklə, proletariatın sosialist inqilabının dövlətə münasibəti məsələsi yalnız əməli-siyasi əhəmiyyəti olan bir

downloaded from KitabYurdu.org

məsələ deyil, həm də günün ən vacib məsələsi əhəmiyyətini alır, çünki bu, kapitalın zülmündən xilas olmaq üçün kütlələrin ən yaxın gələcəkdə nə etməli olacaqlarını onlara izah etmək məsələsidir.

*Müəllif*

Avqust 1917-ci il

**İkinci nəşrə müqəddimə**

Bu ikinci nəşr, demək olar, heç bir dəyişiklik edilmədən çap olunur. Yalnız II fəslə 3-cü paraqraf əlavə edilmişdir.

*Müəllif*

Moskva

17 dekabr 1918-ci il

## I FƏSİL SİNİFLİ CƏMİYYƏT VƏ DÖVLƏT

### 1. DÖVLƏT — SİNFİ ZİDDİYƏTLƏRİN BARIŞMAZLIĞI MƏHSULUDUR

İnqilabçı mütəfəkkirlər və məzlum siniflərin başçıları azadlıq uğrunda mübarizə aparırkən tarixdə dəfələrlə onların təlimlərinin başına gələnlər indi Marksın təliminin başına gəlir. Böyük inqilabçıların sağlığında zalım siniflər onları daim təqib etmiş, onların təlimini ən vəhşi bir ədavətlə, ən azğın bir nifrətlə, ən həyasız yalan və iftiralarla qarşılamışlar. Öləndən sonra onları zərərsiz bir ikonaya çevirməyə, necə deyərlər, müqəddəsləşdirməyə çalışır, məzlum siniflərə “təsəlli” vermək və onları aldatmaq üçün həmin şəxslərin *adını* müəyyən dərəcə şöhrətləndirməyə cəhd edərək, inqilabi təlimin *məzmununu* çıxarıb atır, onun inqilabi kəskinliyini kütləşdirir, onu bayağılaşdırırlar. İndi burjuaziya və fəhlə hərəkatı içərisindəki opportunistlər marksizm üzərində bu cür “əməliyyat aparmaqda” birləşirlər. Təlimin inqilabi cəhətini, onun inqilabi ruhunu unudurlar, çıxarıb atırlar, təhrif edirlər. Burjuaziya üçün əlverişli olan və ya əlverişli görünən cəhətləri ön sıraya keçirir, tərifləyirlər. İndi bütün sosial-şovinistlər “marksistdilər”, sizə zarafat gəlməsin! Buna görə də, hələ dünənədək marksizmi məhv etmək mütəxəssisi olan alman burjua alimləri, indi tez-tez “milli alman” Marksından danışıb deyirlər ki, guya Marks, soyğunçuluq müharibəsi aparmaq üçün bu qədər gözəl təşkil edilmiş olan fəhlə ittifaqları yetişdirmişdir.

Vəziyyət belə ikən, marksizm eşidilməmiş bir miqyasda təhrif edilirkən, bizim vəzifəmiz ən əvvəl Marksın dövlət haqqında həqiqi təlimini *bərpa etməkdir.* Bunun üçün Marksın və Engelsin öz əsərlərindən bir sıra uzun sitatlar gətirmək lazımdır. Əlbəttə, uzun sitatlar şərhi ağırlaşdıracaq və onun və onun sadə olmasına zərrə qədər kömək etməyəcəkdir. Lakin bu sitatları gətirmədən keçinmək qətiyyən mümkün deyildir. Marksın və Engelsin əsərlərindən dövlət məsələsinə aid bütün yerləri və ya heç olmazsa bütün mühüm yerləri mümkün qədər tam bir şəkildə hökmən göstərmək lazımdır ki, oxucu elmi sosializm banilərinin baxışlarının məcmusu haqqında və bu baxışların inkişafı

downloaded from KitabYurdu.org

haqqında müstəqil bir təsəvvür hasil edə bilsin, habelə bu baxışların indi hökm sürən “kautskiçilik” tərəfindən təhrif olunduğu sənədlərlə sübut edilsin və ya əyani surətdə göstərilsin.

Fr. Engelsin ən çox yayılmış və hələ 1894-cü ildə Ştutqartda 6-cı nəşri çıxmış “Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi” əsərindən başlayaq. Biz gətirəcəyimiz sitatları alman orijinallarından tərcümə etməli olacağıq, çünki bunların rusca tərcümələri, nə qədər cox olsa da, əksərən ya natamamdır, ya da olduqca yarıtmazdır.

Engels öz tarixi təhlilinə yekun vuraraq deyir:

“Dövlət heç də cəmiyyətə kənardan qəbul etdirilən bir qüvvə deyildir. Dövlət, habelə, Hegelin iddiya etdiyi kimi, heç də “mənəvi ideyanın gerçəkliyi”, “zəkanın surəti və gerçəkliyi” deyildir. Dövlət müəyyən inkişaf pilləsində cəmiyyətin məhsuludur; dövlət bunun etiraf edilməsidir ki, həmin cəmiyyət öz həlledilməz ziddiyəti içərisində dolaşıb qalmışdır, o, elə barışmaz əksliklərə parçalanmışdır ki, bunlardan xilas olmağa acizdir. Bu əksliklərin, iqtisadi mənafeyi bir-birinə zidd olan olan siniflərin səmərəsiz mübarizədə bir-birini və cəmiyyəti udmaması üçün, görünür, cəmiyyətdən yüksəkdə duran bir qüvvə, toqquşmanı məhdudlaşdıra biləcək, onu “qayda-qanun” çərçivəsində saxlaya biləcək bir qüvvə lazım olmuşdur. Cəmiyyətdən törəyən, lakin özünü cəmiyyətdən yüksək tutan, özünü cəmiyyətdən getdikcə daha çox dərəcədə ayıran həmin qüvvə dövlətdir” (almanca altıncı nəşrinin 177-178 səhifələri).

Dövlətin tarixi rolu və əhəmiyyəti məsələsi haqqında marksizmin əsas ideyası burada tamamilə aydın ifadə olunmuşdur. Dövlət sinfi ziddiyətlərin barışmazlığı məhsulu və təzahürüdür. Sinfi ziddiyyətlər harada, nə zaman və nə dərəcədə obyektiv surətdə*barışdırıla bilmirsə,* dövlət də orada, o zaman və o dərəcədə meydana gəlir. Və əksinə: dövlətin mövcud olması sübut edir ki, sinfi ziddiyətlər barışmazdır.

Marksizm məhz bu ən mühüm və əsas məsələdə təhrif edilməyə başlanmışdır və onun təhrif olunması iki başlıca xətlə gedir.

Bir tərəfdən, şəksiz tarixi faktların təzyigi altında dövlətin ancaq sinfi ziddiyyətlər və sinfi mübarizə olan yerdə mövcud olduğunu etiraf etməyə məcbur olan burjua ideoloqları və xüsusilə xırda burjua ideoloqları Marksı elə “təshih edirlər” ki, dövlət sinifləri *barışdıran* bir orqan olur. Marksa görə , sinifləri barışdırmaq mümkün olsaydı, dövlət nə meydana gələ bilər, nə də yaşaya bilərdi. Meşşan və filister professorların və publisistlərin dediklərindən — çox vaxt öz aləmlərində Marksa xeyirxahlıqla istinad etməklə! — belə çıxır ki, dövlət sinifləri məhz barışdırır. Marksa görə, dövlət — sinfi *hökmranlıq* orqanıdır, bir sinfin başqa sinfə *zülm* etmək orqanıdır, siniflər arasında toqquşmanı məhdudlaşdıraraq, bu zülmü qanuni şəklə salan və möhkəmləndirən “qayda-qanun” yaradılmasıdır. Xırda burjua siyasətçilərinin fikrincə qayda-qanun — bir sinfin başqa sinfə zülm etməsi deyil, siniflərin məhz barışdırılmasıdır; onların fikrincə, toqquşmanı məhdudlaşdırmaq — zalımların

downloaded from KitabYurdu.org

devrilməsi uğrunda müəyyən mübarizə vasitələrini və üsullarını məzlum siniflərin əlindən almaq deyil, sinifləri barışdırmaqdır.

Məsələn, 1917-ci il inqilabında, dövlətin əhəmiyyəti və rolu məsələsi məhz bütün əzəməti ilə meydana çıxdığı zaman, dərhal fəaliyyətə başlamaq, həm də kütləvi miqyasda fəaliyyətə başlamaq məsələsi kimi əməli bir şəkildə meydana çıxdığı zaman bütün eserlər (sosialist-inqilabçılar) və menşeviklər dərhal və bütünlüklə, "dövlətin" sinifləri "barışdırması" haqqında xırda burjua nəzəriyyəsinə yuvarlandılar. Bu hər iki partiyanın siyasətçilərinin saysız-hesabsız qətnamə və məqalələri başdan-başa bu meşşan və filister "barışdırma" nəzəriyyəsi ruhundadır. Dövlət öz antipodu ilə (ozünə əks olan siniflə) barışdırıla *bilməyən* müəyyən bir sinfin hökmranlığı orqanıdır; bunu isə xırda burjua demokratiyası heç bir zaman anlamaq iqtidarında deyildir. Dövlətə münasibət — bizim eser və menşeviklərin əsla sosialist deyil (bunu isə biz bolşeviklər həmişə həmişə sübut etmişik), sosialist adı ilə boşboğazlıq edən xırda burjua demokratları olduqlarını göstərən ən əyani təzahürlərdən biridir.

Digər tərəfdən, marksizmin "kautskicəsinə" təhrifi daha incədir. Dövlətin nə sinfi hökmranlıq orqanı olduğu, nə də sinfi ziddiyyətlərin barışmaz olduğu "nəzəri" cəhətdən inkar edilmir. Lakin aşağıda göstərilən cəhət nəzərdən qaçırılır və ya ört-basdır edilir: əgər dövlət sinfi ziddiyyətlərin barışmazlığı məhsuludursa, əgər dövlət cəmiyyətdən yüksəkdə duran və "ozünü *getdikcə* cəmiyyətdən *daha çox ayıran"* bir qüvvədirsə, onda aydındır ki, nəinki zorakı inqilab olmadan, *hətta* hakim sinfin yaratmış olduğu və bu "ayrılmanı" təcəssüm etdirən dövlət hakimiyyəti aparatını *məhv etmədən* məzlum sinfin azad edilməsi mümkün deyildir. Nəzəri cəhətdən özlüyündə aydın olan bu nəticəni Marks aşağıda görəcəyimiz kimi, inqilab vəzifələrinin konkret-tarixi təhlili əsasında çıxarıb tamamilə qəti şəkildə irəli sürmüşdür. Məhz bu nəticəni Kautski — aşağıda ətraflı surətdə göstərəcəyimiz kimi — …"unutmuş" və təhrif etmişdir.

**2. SİLAHLI ADAMLARDAN İBARƏT XÜSUSİ DƏSTƏLƏR, HƏBSXANALAR VƏ S.**

Engels sözünə davam edərək deyir:

"…Qədim gentil (qəbilə və ya klan) təşkilatından dövlətin fərqi — əvvələn, dövlətin təbəələrinin ərazi bölgülərinə görə bölünməsindən ibarətdir…".

Bu bölgü bizə "təbii" görünür, lakin bu bölgü, qəbilə şaxələri və ya qəbilələr üzrə olan qədim təşkilatla uzun mübarizə nəticəsində əmələ gəlmişdir.

"…İkinci fərqləndirici cəhət — ictimai hakimiyyət təsis edilməsidir ki, bu da özünü silahlı bir qüvvə kimi təşkil edən əhalinin daha eyni deyildir. Bu xüsusi ictimai hakimiyyət ona görə lazımdır ki, əhalinin müstəgil fəaliyyət göstərən silahlı təşkilatı, cəmiyyət siniflərə bölünəndən sonra daha qeyri-mümkün olmuşdur… Bu ictimai hakimiyyət hər bir dözlətdə vardır. Bu hakimiyyət yalnız silahlı

downloaded from KitabYurdu.org

adamlardan ibarət deyil, eyni zamanda əlavə maddi vasitələrdən, həbsxanalardan və müxtəlif cəbr təsisatlarından da ibarətdir ki, bunlar cəmiyyətin qəbilə (klan) quruluşunda yox idi…”

Engels dövlət adlanan “qüvvə” anlayışını, cəmiyyətdən törəmiş olan, lakin özünü cəmiyyətdən yüksək tutan və getdikcə özünü cəmiyyətdən daha çox ayıran qüvvə anlayışını geniş izah edir. Bu qüvvə başlıca olaraq nədən ibarətdir? Öz ixtiyarında həbsxanalar və sairə olan silahlı adamların xüsusi dəstələrindən ibarətdir.

Silahlı adamlardan ibarət xüsusi dəstələrdən danışmağa bizim haqqımız vardır, çünki hər bir dövlətə xas olan ictimai hakimiyyət silahlı əhalinin, onun “müstəqil hərəkət edən silahlı təşkilatının” “lap eyni deyildir”.

Bütün böyük inqilabçı mütəfəkkirlər kimi, Engels də şüurlu fəhlələrin diqqətini məhz ona cəlb etməyə şalışır ki, hökmran meşşanlar bunu ən az diqqətəlayiq, ən çox adət edilmiş, nəinki möhkəm mövhumatın, hətta, demək olar, donub qalmış olan köhnə mövhumatın təqdis etdiyi bir şey hesab edirlər. Daimi qoşun və polis dövlət hakimiyyəti qüvvəsinin başlıca alətləridir, məgər başqa cür ola bilərmi?

XIX əsrin axırlarında yaşamış və Engelsin müraciət etdiyi və heç bir böyük inqilab görməmiş, yaxından müşahidə etməmiş olan avropalıların çox böyük əksəriyyətinin nöqteyi-nəzərincə, bu, başqa cür ola bilməz. Onlara qətiyyən aydın deyildir ki, “əhalinin müstəgil fəaliyyət göstərən silahlı təşkilatı” nə deməkdir? Silahlı adamlardan ibarət olub özlərini cəmiyətdən yüksək tutan, cəmiyyətdən ayıran xüsusi dəstələrə (polis, daimi ordu) ehtiyac nədən doğmuşdur — deyə sual etdikdə, Qərbi Avropa və rus filisteri, Spenserdən və ya Mixaylovskidən götürülmüş bir-iki sözlə cavab verib bunu ictimai həyatın mürəkkəbləşməsi, vəzifə bölgüsü və sairə ilə əsaslandırmaq istəyir.

Onların irəli sürdükləri belə bir dəlil zahirən “elmi” görünür və başlıca və əsas cəhəti: cəmiyyətin barışmaz düşmən siniflərə parçalanmasını pərdələyərək meşşanı yaxşıca yuxuya verir.

Bu parçalanma olmasaydı, “əhalinin müstəgil fəaliyyət göstərən silahlı təşkilatı”, əllərinə ağac götürə bilən meymunlar sürüsünün və ya ibtidai insanların və ya da klan cəmiyyətlərində birləşmiş insanların ibtidai təşkilatından öz mürəkkəbliyi ilə, öz texnikasının yüksəkliyi və sairə ilə fərqlənərdi, lakin belə bir təşkilat mümkün olardı.

Bu təşkilat ona görə mümkün deyildir ki, mədəni cəmiyyət bir-birinə düşmən olan, həm də barışmaz düşmən olan siniflərə parçalanmışdır və bu siniflərin “müstəqil” silahlanması onların bir-biri ilə silahlı mübarizəsinə səbəb olardı. Dövlət əmələ gəlir, xüsusi qüvvə, silahlı adamlardan ibarət xüsusi dəstələr yaradılır, hər bir inqilab isə, dövlət aparatını dağıtmaqla, bizə açıq-aşkar sinfi mübarizəni göstərir, bizə aydın surətdə göstərir ki, hakim sinif silahlı adamlardan ibarət *özünə* xidmət edən xüsusi dəstələri necə bərpa etməyə çalışır, göstərir ki, məzlum sinif istismarçılara deyil, istismar olunanlara xidmət edə biləcək bu cür yeni bir təşkilatı necə yaratmağa çalışır.

downloaded from KitabYurdu.org

Hər bir böyük inqilabın əməli olaraq, açıq surətdə, həm də kütləvi hərəkət miqyasında qarşımıza qoyduğu məsələni, yəni silahlı adamlardan ibarət "xüsusi" dəstələrə "əhalinin müstəqil fəaliyyət göstərən silahlı təşkilatı" arasında qarşılıqlı münasibət məsələsini Engels, göstərdiyimiz mülahizəsində, nəzəri şəkildə irəli sürür. Biz Avropa və rus inqilabları təcrübəsinin bu məsələni konkret şəkildə necə aydınlaşdırdığını görəcəyik.

Lakin Engelsin dediklərinə qayıdaq.

Engels göstərir ki, bəzi hallarda, məsələn, Şimali Amerikanın bəzi yerlərində bu ictimai hakimiyyət zəifdir (kapitalizm cəmiyyətində çox az təsadüf edilən hallar və Şimali Amerikanın imperializmdən qabaqkı dövründə orada sərbəst kolonistin üstün olduğu yerlər nəzərdə tutulur), lakin ümumiyyətlə dedikdə, bu hakimiyyət güclənir:

"…Dövlət daxilində sinfi ziddiyətlər kəskinləşdikcə və bir-biri ilə təmasda olan dövlətlər və onların əhalisi çoxaldıqca, ictimai hakimiyyət də güclənir. Heç olmazsa indiki Avropaya baxın; burada sinfi mübarizə və istila rəqabəti ictimai hakimiyyəti o qədər kəskinləşdirmişdir ki, o, bütün cəmiyyəti və hətta dövləti də udmaq dərəcəsinə gəlmişdir…"

Bu sözlər ən geci keçən əsrin 90-cı illərinin əvvəllərində yazılmışdır. Engelsin son müqəddiməsinə 1891-ci il 16 iyun tarixi qoyulmuşdur. O zaman həm trestlərin tam hökmranlığı mənasında, həm ən böyük bankların hər şeyə hakim olması mənasında, həm də çox geniş müstəmləkə siyasəti və sairə mənasında imperalizmə doğru dönüş Fransada hələ yenicə başlanırdı, Şimali Amerikada və Almaniyada isə daha zəif idi. O zamandan bəri "istila rəqabəti" hədsiz dərəcədə irəliləmişdir, xüsusən ona görə ki, XX əsrin ikinci onilliyinin əvvəllərində yer kürəsini həmin "rəqabət edən istilaçılar", yəni böyük soyğunçu dövlətlər öz aralarında tamamilə bölüşdürmüşdülər. Silahlı hərbi və dəniz qüvvələri o zamandan bəri hədsiz dərəcədə artmış və İngiltərəninmi, yoxsa Almaniyanın dünyaya hakim olması üstündə, qəniməti bölüşdürmək üstündə 1914—1917-ci illərdəki soyğunçuluq müharibəsi yırtıcı dövlət hakimiyyətinin cəmiyyətdəki bütün qüvvələri "udmasını" tamamilə fəlakət dərəcəsinə yaxınlaşdırdı.

Engels hələ 1891-ci ildə göstərə bilmişdi ki, "istila rəqabəti" böyük dövlətlərin xarici siyasətində ən mühüm fərqləndirici əlamətlərdən biridir, sosial-şovinizm əclafları isə 1914—1917-ci illərdə, yəni bu rəqabət qat-qat kəskinləşərək imperialist müharibəsini törətmiş olduğu bir zamanda, "öz" burjuaziyasının soyğunçuluq mənafeyini müdafiyə etdiklərini "vətəni müdafiə", "respublikanı və inqilabı müdafiə" və sairə haqqında ibarələrlə pərdələyirlər!

### 3. DÖVLƏT MƏZLUM SİNFİ İSTİSMAR ETMƏK ALƏTİDİR

Cəmiyyətdən yüksəkdə duran xüsusi ictimai hakimiyyətin xərcləri üçün vergilər və dövlət borcları lazımdır.

Engels yazır:

downloaded from KitabYurdu.org

"…İctimai hakimiyyətə və vergi almaq ixtiyarına malik olan məmurlar cəmiyyət orqanları olmaq etibarı ilə cəmiyyətdən *yüksəkdə* dururlar. Vaxtı ilə qəbilə (klan) cəmiyyəti orqanlarına olan azad və könüllü hörmət onlara daha kifayət deyildir, — hətta bu hörməti qazana bilsələr də, onlar üçün daha kifayət deyildir…". Məmurların müqəddəsliyi və toxunulmazlığı haqqında xüsusi qanunlar yaradılır. "Ən miskin bir polis qulluqçusu" klan nümayandələrindən daha "nüfuzlu" olur, lakin mədəni bir dövlətin hərbi hakimiyyət başçısı belə, cəmiyyətdə klan ağsaqqalının "dəyənək gücünə qazanılmamış hörmətinə" qibtə edə bilərdi.

Dövlət hakimiyyəti orqanları olmaq etibarı ilə məmurların imtiyazlı vəziyyətə malik olması məsələsi burada qoyulmuşdur. Əsas cəhət olaraq göstərilmişdir ki, onları cəmiyyətdən*yüksəyə* qaldıran nədir? Bu nəzəri məsələni 1871-ci ildə Paris Kommunasının əməli surətdə necə həll etdiyini və 1912-ci ildə Kautskinin irticaçılıqla necə ört-basdır etdiyini görəcəyik.

"…Dövlət siniflərin əksliyini cilovlamaq tələbatından meydana gəldiyinə görə, o, eyni zamanda bu siniflərin öz toqquşmaları içərisində meydana gəldiyinə görə, bu dövlət ümumi bir qayda olaraq ən qüdrətli, iqtisadi cəhətdən hökmran sinfin dövlətidir; bu sinif dövlətin köməyi ilə siyasi cəhətdən də hökmran sinif olur və beləliklə, məzlum sinfi əzmək və istismar etmək üçün yeni vasitələr əldə edir…". Nəinki təkcə qədim dövlət və feodal dövlət qulları və təhkimliləri istismar etmək orqanları idi, habelə "hazırkı nümayəndəli dövlət də muzdlu əməyin kapital tərəfindən istismar edilməsi alətidir. Lakin istisna olaraq bəzi dövrlərdə, mübarizə edən siniflərin qüvvələri arasında elə bir müvazinət əmələ gəlir ki, dövlət hakimiyyəti müəyyən bir müddət ərzində hər iki sinfə nisbətən müəyyən müstəqillik əldə edir və zahirən bu siniflər arasında bir vasitəçi olur…". XVII və XVIII əsrlərin mütləq monarxiyası, Fransada birinci və ikinci imperiyanın bonapartizmi, Almaniyada Bismark bu qəbildəndir.

Özümüzdən əlavə edək ki, xırda burjua demokratlarının rəhbərliyi üzündən Sovetlər *artıq*gücsüz olduğu, burjuaziya isə Sovetləri açıqdan-açığa qovub dağıtmaq üçün *hələ* kifayət qədər güclü olmadığı bir vaxtda respublika Rusiyasında Kerenski hökuməti inqilabçı proletariatı təqib etməyə keçdikdən sonra o da bu qəbildəndir.

Demokratik respublikada, — deyə Engels davam edir, — "sərvət öz hakimiyyətindən dolayı yolla, lakin daha qəti istifadə edir" — yəni əvvələn, "məmurları pul gücünə açıqca ələ almaq" vasitəsi ilə (Amerika), ikincisi, "hökumətlə birja arasında ittifaq" vasitəsi ilə (Fransa və Amerika) istifadə edir.

Sərvətin tam hakimiyyətini qorumaq və həyata keçirmək məqsədi daşıyan bu üsulların hər ikisini, hazırda imperializm və bank hökmranlığı hər bir demokratik respublikada "inkişaf" etdirib fövqəladə bir məharət dərəcəsinə çatdırmışlar. Məsələn, Rusiyada demokratik respublikanın lap birinci aylarında, koalisiyalı hökumətdə "sosialist" eserlərin və menşeviklərin burjuaziya ilə nigaha girdikləri lap birinci ayda, c. Palçinski kapitalistləri və onların talançılığını, hərbi sifarişlərdə onların xəzinəni

downloaded from KitabYurdu.org

soymalarını cilovlamaq üçün bütün tədbirləri sabotaj edirdisə, sonralar nazirlikdən getmiş (əlbəttə, lap özü kimi başqa bir Palçinski ilə əvəz edilmiş) olan c. Palçinski kapitalistlər tərəfindən ildə 120 000 manat maaş verilən bir vəzifə ilə "təltif" edilmişsə, — bu nə deməkdir? pul ilə açıq yolla ələ almaqdır, yoxsa dolayı yolla ələ almaqdır? hökümətin sindikatlarla ittifaqıdır, yoxsa, "yalnız" dostluq münasibətidir? Çernovlar və Seretelilər, Avksentyevlər və Skobelevlər nə kimi rol oynayırlar? — Onlar xəzinə soyan milyonçuların "açıq" müttəfiqidirlərmi, yoxsa ancaq dolayısı ilə müttəfiqidirlər?

Demokratik respublikada "sərvətin" tam hakimiyyəti ona görə *daha qəti* hakimiyyətdir ki, bu, siyasi mexanizmin ayrı-ayrı nöqsanlarından, kapitalizmin pis siyasi pərdəsindən asılı deyildir. Demokratik respublika kapitalizm üçün mümkün olan ən yaxşı siyasi pərdədir, buna görə də kapital (Palçinskilər, Çernovlar, Seretelilər və Kº-sı vasitəsi ilə) həmin ən yaxşı pərdəyə yiyələndikdən sonra öz hakimiyyətini o qədər etibarlı, o qədər qəti qurur ki, burjua-demokratik respublikasında nə şəxslər, nə müəssisələr, nə də partiyalar *nə cür* dəyişilirsə dəyişilsin, bu hakimiyyəti sarsıtmır.

Bunu da qeyd etmək lazımdır ki, Engels ümumi seçki hüququnu da tam qətiyyətlə burjuaziyanın hökmranlığı aləti adlandırır. Engels alman sosial-demokratiyasının uzunmüddətli təcrübəsini tamamilə nəzərə alaraq, deyir ki, ümumi seçki hüququ

"fəhlə sinfinin yetkinliyi əlamətidir. Həmin seçki hüququ indiki dövlətdə bundan artıq bir şey verə bilməz və heç bir zaman verməyəcəkdir".

Bizim eser və menşeviklər kimi xırda burjua demokratları, habelə onların doğma qardaşları olan bütün Qərbi Avropa sosial-şovinistləri və opportunistləri ümumi seçki hüququndan məhz daha "çox şey" gözləyirlər. Onlar özləri belə bir yanlış fikirdə olub xalqı da aldatmağa çalışırlar ki, guya "*indiki* dövlətdə" ümumi seçki hüququ zəhmətkeşlərin əksəriyyətinin iradəsini həqiqətən aşkara çıxarıb onun həyata keçirilməsini möhkəmlədə bilər.

Biz burada həmin yalan fikri ancaq qeyd edib bir də onu göstərə bilərik ki, Engelsin tamamilə aydın, dürüst, konkret şəkildə dedikləri, "rəsmi" (yəni opportunist) sosialist partiyalarının təbliğat və təşviqatında hər addımda təhrif olunur. Marksın və Engelsin *"indiki"* dövlətə olan baxışlarını şərh edəcəyimiz zaman, Engelsin burada rədd etdiyi fikrin tamamilə yalan fikir olması ətraflı surətdə aydınlaşdırılacaqdır.

Engels ən geniş yayılmış olan əsərində öz baxışlarına bu sözlərlə ümumi yekun vurur:

"Deməli, dövlət ta əzəldən mövcud olan bir şey deyildir. Elə cəmiyyətlər olmuşdur ki, bunlar dövlətsiz keçinmişlər, dövlətin və dövlət hakimiyyətinin nə olduğunu bilməmişlər. İqtisadi inkişafın parçalanma nəticəsində zəruri bir şey olmuşdur. Biz indi surətli addımlarla irəliləyib istehsalın elə bir inkişaf pilləsinə yaxınlaşırıq ki, bu pillədə həmin siniflərin mövcudluğu nəinki daha zəruri olmur, həttta istehsal üçün açıq bir maneəyə çevrilir. Siniflər keçmişdə labüd olaraq meydana gəldikləri kimi, yenə labüd olaraq yox olacaqlar. Siniflərin yox olması ilə dövlət də labüddən yox olacaqdır. İstehsalçıların

downloaded from KitabYurdu.org

azad və bərabər hüququqla birləşməsi əsasında istehsalı yeni qaydada təşkil edəcək cəmiyyət o zaman bütün dövlət maşınına layiqli yer tapacaq, yəni onu qədim şeylərmuzeyində cəhrə və bürünc balta bir yerə qoyacaqdır".

Müasir sosial-demokratiyanın təbliğat və təşviqat ədəbiyyatında bu sitata heç də tez-tez təsadüf edilmir. Lakin təsadüf edildikdə də sitatı çox vaxt elə bir şəkildə gətirirlər ki, sanki ikona qarşısında səcdə edirmişlər, yəni Engelsə rəsmi hörmət ifadəsi olaraq gətirir və qətiyyən düşünmək istəmirlər ki, "bütün dövlət maşınının qədim şeylər muzeyinə qoyulması" dedikdə, nə qədər geniş və dərin miqyaslı bir inqilab nəzərdə tutulur. Çox vaxt hətta Engelsin nəyi dövlət maşını adlandırdığını başa düşdükləri də görünmür.

**4. DÖVLƏTİN "ÖLÜB GETMƏSİ" VƏ ZORAKI İNQİLAB**

Dövlətin "ölüb getməsi" haqqında Engelsin sözləri o qədər geniş məşhurdur, o qədər tez-tez sitat gətirilir və marksizmin adətən saxtalaşdırılıb opportunizm halına salınmasının mahiyyətinin nədən ibarət olduğunu o qədər qabarıq surətdə göstərir ki, bunların üzərində ətraflı dayanmaq lazımdır. Bu sözlər haradan götürülmüşsə, o hissəni burada bütünlüklə qeyd edək:

"Proletariat dövlət hakimiyyətini ələ alır və istehsal vasitələrini ən əvvəl dövlət mülkiyyətinə çevirir. Lakin bununla o özünü proletariat olmaq etibarı ilə məhv edir, bununla o bütün sinfi fərqləri və sinfi əksikləri, bununla birlikdə isə dövləti də bir dövlət kimi məhv edir. İndiyədək mövcud olan və indi mövcud sinfi əksiklər içərisində hərəkət edən cəmiyyətə dövlət lazım idi, yəni istismarçı sinfin təşkilatı lazım idi ki, bu sinfin xarici istehsal şəraitini qorusun, deməli, xüsusən ona görə lazım idi ki, istismar edilən sinfi mövcud istehsal üsuluna xas olan əsarət (köləlik, təhkimçilik, muzdlu əmək) şəraitində zorla saxlasın. Dövlət bütün cəmiyyətin rəsmi nümayəndəsi, onun zahiri bir korporasiya halında cəmləşməsi idi, lakin dövlət yalnız ona görə belə idi ki, öz dövründə bütün cəmiyyəti təkbaşına təmsil edən bir sinfin dövləti idi: qədimdə o, quldarların — dövlətdəki vətəndaşların dövləti idi, orta əsrlərdə feodal zadəganlar dövləti idi, bizim zəmanəmizdə isə burjuaziyanın dövlətidir. O zaman ki, dövlət ən nəhayət doğrudan da bütün cəmiyyətin nümayəndəsi oldu, onda özü özünü gərəksiz edir. O zaman ki, itaətdə saxlanılmalı heç bir ictimai sinif olmadı, o zaman ki, sinfi hökmranlıqla birlikdə və hər bir ayrıca yaşayış uğrunda aparılan mübarizə ilə, yəni müasir istehsal hərc-mərcliyindən doğan mübarizə ilə birlikdə bu mübarizədən doğan toqquşmalar və eksseslər (ifratçılıqlar) aradan qalxdı, — o zamandan etibarən əziləsi bir şey qalmayacaq, əzmək üçün xüsusi qüvvəyə, dövlətə də ehtiyac olmayacaqdır. Dövlətin həqiqətdə bütün cəmiyyətin nümayəndəsi olaraq gördüyü ilk tədbir — istehsal vasitələrini cəmiyyət adından ələ almaq tədbiri — eyni zamanda onu dövlət olaraq müstəqil surətdə gördüyü son tədbirdir. Dövlət hakimiyyətinin ictimai münasibətlərə qarışması gah bir, gah başqa sahədə gərəksiz olacaq və öz-özünə aradan qalxacaqdır. Şəxsləri idarə etmək əvəzinə, şeylər idarə olunacaq və istehsal proseslərinə rəhbərlik ediləcəkdir. Dövlət

downloaded from KitabYurdu.org

“ləğv edilmir”, *ölüb gedir.* “Azad xalq dövləti” ifadəsinə, bir zaman təşviqat üçün lazım olan, lakin nəticə etibarı ilə elmi cəhətdən əsassız olan ifadəyə də buna əsasən qiymət vermək lazımdır. Anarxist deyilənlərin dövləti bu gün-sabah ləğv etmək tələbinə də yuxarıda göstərdiyimizə əsasən qiymət verilməlidir” (“Anti-Dürinq”, “cənab Yevgeni Dürinqin elmi alt-üst etməsi”, almanca 3-cü nəşrinin 301-303-cü səhifələri).”

Səhv etmədən demək olar ki, Engelsin bu çox zəngin fikirlərindən indiki sosialist partiyalarının sosialist təfəkküründə möhkəm yer tutan ancaq budur ki, dövlətin “ləğv edilməsi” haqqında anarxist təlimindən fərqli olaraq, Marksa görə, dövlət “ölüb gedir”. Marksizmin qol-qanadını bu cür qırmaq onu opportunizmə döndərmək deməkdir, çünki belə bir “təfsir” nəticəsində yavaş-yavaş, rahatca, tədrici dəyişiklik olacağı, sıçrayış və fırtınalar olmayacağı, inqilab olmayacağı kimi dumanlı təsəvvürdən başqa bir şey qalmır. Ağızlara düşmüş, geniş yayılmış mənada, belə demək olarsa, kütləvi mənada dövlətin “ölüb getməsi”, şübhəsiz, inqilabı pərdələmək, bəlkə də, onu inkar etmək deməkdir.

Halbuki belə bir “təfsir” marksizmi ancaq burjuaziya üçün əlverişli olan ən qaba bir surətdə təhrif etməkdir və bu təhrifin nəzəri əsası Engelsin heç olmazsa yuxarıda bütünlüklə qeyd etdiyimiz “yekunvurucu” mülahizəsindəki olduqca mühüm şərtləri və fikirləri unutmaqdan ibarətdir.

Birincisi. Bu mülahizənin lap əvvəlində Engels deyir ki, proletariat dövlət hakimiyyətini öz əlinə aldıqda, “bununla dövləti bir dövlət kimi məhv edir”. Bunun nə demək olduğu haqqında düşünmək “adət deyildir”. Adətən buna ya əsla fikir vermir, ya da bunu Engelsin “hegelçilik qüsuru” kimi bir şey hesab edirlər. Həqiqətdə bu sözlərə ən bpyük proletariat inqilablarından birinin təcrübəsi, 1871-ci il Paris Kommunasının təcrübəsi qısaca ifadə edilmişdir və yeri gəldikdə biz bu təcrübədən ətraflı danışacağıq. Həqiqətdə Engels burada proletar inqilabının *burjuaziyanın* dövlətini “məhv etməsindən danışır, halbuki, ölüb getmə sözləri sosialist inqilabından *sonra proletar* dövlətinin qalıqlarına aiddir. Engelsə görə, burjua dövləti “ölüb getmir” onu proletariat inqilabda “m ə h v e d i r”. Ölüb gedən, bu inqilabdan sonrakı proletar dövləti və ya yarımdövlətidir.

İkincisi. Dövlət “əzmək üçün xüsusi qüvvədir”. Engels bu gözəl və son dərəcə dərin mənalı tərifini burada tamamilə aydın vermişdir. Həmin tərifdən isə bu nəticə çıxır ki, burjuaziyanın proletariatı, bir ovuc varlıların milyonlarla zəhmətkeşi “əzməsi üçün olan xüsusi qüvvə”, proletariatın burjuaziyanı “əzməsi üçün olan xüsusi qüvvə” ilə (proletariat diktaturası ilə) əvəz olunmalıdır. “Dövlətin bir dövlət kimi məhv edilməsi” də məhz bundan ibarətdir. Cəmiyyət adından istehsal vasitələrini ələ almaq “tədbiri” də məhz bundan ibarətdir. Buna görə də özlüyündə aydındır ki, bir “xüsusi qüvvənin” (burjua qüvvəsinin) başqa “xüsusi qüvvə” ilə (proletar qüvvə ilə) *bu cür* əvəz olunması heç də “ölüb getmə” şəklində ola bilməz.

downloaded from KitabYurdu.org

Üçüncüsü. “Ölüb getməkdən” və hətta daha aydın və parlaq ifadə ilə “ömrü başa vurmaqdan” bəhs edirkən, tam aydınca və qəti surətdə Engels “bütün cəmiyyətin adından istehsal vasitələrini dövlətin öz ixtiyarına almasından” *s o n r a k ı* dövrü, yəni sosialist inqilabından *s o n r a k ı* dövrü nəzərdə tutur. Hamımız bilirik ki, bu zaman “dövlətin” siyasi forması ən tam demokratiyadır. Lakin marksizmi həyasızcasına təhrif edən opportunistlərdən heç birinin ağlına gəlmir ki, burada Engels eyni zamanda *d e m o k r a t i y a n ı n* “ömrünü başa vurmasından” və “ölüb getməsindən” danışır. İlk baxışda bu çox qəribə görünür. Lakin bu ancaq o adamlar üçün “anlaşılmazdır” ki, onlar demokratiyanın da dövlət olduğunu və deməli, dövlət yox olacağı zaman demokratiyanın da yox olacağını düşünmürlər. Burjua dövlətini ancaq inqilab “məhv edə” bilər. Ümumiyyətlə dövlət, yəni ən tam demokratiya isə ancaq “ölüb gedə” bilər.

Dördüncüsü. Engels “dövlət ölüb gedir” deyən öz məhşur müddəasını irəli sürürkən dərhal, konkret şəkildə izah edir ki, bu müddəa həm opportunistlər əleyhinə, həm də anarxistlər əleyhinədir. Həm də Engels, dövlətin “ölüb getməsi” müddəasının opportunistlərə qarşı olan nəticəsinə daha böyük əhəmiyyət verir.

Qəti demək olar ki, dövlətin “ölüb getməsi” sözlərini oxumuş və ya eşitmiş olan 10000 nəfərdən 9990 nəfəri əsla bilmir və ya unutmuşdur ki, Engelsin bu müddəasından çıxan nəticələr *təkcə* anarxistlərə qarşı deyildi. Qalan on adamdan isə yəqin doqquzu bilmir ki, “azad xalq dövləti” nədir və bu şüara edilən hücum nə üçün opportunistlərə edilən hücum deməkdir. Tarix belə yazılır! Böyük inqilabi təlim üstüörtülü surətdə bu cür saxtalaşdırılıb hökmran meşşanlığa çevrilir. Anarxistlərə qarşı çıxarılan nəticə min dəfələrlə təkrar edilmiş, bayağılaşdırılmış, ən səthi üsullarla beyinlərə yeridilmiş, bir mövhumat qədər kök salmışdır. Opportunistlərə qarşı çıxarılan nəticəni isə pərdələmiş və “unutmuşlar!”.

“Azad xalq dövləti” 70-ci illərin alman sosial-demokratlarının proqram tələbi və ağızlarda gəzən şüarı idi. Bu şüarda demokratiya anlayışının meşşancasına bir dəbdəbə ilə təsvirindən başqa heç bir siyasi məzmun yoxdur. Bu şüarda leqal surətdə demokratik respublikaya işarə edildiyi üçün Engels təşviqat nöqteyi-nəzərindən həmin şüarı “müvəqqəti” olaraq “doğrultmağa” hazır idi. Lakin bu şüar opportunist bir şüar idi, çünki həmin şüar göstərirdi ki, burjua demokratiyasına nəinki ancaq bəzək-düzək verirlər, həm də ümumiyyətlə hər cür dövlət barəsində sosialist tənqidini anlamırlar. Biz kapitalizm şəraitində proletariat üçün ən yaxşı bir dövlət forması olan demokratik respublikaya tərəfdarıq, lakin unuda bilmərik ki, ən demokratik burjua respublikasında da xalqın nəsibi muzdlu kölə olmaqdır. Sonra. Hər bir dövlət məzlum sinfi “əzmək üçün xüsusi bir qüvvədir”. Buna görə də *hər cür* dövlət azad dövlət *deyildir* və xalq dövləti *deyildir.* Marks və Engels bunu 70-ci illərdə öz partiya yoldaşlarına dəfələrlə izah etmişlər.

downloaded from KitabYurdu.org

Beşincisi. Engelsin məhz həmin əsərində, dövlətin ölüb getməsi fikrini hamının oxuduğu bu əsərdə zorakı inqilabın əhəmiyyətindən bəhs olunur. Engels zorakı inqilabın roluna tarix nöqteyi-nəzərindən qiymət verirkən bu inqilabı hədsiz dərəcədə mədh edir. Bu "heç kəsin yadlnda qalmamışdır", bu fikrin əhəmiyyətindən danışmaq və hətta onun üzərində düşünmək hazırkı sosialist partiyalarında adət deyildir, kütlələr arasında gündəlik təbliğat və təşviqatda bu fikirlər heç bir rol oynamır. Halbuki həmin fikirlər dövlətin "ölüb getməsi" ilə ayrılmaz surətdə əlaqədər olub mükəmməl bir vəhdət təşkil edir.

Engelsin həmin fikri budur:

"…Zorakılıq tarixdə başqa bir rol da oynayır" (bəla gətirməkdən başqa), zorakılıq "məhz inqilabi rol oynayır, Marksın dediyi kimi, hər bir köhnə cəmiyyət yeni bir cəmiyyətlə hamilə olduqda zorakılıq onun mamaçası olur, zorakılıq ictimai hərəkatınözünə yol açması və cansız, köhnəlib ölkünləşmiş olan siyasi formaları dağıtması üçün bir vasitədir, — bütün bunlardan c. Düring bir kəlmə də danışmır. O ancaq ah-zarla bunu mümkün sayır ki, istismarçıların ağalığını yıxmaq üçün, bəlkə də, zorakılıq lazım olsun, — görün, necə təəsüf edir! zira zorakılığın hər cür tətbiqi, güya onu tətbiq edənin özünü mənəvi cəhətdən pozğunlaşdırırmış. Həm də bu sözlər hər bir qalibiyyətli inqilab nəticəsində böyük mənəvi və ideya yüksəlişi əmələ gəldiyinə baxmayaraq deyilir! Həm də bu sözlər Almaniyada deyilir, xalqın güclə cəlb edilə biləcəyi zorakı toqquşma heç olmazsa bundan ibarıt olardı ki, Otuzillik müharibə nəticəsindəki alçalma üzündən milli şüurda kök salmış olan nökərçilik ruhunu məhv edərdi. Məhz bu sönük, zəif, aciz keşiş təfəkkürü cəsarət edib tarixdə ən inqilabçı bir partiyaya özünü təklif etmək istəyir?" (almanca 3-cü nəşrinin 193-cü səhifəsi, II fəslin 4-cü bölməsinin sonu).

Engelsin 1878-ci ildən 1894-cü ilə qədər, yəni lap öz vəfatına qədər zorakı inqilabı belə tərif edib alman sosial-demokratlarına təkidlə öyrətməsini, dövlətin "ölüb getməsi" nəzəriyyəsi ilə necə birləşdirib bir təlim halına salmaq olar?

Bunların hər ikisini adətən eklektisizm vasitəsi ilə birləşdirirlər, bu bu fikirlərin gah birini, gah digərini öz istədikləri kimi (yaxud hakimiyyət sahiblərinə yarınmaq üçün) əqidəsizcə və ya sofistcəsinə götürüb necə gəldi birləşdirirlər, həm də yüz haldan doxsan doqquzunda, bəlkə, daha çoxunda, məhz "ölüb getməni" ön sıraya qoyurlar. Dialektika eklektisizmlə əvəz edilir: bu, zəmanəmizin rəsmi sosial-demokrat ədəbiyyatında marksizmə qarşı ən adi, ən geniş yayılmış bir haldır. Bu cür əvəzetmə, əlbəttə, yeni bir şey deyildir, bu hətta klassik yunan fəlsəfəsi tarixində də müşahidə olunur. Marksizm saxtalaşdırılıb opportunizm şəklinə salındıqda eklektizizmin dialektika kimi qələmə verilməsi kütlələri daha asanlıqla aldadır, onları zahirən razı salır, guya prosesin hər tərəfini, inkişafın bütün meyllərini, bütün ziddiyyətli təsirləri və sairəni nəzərə alır, həqiqətdə isə ictimai inkişaf prosesi haqqında heç bir bütöv və inqilabi anlayış vermir.

downloaded from KitabYurdu.org

Biz, yuxarıda demişdik və sonra daha ətraflı göstərəcəyik ki, zorakı inqilabın labüdlüyü haqqında Marksın və Engelsin təlimi burjua dövlətinə aiddir. Bu dövlət "ölüb getmə" yolu ilə *deyil,* ümumibir qayda olaraq, ancaq zorakı inqilab nəticəsində proletar dövləti ilə (proletariat diktaturası ilə) əvəz edilə bilər. Engelsin zorakı inqilabı tərifləməsi Marksın dəfələrlə dediyi sözlərə tamamilə uyğundur ("Fəlsəfə yoxsulluğu" və "Kommunist Manifesti"nin axırında zorakı inqilabın labüd olmasının iftixarla, açıqca söylənildiyini xatırlayaq; təxminən 30 il sonra, 1875-ci ildə Qota proqramının tənqidində həmin proqramın opportunizmini Marksın amansızlıqla ifşa etdiyini xatırlayaq); bu tərif heç də "hissiyata uymaq" deyildir, heç də deklamasiya deyildir, ədəbi bir mübahisə deyildir. Kütlələri zorakı inqilaba daim *belə* və məhz belə bir baxış ruhunda tərbiyə etmək lüzumu Marksın və Engelsin *bütün* təliminin əsasını təşkil edir. İndi hökm sürən sosial-şovinist və kautskiçi cərəyanlar tərəfindən Marksın və Engelsin təliminə xəyanət edilməsi, *belə bir*təbliğatı, belə bir təşviqatı həm sosial-şovinistlərin, həm də kautskiçilərin unutmasında xüsusilə aydın görünür.

Zorakı inqilab olmadan burjua dövlətini proletar dövləti ilə əvəz etmək olmaz. Proletar dövlətinin məhv olması, yəni hər cür dövlətin məhv olması "ölüb getmə" yolundan başqa bir yolla mümkün deyildir.

***Hazırladı: Murad Əlimərdanov***

# I FƏSİL

### 1848—1851-ci İLLƏRİN TƏCRÜBƏSİ

1. **1. İNQİLAB ƏRƏFƏSİ**

Yetkin marksizmin ilk əsərləri olan "Fəlsəfə yoxsulluğu" və "Kommunist Manifesti" məhz 1848-ci il inqilabının ərəfəsində yazılmışdır. Bu səbəbdən burada marksizmin ümumi əsaslarının şərhi ilə bərabər o vaxtkı konkret inqilabi şəraitin müəyyən dərəcə əks olunduğunu da görürük; buna görə də bu əsərlərin müəllifləri 1848—1851-ci illərin təcrübəsindən nəticə çıxarandan azacıq əvvəl, onların dövlət haqqında dediklərini gözdən keçirmək, gərək ki, məqsədə daha uyğun olar.

Marks "Fəlsəfə yoxsulluğu" əsərində yazır:

"…İnkişaf gedişində fəhlə sinfi köhnə burjua cəmiyyətinin yerinə sinifləri və onların əksliyini rədd edən bir assosiasiya qoyacaqdır; artıq heç bir əsl siyasi hakimiyyət olmayacaqdır, zira məhz siyasi hakimiyyət burjua cəmiyyəti daxilində siniflərin əksliyinin rəsmi ifadəsidir" (1885-ci ildəki almanca nəşrinin 182-ci səhifəsi).

Siniflər məhv ediləndən sonra dövlətin yox olacağı haqqındakı fikrin bu ümumi şərhini Marksın və Engelsin bir neçə ay sonra, — yəni 1847-ci ilin noyabrında, — yazdıqları "Kommunist Manifesti"ndə verilmiş şərhi ilə tutuşdurmaq faydalıdır:

downloaded from KitabYurdu.org

"…Biz proletariatın inkişafının ən ümumi fazalarını təsvir edərkən, mövcud cəmiyyət daxilində az-çox gizli şəkildə olan vətəndaş müharibəsini onun açıq inqilaba çevirildiyi və proletariatın burjuaziyanı zorla yıxıb öz hökmranlığını qurduğu nöqtəyə qədər nəzərdən keçirtdik…

…Biz artıq yuxarıda gördük ki, fəhlə inqilabında birinci addım proletariatın hakim sinfə çevrilməsi" (hərfiyyən: yüksəlməsi), "demokratiya əldə edilməsidir.

Proletariat öz siyasi hökmranlığından bütün kapitalı tədriclə burjuaziyanın əlindən almaq, bütün istehsal alətlərini dövlətin, yəni hakim sinif halında təşkil olunmuş proletariatın əlində mərkəzləşdirmək və məhsuldar qüvvələr məcmusunu mümkün qədər daha sürətlə artırmaq üçün istifadə edəcəkdir" (1906-cı ildəki 7-ci almanca nəşrinin 31 və 37-ci səhifələri).

Burada biz dövlət məsələsində marksizmin ən gözəl və ən mühüm ideyalarından birinin, yəni (Paris Kommunasından sonra Marksın və Engelsin deməyə başladıqları kimi), "proletariat diktaturası" ideyasının tərifini, sonra isə dövlət haqqında, yenə marksizmin "unudulmuş sözlərindən" olan son dərəcə maraqlı bir tərifi görürük. *"Dövlət, yəni hakim sinif halında təşkil olunmuş proletariat".*

Dövlətin bu tərifi rəsmi sosial-demokrat partiyalarının hakim təbliğat və təşviqat ədəbiyyatında nəinki heç vaxt izah edilməmişdir. Bundan əlavə. Həmin tərif məhz unudulmuşdu, çünki o, reformizmlə tamamilə barışmazdır, "demokratiyanın dinc inkişafı" haqqında adi opportunist mövhumatına və meşşan xülyalarına zərbədir.

Proletariata dövlət lazımdır — bunu bütün opportunistlər, sosial-şovinistlər və kautskiçilər təkrar edərək inandırmağa çalışırlar ki, Marksın təlimi belədir; lakin onlar bunu əlavə etməyi *"unudurlar"* ki, əvvələn, Marksın fikrincə, proletariata ölüb getməli olan bir dövlət lazımdır, yəni bu dövlət elə qurulmalıdı ki, dərhal ölüb getməyə başlasın və ölüb getməyə bilməsin. İkincisi isə zəhmətkeşlərə "dövlət", "yəni hakim sinif halında təşkil olunmuş proletariat" lazımdır.

Dövlət, qüvvəyə malik xüsusi bir təşkilatdır, hər hansı bir sinfi əzmək üçün zorakılıq təşkilatıdır. Bəs proletariat hansı sinfi əzməlidir? Əlbəttə, ancaq istismarçı sinfi, yəni burjuaziyanı. Zəhmətkeşlərə dövlət ancaq istismarçıların müqavimətini qırmaq üçün lazımdır, bu müqaviməti qırmaq işinə rəhbərlik etməyə, bu işi həyata keçirməyə isə ancaq proletariat qabildir, çünki proletariat axıra qədər yeganə inqilabçı sinifdir, burjuaziyaya qarşı mübarizədə, onu tamamilə devirməkdə bütün zəhmətkeşləri və istismar olunanları birləşdirə biləcək yeganə sinifdir.

İstismarçı siniflərə siyasi hökmranlıq, istismarı saxlamaq üçün, yəni xalqın olduqca böyük çoxluğuna qarşı bir ovuc azlığın tamahkar mənafeyi üçün lazımdır. İstismar olunan siniflərə siyasi hökmranlıq, həər cür istismarı tamamilə məhv etmək üçün, yəni azlıq təşkil edən bir ovuc müasir quldarlara, yəni mülkədar və kapitalistlərə qarşı xalqın olduqca böyük coxluğunun mənafeyi üçün lazımdır.

Özlərini üzlərdən iraq sosialist adlandırıb sinfi mübarizəni siniflərin sazişi haqqında xülyalarla əvəz edən xırda burjua demokratları, sosialist dəyişikliyini də xəyalpərəstliklə təsəvvür edirdilər, yəni

downloaded from KitabYurdu.org

istismarçı sinfin hökmranlığını yıxmaq kimi deyil, öz vəzifələrini başa düşmüş olan çoxluğa azlığın dinc yolla tabe olması kimi təsəvvür edirdilər. Dövlətin siniflər fövqündə durmasını qəbul etməklə ayrılmaz surətdə bağlı olan bu xırda burjua utopiyası həqiqətdə zəhmətkeş siniflərin mənafeyinə xəyanət edilməsi ilə nəticələnirdi; bunu, məsələn, Fransada 1848-ci və 1871-ci illərdəki inqilabların tarixi göstərdi, bunu XIX əsrin axırlarında və XX əsrin əvvəllərində İngiltərədə, Fransada, İtaliyada və başqa ölkələrdə "sosialistlərin" burjua hökumətlərində iştirak etmək təcrübəsi göstərdi.

İndi Rusiyada eser və menşevik partiyaları tərəfindən dirçəldilmiş olan bu xırda burjua sosializminə qarşı Marks bütün ömrü boyu mübarizə etmişdir. Marks sinfi mübarizə təlimini ardıcıl surətdə inkişaf etdirib siyasi hakimiyyət təlimi, dövlət təlimi səviyyəsinə çatdırmışdır.

Burjuaziyanın hökmranlığını ancaq proletariat yıxa bilər, çünki proletariat elə xüsusi bir sinifdir ki, öz yaşayışının iqtisadi şəraiti onu bu hökmranlığı yıxmağa hazırlayır, bunu etmək üçün ona imkan və qüvvə verir. Burjuaziya kəndliləri və bütün xırda burjua təbəqələrini parçalayıb dağınıq vəziyyətə saldığı halda, proletariatı bir yerə toplayır, birləşdirir və təşkil edir. Burjuaziyanın proletarlara etdiyi zülmdən, onları istismar etməsi və əzməsindən çox vaxt heç də az deyil, bəlkə, daha çox istismar etdiyi, zülm etdiyi və əzdiyi, lakin öz azadlığı uğrunda *müstəqil* mübarizə aparmağa iqtidarı olmayan *bütün* zəhmətkeşlərə və istismar olunan kütlələrə iri sənayedəki iqtisadi rolu sayəsində ancaq proletariat rəhbər ola bilər.

Marksın dövlət məsələsinə və sosialist inqilabı məsələsinə tətbiq etdiyi sinfi mübarizə təlimi, proletariatın *siaysi hökmranlığının,* onun diktaturasının, yəni təkcə proletariata məxsus olub bilavasitə kütlələrin silahlı qüvvəsinə arxalanan bir hakimiyyətin qəbul olunmasını zəruri edir. Ancaq proletariat *hakim sinfə* çevrildikdə, burjuaziyanın labüd və inadlı müqavimətini qıra biləcək və *bütün* zəhmətkeşləri və istismar olunan kütləri yeni təsərüffat ukladı üçün təşkil edə biləcək bir sinfə çevrildikdə, ancaq bu zaman burjuaziyanı yıxmaq olar.

Dövlət hakimiyyəti, mərkəzləşdirilmiş qüvvə təşkilatı, zorakılıq təşkilatı proletariata həm istismarçıların müqavimətini qırmaq üçün, həm də sosialist təsərrüfatını "sahmanlamaq" işində geniş əhali kütləsinə, kəndlilərə, xırda burjuaziyaya, yarımproletarlara *rəhbərlik*etmək üçün lazımdır.

Marksizm fəhlə partiyasını yetişdirməklə, hakimiyyəti öz əlinə alıb *bütün xalqı* sosializmə doğru *apara biləcək,* yeni quruluşa istiqamət verib onu təşkil edə biləcək, öz ictimai həyatını burjuaziyasız və burjuaziyaya qarşı qurmaq işində bütün zəhmətkeşlərin və istismar olunanların müəllimi, rəhbəri, başçısı ola biləcək proletar avanqardı yetişdirir. İndi hökm sürən opportunizm isə əksinə, fəhlə partiyasından fəhlələrin kütlədən uzaqlaşan, kapitalizm şəraitində yaxşı maaş alan, özü üçün babat "yaşayış düzəldən", öz birincilik hüququnu mərcimək şorbasına satan, yəni burjuaziyaya qarşı xalqın inqilabçı rəhbəri olmaq rolundan imtina edən nümayəndələrini yetişdirir.

downloaded from KitabYurdu.org

“Dövlət, yəni hakim sinif halında təşkil olunmuş proletariat”, — Marksın bu nəzəriyyəsi tarixdə proletariatın inqilabi rolu haqqında onun bütün təlimi ilə ayrılmaz surətdə bağlıdır. Bu rolun başa çatdırılması proletariat diktaturasıdır, proletariatın siyasi hökmranlığıdır.

Lakin proletariata dövlət burjuaziyaya *qarşı* zorakılıq üçün *xüsusi* bir təşkilat kimi lazımdırsa, onda buradan özlüyündə belə bir nəticə çıxır ki, burjuaziyanın *özü üçün*yaratmış olduğu dövlət maşını əvvəlcə məhv edilmədən, dağıdılmadan belə bir təşkilat yaratmaq mümkündürmü? “Kommunist Manifesti” tamamilə bu nəticəyə gətirib çıxarır və Marks 1848—1851-ci illər inqilabının təcrübəsinə yekun vururkan bu nəticədən danışır.

## 1. 2. İNQİLABIN YEKUNLARI

Bizi maraqlandıran dövlət məsələsində Marks 1848—1851-ci illərin inqilabına “Lui Bonapartın 18 brumeri” əsərində aşağıdakı mülahizə ilə yekun vurur:

“…Lakin inqilab əsaslı bir inqilabdır. O hələ qıl körpüdən keçməkdədir. O öz işini ardıcıl surətdə görür. 1851-ci il dekabrın 2-nə qədər” (Lui Bonapartın dövlət çevrilişi etdiyi gün) “inqilab öz hazırlıq işinin yarısını bitirmişdi, indi o biri yarısını bitirməkdədir. Parlament hakimiyyətini yıxmaq imkanına malik olmaqdan ötrü inqilab əvvəlcə onu təkmilləşdirir. İndi, inqilab buna nail olduqdan sonra *icraiyyə hakimiyyətini* təkmilləşdirir, onu ən saf şəklinə salır, onu təkləyir, onu öz qarşısına yeganə bir obyekt kimi çıxarır ki, özünün *bütün dagıdıcı qüvvələrini birləşdirib ona qarşı toplasın”* (kursiv bizimdir). “Həm də, inqilab öz hazırlıq işinin bu ikinci yarısını başa çatdırdıqda Avropa öz yerindən qalxacaq və təntənə ilə deyəcəkdir: sən yaxşı qazırsan, qoca köstəbək!

Böyük bürokratik və hərbi təşkilatı, çox mürəkkəb və mükəmməl dövlət maşını, yarım milyonluq məmurlar qoşunu və buna üstəlik yarım milyonluq ordusu olan bu icariyyə hakimiyyəti, fransız cəmiyyətinin bütün bədənini hörümçək toru kimi bürüyən və onun bütün məsamələrini tıxayan bu dəhşətli tüfeyli orqanizm mütləqiyyət monarxiyası dövründə, feodalizmin süqutu zamanı meydana gəlmiş, həm də bu süqutun sürətlənməsinə kömək etmişdir”. Birinci Fransa inqilabı mərkəzləşməni inkişaf etdirmişdi, “lakin bununla bərabər hökumətin əlində olan hakimiyyətin həcmini genişləndirmiş, onun ayrılmaz cəhətlərini və köməkçilərinin sayını artırmışdı. Napoleon bu dövlət maşınını qurub başa çatdırdı”. Legitim monarxiyası və İyul monarxiyası “əmək bölgüsünü daha da artırmaqdan başqa yeni heç bir şey vermədi…

…Nəhayət, parlamentli respublika inqilaba qarşı mübarizəsində, cəza tədbirləri ilə birlikdə hökumət hakimiyyətinin vasitələrini və mərkəzləşdirilməsini də gücləndirməyə məcbur oldu. *Bütün çevrilişlər bu maşını sındırmaq əvəzinə onu daha da təkmilləşdirirdi”* (kursiv bizimdir). “Bir-birini əvəz edərək hökmranlıq uğrunda mübarizə aparan partiyalar bu böyük dövlət binasını ələ keçirməyi öz qələbəsi zamanı başlıca qənimət hesab edirdilər” (“Lui Bonapartın 18 brumeri”, səh. 98-99, 4-cü nəşri, Hamburq, 1907-ci il).

downloaded from KitabYurdu.org

Bu gözəl mülahizədə marksizm "Kommunist Manifesti"nə nisbətən irəliyə doğru çox böyük bir addım atır. "Kommunist manifesti"ndə dövlət məsələsi hələ son dərəcə abstrakt şəkildə, lap ümumi anlayış və ifadələr halında irəli sürülür. Burada isə məsələ konkret şəkildə qoyulur və olduqca dürüst, qəti və təcrübədə hiss edilən bir nəticə çıxarılır: bütün keçmiş inqilablar dövlət maşınını təkmilləşdirmişlər, halbuki onu qırmaq, sındırmaq lazımdır.

Bu nəticə marksizmin dövlət təlimində başlıca və əsas cəhətdir. Həm də məhz bu əsas cəhəti, hakim rəsmi sosial-demokrat partiyaları nəinki tamamilə *unutmuşlar,* hətta II İnternasionalın ən görkəmli nəzəriyyəçisi olan K.Kautski (aşagıda görəcəyimiz kimi) onu açıqca *təhrif etmişdir.*

"Kommunist Manifesti"ndə tarixə ümumi yekun vurulmuşdur; bu yekun, dövlətə sinfi hökmranlıq orqanı kimi baxmağa məcbur edir və belə bir zəruri nəticəyə gətirib çıxarır ki, proletariat, əvvəlcə siyasi hakimiyyəti əldə etməzsə, siyasi hökmranlığı ələ almazsa, dövləti "hakim sinif halında təşkil olunmuş proletariata" çevirməzsə, burjuaziyanı yıxa bilməz, həm də bu proletar dövləti öz qələbəsindən sonra dərhal ölüb getməyə başlayacaqdır, çünki sinfi ziddiyyətlər olmayan bir cəmiyyətdə dövlət lazım və mümkün deyil. Burada, proletar dövlətinin burjua dövlətini — tarixi inkişaf nöqteyi-nəzərindən — necə əvəz etməli olması məsələsi qoyulmur.

Marks 1852-ci ildə məhz belə bir məsələni qoyub həll edir. Marks, öz dialektik materializm fəlsəfəsinə sədaqətli qalaraq, əzəmətli inqilab illərinin — 1848—1852-ci illərin — tarixi təcrübəsini əsas götürür. Həmişə olduğu kimi, burada da Marksın təlimi, *təcrübəni* dərin fəlsəfi dünyagörüşü ilə və zəngin tarixi biliklə işıqlandırılmış şəkildə *yekunlaşdırmaqdan*ibarətdir.

Dövlət məsələsi konkret şəkildə qoyulur: burjua dövləti, burjuaziyanın hökmranlığı üçün lazım olan dövlət maşını tarixən necə meydana gəlmişdir? burjua inqilabları gedişində və məzlum siniflərin müstəqil çıxışları qarşısında bu dövlət maşını necə dəyişmiş və necə təkamül etmişdir? bu dövlət maşını ilə əlaqədar proletariatın vəzifələri nədən ibarətdir?

Burjua cəmiyyətinə xas olan mərkəzləşdirilmiş dövlət hakimiyyəti mütləqiyyətin süqut etdiyi dövrdı meydana gəlmişdir. İki təsisat: məmurlar və daimi ordu bu dövlət maşını üçün ən səciyyəvi cəhətdir. Marksın və Engelsin əsərlərində, bu təsisatların minlərlə tel vasitəsi ilə məhz burjuaziyaya bağlı olduğundan dəfələrlə danışılır. Hər bir fəhlənin təcrübəsi bu əlaqəni son dərəcə aydın və qəti bir surətdə göstərir. Fəhlə sinfi bu əlaqəni öz təcrübəsində dərk etməyi öyrənir, — buna görə də fəhlə sinfi həmin əlaqənin labüd olmasından bəhs edən elmi bu qədər asanlıqla başa düşür və bu qədər möhkəm mənimsəyir, xırda burjua demokratları isə bu elmi ya nadanlıq və yüngüllüklə inkar edirlər, ya da daha artıq bir yüngüllüklə onu "ümumiyyətlə" qəbul edərək, ondan müvafiq əməli nəticələr çıxarmağı unudurlar.

Məmurlar və daimi ordu — burjua cəmiyyətinin bədənində bir "tüfeyli", bu cəmiyyəti didişdirən daxili ziddiyyətlərin doğurduğu bir tüfeylidir, lakin məhz həyat məsamələrini "tıxayan" bir tüfeylidir. Hazırda

downloaded from KitabYurdu.org

rəsmi sosial-demokratiya içərisində hakim olan kautskiçi opportunizm dövlətə *tüfeyli bir orqanizm* kimi baxmağı ancaq və yalnız anarxizmə məxsus bir şey hesab edir. Əlbəttə, marksizmin belə təhrif olunması, — “vətəni müdafiə” anlayışını imperialist müharibəsinə tətbiq edərək bu müharibəyə haqq qazandırmaq və ona bəzək-düzək verməklə sosializmi tamamilə rusvayçı bir dərəcəyə çatdırmış olan meşşanlar üçün son dərəcə əlverişlidir, lakin bu, hər halda şəksiz bir təhrifdir.

Bu məmurlar aparatı və hərbi aparat, feodalizm süqut edəndən bəri Avropada saysız-hesabsız miqdarda baş vermiş bütün burjua inqilablarından keçərək inkişaf edir, təkmilləşir və möhkəmlənir. Xüsusilə məhz xırda burjuaziya xeyli dərəcədə bu aparatın vasitəsi ilə iri burjuaziyanın tərəfinə cəlb olunur və ona tabe edilir, bu aparat kəndlilərin, xırda sənətkarların, alverçilərin və sairənin yuxarı təbəqələrinə nisbətən əlverişli, rahat və hörmətli vəzifələr verir, bu vəzifələr də öz sahiblərini xalqdan *yüksəkdə* tutur. Rusiyada 1917-ci il fevralın 27-dən sonra yarım il ərzində baş vermiş hadisələri götürün: keçmişdə başlıca olaraq qaraguruhçulara verilən məmur vəzifələri kadetlərin, menşeviklərin və eserlərin əlinə keçməyə başladı. Əslində heç bir ciddi islahat fikrinə düşmayib bunları “Müəssislər məclisi çağırılana qədər” təxirə salmağa, Müəssislər məclisinin çağırılmasını isə yavaş-yavaş uzadıb müharibənin sonuna qədər təxirə salmağa çalışırdılar! Qəniməti bölməkdə, nazir vəzifələrini, nazir müavinləri, general-qubernator vəzifələrini və sairə vəzifələri tutmaqda isə yubanmır və heç bir Müəssislər məclisi gözləmirdilər! Hökumətin tərkibi məsələsindəki uzlaşma oyunu, əslində ancaq bu “qənimətin” bölüşdürülməsini və yenidən bölüşdürülməsini əks etdirirdi, bu bölüşdürmə isə həm yuxarıda, həm də aşağıda, bütün ölkədə, bütün mərkəzi və yerli idarələrdə gedirdi. 1917-ci il fevralın 27-dən avqustun 27-nə qədər yarımillik yekun, obyektiv yekun məlumdur: islahatlar təxirə salınmış, məmur vəzifələri bölüşdürülmüş və bölgü “səhvləri” bir neçə təkrar bölgü keçirilməklə düzəldilmişdir.

Lakin məmurlar aparatı müxtəlif burjua və xırda burjua partiyaları arasında (Rusiya misal götürülərsə, kadetlər, eserlər və menşeviklər arasında) nə qədər çox “yenidən bölüşdürülürsə”, məzlum siniflərin və onlara başçılıq edən proletariatın *bütün* burjua cəmiyyətinə barışmaz düşmən olduqları da onlar üçün bir o qədər aydın olur. Buna görə də bütün burjua partiyalarına, o cümlədən hətta ən demokratik və “inqilabi-demokratik” partiyalara lazım gəlir ki, inqilabçı proletariata qarşı cəza tədbirlərini qüvvətləndirsinlər, cəza tədbirləri aparatını, yəni həmin dövlət maşınını möhkəmləndirsinlər. Hadisələrin belə gedişi inqilabı məcbur edir ki, *“bütün dağıdıcı qüvvələri birləşdirib”* dövlət hakimiyyətinə qarşı qoysun, dövlət maşınını yaxşılaşdırmaq deyil, əksinə, onu *dağıtmaq, məhv etmək*vəzifəsini öz qarşısına qoysun.

Məntiqi mülahizələr deyil, hadisələrin həqiqi inkişafı, 1848—1851-ci illərin canlı təcrübəsi məsələnin bu cür qoyuluşuna gətirib çıxarmışdır. Tarixi təcrübənin həqiqi dəlillərinə Marksın nə qədər ciddi

downloaded from KitabYurdu.org

əsaslandığını ondan görmək olar ki, məhv edilməli olan bu dövlət maşınını *n ə i l ə* əvəz etmək məsələsini Marks 1852-ci ildə hələ konkret şəkildə qoymur. Bundan bir qədər sonra, 1871-ci ildə tarixin qarşıya qoyduğu belə bir məsələ üçün o zaman təcrübə hələ material vermirdi. 1852-ci ildə təbii-tarixi müşahidə nəticəsində tam bir dürüstlüklə ancaq bunu qeyd etmək olardı ki, proletar inqilabı "bütün dağıdıcı qüvvəlləri birləşdirib" dövlət hakimiyyətinə qarşı qoymaq vəzifəsinə, dövlət maşınını "sındırmaq" vəzifəsinə *y a x ı n l a ş m ı ş d ı r.*

Burada belə bir məsələ ortaya çıxa bilər ki, Marksın təcrübəsini, müşahidələrini və çıxardığı nəticələri ümumiləşdirmək, onları Fransanın 1848—1851-ci illərdəki üçillik tarixi çərçivəsindən çıxarıb daha geniş bir sahəyə keçirmək düzgündürmü? Bu məsələni təhlil etmək üçün əvvəlcə Engelsin bir mülahizəsini xatırladaq, sonrada fakt məlumatına keçək. Engels "18 brumeri"n 3-cü nəşrinə müqəddimədə yazırdı:

"…Fransa elə bir ölkədir ki, orada siniflərin tarixi mübarizəsi hər dəfə başqa ölkələrdəkinə nisbətən daha çox qəti sona çatırdı. Fransada bu sinfi mübarizənin hərəkətini əhatə edən və mübarizənin nəticələrini ifadə edən dəyişkən siyasi formalar olduqca kəskin şəkildə yaranıb möhkəmlənirdi. Orta əsrlərdə feodalizmin mərkəzi, Renessans zamanından bəri yekcins silk monarxiyasının nümunəvi ölkəsi olan Fransa böyük inqilab zamanı feodalizmi darmadağın etdi və Avropanın heç bir başqa ölkəsində misli görünməmiş klassik bir aydınlıqla xalis burjua hökmranlığı qurdu. Baş qaldıran proletariatın hakim burjuaziyaya qarşı mübarizəsi də Fransada digər ölkələrin görmədiyi dərəcədə kəskin bir şəkil alır" (1907-ci il nəşri, səh. 4).

Bu son mülahizə köhnəlmişdir, çünki 1871-ci ildən etibarən Fransa proletariatının inqilabi mübarizəsində fasilə əmələ gəlmişdir, hərçənd bu fasilə nə qədər uzun sürsə də, gələcək proletar inqilabında Fransanın, burada sinfi mübarizənin qəti nəticələr əldə edəcəyi klassik bir ölkə olacağı imkanını qətiyyən aradan qaldırmır.

İndi qabaqcıl ölkələrin XIX əsrin axırlarındakı və XX əsrin əvvəllərindəki tarixinə ümumi bir nəzər salaq. Biz görərik ki, həmin proses, yəni bir tərəfdən, həm respublika ölkələrində (Fransa, Amerika, İsveçrə), həm də monarxiya ölkələrində (İngiltərə, müəyyən dərəcəyə qədər Almaniya, habelə İtaliya, Skandinaviya ölkələri və i. a.) "parlamentli hakimiyyət" hazırlamaq prosesi, o biri tərəfdən, burjua quruluşunun əsasları dəyişilmədən məmur vəzifələri "qənimətini" bölüşdürən və yenidən bölüşdürən müxtəlif burjua və xırda burjua partiyalarının hakimiyyət uğrunda mübarizəsi prosesi, nəhayət, "icraiyyə hakimiyyətini", onun məmur və hərbi aparatını təkmilləşdirmək və möhkəmlətmək prosesi o zaman daha geniş bir sahədə, daha yavaş və daha müxtəlif şəkildə baş verirdi.

Heç şübhə yoxdur ki, bunlar ümumiyyətlə kapitalist dövlətlərinin bütün ən yeni təkamülün ümumi xüsusiyyətləridir. Bütün kapitalist aləminə xas olan inkişaf proseslərini Fransa üç ildə, 1848-1851-ci illərdə sürətli, qabarıq və cəmlənmiş şəkildə göstərmişdir.

downloaded from KitabYurdu.org

Xüsusilə imperializm, bank kapitalı dövrü, çox böyük kapitalist inhisarları dövrü, inhisarçı kapitalizmin böyüyüb dövlət-inhisar kapitalizminə çevrilməsi dövrü, istər monarxiya ölkələrində, istərsə ən azad, respublika ölkələrində proletariata qarşı cəza tədbirlərinin şiddətlənməsi ilə əlaqədar olaraq "dövlət maşınının" qeyri-adi dərəcədə qüvvətləndiyini, onun məmur və hərbi aparatının eşidilməmiş dərəcədə artdığını göstərir.

Şübhəsiz ki, indi ümumdünya tarixi 1852-ci ildəkindən çox-çox geniş bir miqyasda, dövlət maşınını "dağıtmaq" üçün proletar inqilabının "bütün qüvvələrin birləşdirməyə" yaxınlaşdırır.

Dövlət maşınını proletariatın nə ilə əvəz edəcəyi haqqında Paris Kommunası çox ibrətli material vermişdir.

## 3.MARKS 1852-ci İLDƏ MƏSƏLƏNİ NECƏ QOYMUŞDU

Merinq 1907-ci ildə "Neue Zeit" jurnalında (XXV, 2, 164) Marksın Veydemeyerə yazdığı 1852-ci il 5 mart tarixli məktubundan parçalar dərc etmişdir. Bu məktubda, yeri gəlmişkən, belə bir gözəl mülahizə də vardır:

"Mənə gəldikdə, nə müasir cəmiyyətdə siniflər mövcud olduğunu kəşf etmək, nə də onların bir-biri ilə mübarizəsini kəşf etmək mənim xidmətim deyildir. Məndən çox qabaq burjua tarixçiləri siniflərin bu mübarizəsinin tarixi inkişafını, burjua iqtisadçıları isə siniflərin iqtisadi anatomiyasını şərh etmişlər. Mənim etdiyim yeni şey bunu sübut etməkdən ibarət olmuşdur ki: 1) siniflərin mövcud olması ancaq istehsalın inkişafının müəyyən tarixi fazaları ilə ( historische Entwicklungsphasen der Produktion) əlaqədardır, 2) sinfi mübarizə hökmən proletariat diktaturasına doğru aparır,3)bu diktaturanın özü hər cür sinifləri məhv etməyə və siniflərsiz cəmiyyətəancaq bir keçiddir…"

Marks bu sözlərlə, əvvələn, qabaqcıl və ən dərin görüşlü burjua mütəfəkkirlərinin təlimindən öz təliminin başlıca və əsas fərqini, ikincisi də, dövlət haqqında öz təliminin mahiyyətini çox aydın bir şəkildə ifadə edə bilmişdi.

Marksın təlimində başlıca cəhət sinfi mübarizədir. Çox vaxt belə deyir və belə yazırlar. Lakin bu yanlışdır. Bu yanlışlığın nəticəsi olaraq çox vaxt opportunistcəsinə təhrif olunur, burjuaziya üçün əlverişli şəkildə saxtalaşdırılır. Çünki sinfi mübarizə təlimi Marks tərəfindən*deyil,* Marksdan *qabaq* burjuaziya *tərəfindən* yaradılmışdır və ümumiyyətlə desək, burjuaziya üçün *əlverişlidir. Təkcə* siniflər mübarizəsini qəbul edən adam hələ marksist deyildir, o, hələ burjua düşüncəsi və burjua siyasəti çərçivəsindən kənara çıxmayan bir adam olaraq qala bilər. Marksizmi ancaq siniflər mübarizəsi ilə məhdudlaşdirmaq –marksizmin qol-qanadını qırmaq,onu təhrif etmək, burjuaziya üçün əlverişli olan bir şəklə salmaq deməkdir. Marksist ancaq o adamdır ki, siniflər mübarizəsini qəbul etməyi*proletariat diktaturasını* qəbul etmək dərəcəsinə *çatdırsın.* Adi xırda burjuadan (həmçinin iri burjuadan) marksistin ən böyük fərqi də bundadır. Marksizmi *həqiqətən* başa

downloaded from KitabYurdu.org

düşməyi və qəbul etməyi bu məhək daşı ilə sınamaq lazımdır. Buna görə də təəccüblü deyildir ki, Avropanın tarixi fəhlə sinfini *təcrübədə* bu məsələyə yaxınlaşdırdıqda, nəinki bütün opportunistlər və reformistlər, hətta bütün “kautskiçilər” də (reformizmlə marksizm arasında tərəddüd edən adamlar) proletariat diktaturasını *inkar edən* miskin filisterlər və xırda burjua demokratları olduqlarını göstərdilər. Kautskinin 1918-ci ilin avqustunda, yəni bu kitabcanın birinci nəşrindən çox sonra çıxmış olan “Proletariat diktaturası” adlı kitabcası, marksizmi *sözdə* riyakarlıqla qəbul edərək, *işdə* onu meşşancasına təhrif etmək və ondan alçaqcasına üz döndərmək nümunəsidir (mənim: “Proletar inqilabı və xain Kautski” adlı kitabcama bax, Petroqrad və Moskva, 1918-ci il)

*Burjuaziyanın* mövqeyinə Marksın verdiyi yuxarıdakı xarakteristika müasir opportunizmə və onun başlıca nümayəndəsi, keçmiş marksist K. Kautskiyə də tamamilə aiddir, çünki bu opportunizm sinfi mübarizəni qəbul etmək dairəsini ancaq burjua münasibətləri dairəsindən ibarət bilir. ( Bu dairədə, onun çərçivəsi içərisində sinfi mübarizəni “prinsipcə” qəbul etməkdən isə heç bir elmli liberal boyun qaçırmaz!) Opportunizm sinfi mübarizəni qəbul etməyi məhz ən başlıca nöqtəyə, kapitalizmdən kommunizmə *keçmək* dövründə, burjuaziyanı *yıxmaq* və onu tamamilə *məhv etmək* dövrünə *çatdırmır.* Həqiqətdə bu dövr labüddən son dərəcə son dərəcə şiddətli sinfi mübarizə dövrüdür, bu mübarizənin misli görünməmiş dərəcədə kəskin formalar alması dövrüdür, buna görə həmin dövrün dövləti də mütləq (proletar və ümumiyyətlə yoxsullar üçün) *yeni qaydada* demokratik dövlət və (burjuaziyaya qarşı) *yeni qaydada* diktatorluq dövləti olmalıdır.

Sonra, Marksın dövlət təliminin mahiyyətinin ancaq o adam anlamış olur ki, bir sinfin diktaturasının yalnız ümumiyyətlə hər bir sinifli cəmiyyət üçün deyil, yalnız burjuaziyanı yıxmış olan *proletariat* üçün deyil, hətta kapitalizmlə “siniflərsiz cəmiyyət” arasında, kommunizm arasında olan *bir tarixi dövr* üçün də zəruri olduğunu başa düşmüş olsun. Burjua dövlətlərinin formaları son dərəcə müxtəlifdir, lakin onların mahiyyəti birdir: bu dövlətlərin hamısı hər halda , nəticə etibarı ilə hökmən *burjuaziya diktaturasıdır.*Kapitalizmdən kommunizmə keçilməsi, söz yox ki, son dərəcə çox və müxtəlif siyasi formalar doğurmaya bilməz, lakin bunların mahiyyəti bir olacaq: *proletariat diktaturası.*

## III FƏSİL

## 1871-ci İL PARİS KOMMUNASININ TƏCRÜBƏSİ. MARKSIN TƏHLİLİ

### 1. **Kommunarların cəhdində qəhrəmanlıq nədən ibarətdir?**

Məlumdur ki, Marks Kommunadan bir neçə ay əvvəl, 1870 – ci ilin payızında, Paris fəhlələrinə xəbərdarlıq edib sübut edirdi ki, hökuməti yıxmaq cəhdi coşqunluqdan doğan bir sarsaqlıq olardı. Lakin 1871 – ci ilin martında, fəhlələr qəti döyüşə girməyi məcbur edildikləri və döyüşə girdikləri zaman,üsyan bir fakt olaraq baş verdiyi zaman, gələcəyin əlamətləri pis olduğuna baxmayaraq,

downloaded from KitabYurdu.org

Marks proletar inqilabını çox böyük bir fərəhlə alqışlayırdı. Marks heç də Plexanov kimi "vaxtsız" hərəkatı pedantcasına pisləməkdı inad göstərmədi, halbuki maksizim rus dönüyü, pislikdə ad çıxarmış Plexanov 1905 – ci ildə öz yazılarında fəhlələri və kəndliləri mübarizəyə təhrik etdiyi halda,1905-ci ilin dekabrından sonra liberalcasına çığıraraq deyirdi: Silaha əl atmaq lazım deyildi.

Lakin Marks öz təbirincə kommunarların qəhrəmanlığına ancaq valeh olmaqla kifayətlənmirdi. Kütləvi inqilabi hərəkat öz məqsədinə çatmasa da, Marks bu hərəkatı çox böyük əhəmiyyəti olan tarixi bir təcrübə, ümumdünya proletar inqilabının irəliyə atdığı müəyyən bir addım hesab edirdi. Bu təcrübəni təhlil etmək, ondan taktika dərsləri götürmək, bu təcrübə əsasında öz nəzəriyyəsini gözdən keçirmək –bax, Marks öz qarşısına bu vəzifəni qoymuşdu.

Marks <<Kommunist Manifesti>>nə daxil etməyi lazım bildiyi yeganə "düzəlişi", Paris kommunarlarının inqilabi təcrübəsi əsasında etmişdir.

Kommunist Manifestinin almanca yeni nəşri üçün, Manifestin hər iki müəllifi tərəfindən imzalanmış son müqəddimədə 1872 – ci il 24 iyun tarixi qoyulmuşdur. Bu müqəddimədə müəlliflər: Karl Marks və Fridrix Engels deyirlər ki, "Kommunist Manifesti" proqramının "bəzi yerləri indi köhnəlmişdir".

**"… Xüsusən Kommuna sübut etdi ki, – deyə onlar sözlərinə davam edirlər, – "fəhlə sinfi hazır dövlət maşınına sadəcə yiyələnib, onu öz məqsədləri üçün işə sala bilməz"… "**

Bu parçanın ikinci dırnaq işarəsi altına alınmış sözlərini müəlliflər Marksın "Fransada Vətəndaş müharibəsi" adlı əsərindən götürmüşlər.

Deməli, Marks və Engels Paris Kommunasının verdiyi əsas və başlıca bir dərsi o qədər mühüm hesab etmişdilər ki, onu mühüm bir təhsih kimi "Kommunist Manifesti"nə daxil etmişdilər.

Olduqca səciyyəvidir ki, opportunistlərin məhz bu mühüm təshihi təhrif etmişlər və bu təshihin mənası yəqin ki, " Kommunist Manifesti" oxucularının onda doqquzuna və bəlkə də yüzdə doxsan doqquzuna məlum deyildir. Biz bu təhrif əsasında aşağıda təhriflər haqqındakı xüsusi fəsildə danışacağıq. İndi burasını göstərmək kifayətdir ki, Marksın yuxarıda gətirdiyimiz məhşur kəlamını adətən belə bayağı bit sürətdə "anlayırlar" ki, guya Marks burada ,hakimiyyəti ələ keçirməyin və sairənin əksinə olaraq ləng inkişaf ideyasını təkidlə qeyd edir.

Həqiqətdə isə l a p ə k s i n ə d i r. Marksın fikri bundan ibarətdir ki, fəhlə sinfi "hazır dövlət maşınını" sadəcə olaraq ələ almaqla kifayətlənməyib onu q ı r m a l ı, s ı n d ı r m a l ı d ı r.

1871 – ci il aprelin 12 – də, yəni məhz Kommuna zamanı Marks Kugelmana yazmışdır;

"… Sən mənim "18 brumeri"min axırıncı fəslinə nəzr salsan, görərsən ki, mən Fransa inqilabının bundan sonrakı təşəbbüsü olaraq bunu elab edirəm; bürokratik-hərbi maşını, indiyədək olduğu kimi, bir əldən başqa ələ vermək deyil, onu s ı n d ı r m a q lazımdır" (kursiv orjinalda zerbrechen kimi yazılmışdır) "həm də mən kontinentdə hər bir həqiqi xalq inqilabının ilk şərti məhz belədir. Bizim

downloaded from KitabYurdu.org

qəhrəman parisli yoldaşlarlarımızın təşəbbüsü də məhz bundan ibarətdir" ("Neue Zeit"-ın709-cu səhifəsi, XX, I, 1901 – 1902 – ci il)

"Bürokratik – hərbi dövlət maşınını sındırmaq" sözləri ilə inqilabda proletariatın dövlət barəsindəki məsələsində marksizmin çıxardığı başlıca nəticə qısaca ifadə edilmişdir. Marksizmin hökm sürən kautskici "təfsiri" məhz bu nəticəni nəinki unutmuş, hətta açıq – açığına təhrif etmişdir.

Marksın "18 brumer"mə istinad etməsinə gəlincə, biz bunn müvafiq yerini yuxarıda tamamilə qeyd etmişdik.

Marksın göstərilən mülahizəsində iki yeri ayrıca qeyd etmək maraqlıdır. Əvvələn, Marks çıxardığı nəticəni ancaq kontinente aid edir. Bu da 1871 – ci ildə təbii bir şey idi, çünki o zaman İngiltərə hələ sırf kapitalist ölkəsi nümunəsi idi, lakin orada hərbçilər və geniş mənada bürokratiya yox idi. Buna görə Marks İngiltərəni bir istisna olaraq götürürdü, çünki orada "hazır dövlət maşınını" dağıtmaq kimi şərt olmadan inqilabın, hətta xalq inqilabının da ola biləcəyi zənn edilirdi və o zaman bunun olması mümkün idi.

Marksın İngiltərini istisna qeyd etməsi lüzumu indi, 1917 – ci ildə, birinci böyük imperialist müharibəsi dövründə aradan qalxır. Hərbçilər də bürokratizm olmaması mənasında ingilis – sakson "azadlığının" – bütün dünyada – ən böyük və son nümayəndələri olan İngiltərə də, Amerika da hər şeyi özünə tabe edən ,hər şeyi əzən bürokratik – hərbi təsisatlarının çrikli, qanlı ümumavropa bataqlığına tamamilə yuvarlanmışlar. İndi İngiltərə də, Amerika da "hər bir həqiqi xalq inqilabı üçün ilk şərt", "hazır dövlət maşınını" q ı r ı b  d a ğ ı t m a q d a n  ibərətdir.

İkincisi, bürokratik – hərbi dövlət maşınının dağıdılması "hər bir həqiqi xalq inqilabının ilk şərtidir"- Marksın bu çox dərin fikri xüsusilə diqqətəlayiqdir. Bu "xalq" inqilabı anlayışı Marksın dilindən eşidildikdə qəribə, buna görə də Stuvenin ardıcılları olub marksist hesab edilmək arzusunda olan rus plexanovçuları da,rus menşevikləri də Marksın bu ifadəsini, ehtimal ki, onun "yanılması" adlandırırdılar. Onlar marksizmi təhrif edib elə bir miskin liberal şəklə salmışdılar ki, burjua inqilabı ilə proletar inqilabının bir – birinə qarşı qoyulmasından başqa heç bir şey qəbul etmirlər, onlar hətta bu qarşıqoymanın özünü də son dərəcə ölgün bir şey kimi başa düşürlər.

Əgər məsəl üçün, XX əsrin inqilabları götürülərsə, əlbəttə, Portuqaliya inqilabını,həm də Türkiyə inqilabını burjua inqilabı hesab etmək lazım gələcəkdir. Lakin bunların heç biri "xalq" inqilabı deyildir,çünki həmin inqilabların heç birində xalq kütləsi,onun böyük əksəriyyəti nəzərə çarpacaq dərəcədə fəal və müstəqil çıxış etmir, öz iqitisadi və siyasi tələblərini irəli sürmür.Əksinə, Portuqaliya və Türkiyə inqilablarına arabir qismət olan "parlaq"müvəffəqiyyətlərə malik olmadığına baxmayaraq, 1905 – 1906 – cı illərdəki rus burjua inqilabı şübhəsiz ki, "həqiqi xalq" inqilabı idi, çünki xalq kütləsi, onun əksəriyyəti, cəmiyyətin zülm altında əzilən və istimar olunan ən geniş "aşağı təbəqələri"

downloaded from KitabYurdu.org

müstəqil olaraq ayağa qalxmışdılar, öz tələbləri ilə və dağıdılan köhnə cəmiyyətin yerinə öz istıdikləri yeni cəmiyyət qurmaq yolunda etdikləri cəhdləri ilə inqilabın bütün gedişinə təsir göstərmişdilər.

1871 – ci ildə Avropa kontinentinin heç bir ölkəsində proletariat xalqın əksəriyyətini təşkil etmirdi. Həqiqətən əksəriyyəti hərəkata cəlb edən “xalq” inqilabı ancaq həm proletariatı, həm də kəndliləri əhatə etdiyi təqdirdə belə bir inqilab ola bilərdi. O zaman xalq bu iki sinifdən ibarət idi. Bu sinifləri birləşdirən odur ki, “bürokratik-hərbi dövlət maşını” onların hər ikisinə zülm edir,onları əzir, istismar edir. Bu maşını qırmaq, onu sındırmaq – “xalqın”əsl mənafeyinə, onun əksəriyyətinin, kəndlilərin çox hissəsi ilə fəhlələrin mənafeyinə uyğundur, yoxsul kəndlilərin proletarlarla azad ittifaqının “ilk şərtidir”; belə bir ittifaq olmadıqda isə demokratiya möhkəm olmaz və sosiolist dəyişikliyi mümkün olmaz .

Bir sıra daxili və xarici xarakterdə olan səbəblər üzündən öz məqsədlərinə çatmayan Paris Kommunası da,məlum olduğu kimi, belə bir ittifaq yaratmağa çalışırdı.

Deməli, “əsl xalq inqilabı”ndan danışarkən Marks xırda burjuaziyanın xüsusiyyətlərini heç də unutmayaraq, 1871 – ci ildə Avropanın kontinent dövlətlərinin çoxunda siniflər arasında həqiqi nisbəti çox ciddi şəkildə nəzərı alırdı. Digər tərəfdən, Marks qeyd edirdi ki, dövlət maşınını “qırmağı” həm fəhlələrin, həm də kəndlilərin mənafeyi tələb edir, “dövlət maşınını qırmaq” onları birləşdirir, onların qarşısına “tüfeylini”aradan qaldırmaq və onu yeni bir şeylə əvəz etmək kimi ümumi bir vəzifə qoyur.

Bəs onu məhz nə ilə əvəz etməli ?

2. **Qırılmış dövlət maşınını nə ilə əvəz etməli ?**

Marks 1847-ci ildə,bu suala “Kommunist Manifesti”ində hələ tamamilə abstrakt bir cavab verirdi, daha doğrusu, onun verdiyi cavab vəzifələri göstərir, lakin onları yerinə yetirmək üsullarını göstərmirdi. “Proletariatın hakim sinif halında təşkil olunması ilə”, “demokratiya əldə edilməsi ilə” əvəz etməli – “Kommunist Manifesti”nin cavabı belə idi.

Marks utopiyaya qapılmayaraq gözləyirdi ki, hakim bir sinif olmaq etibarı ilə proletariatın bu cür təşkil olmasının nə kimi konkret formalar alacağı, bu təşkilatın ən mükəmməl və ardıcıl “demokratiya əldə edilməsi ilə” məhz necə birləşdirilə biləcəyi sualına kütləvi hərəkatın təcrübəsi cavab verəcəkdir.

Kommunanın təcrübəsi nə qədər az olsa da, Marks bu təcrübəni “Fransada vətəndaş müharibəsi” əsərində böyük bir diqqətlə təhlil etmişdir. Bu əsərin ən mühüm yerlərini göstərək;

Orta əsrlərdən bəri davam edib “hər sahədə öz orqanları; daimi ordusu, polisi, bürokratiyası, ruhaniləri, məhkəmə hakimləri silki olan mərkəzləşdirilmiş dövlət hakimiyyəti” XIX əsrdə inkişaf etdi. Kapital ilə əmək arasında sinfi antoqanizm inkişaf etdikcə, “dövlət hakimiyyəti əməyi zülm altında saxlamaq üçün gündən – günə daha artıq ictimai hakimiyyət xarakteri alırdı. Sinfi mübarizənin irəliyə doğru müəyyən addımı olan hər bir inqilabdan sonra,dövlət hakimiyyətinin əsl zülümkarlıq xarakteri

downloaded from KitabYurdu.org

özünü getdikcə daha artıq göstərir. 1848 – 1849 – cu illər inqilablarından sonra, dövlət hakimiyyəti “kapitalın əməyə qarşı müharibəsində milli alət olur”. İkinci imperiya bunu möhkəmlədir.

“Kommuna imperiyanın tam əksi idi”. “ Kommuna sinfi hökmranlığın yalnız monarxiya deyil, habelə sinfi hökmranlığın özünü də aradan qaldırmalı olan bir respublikanın” “müəyyən forması idi …”

Proletar, sosialist respublikasının bu “müəyyən” forması nədən ibarət idi ? Onun yaratmağa başladığı dövlət nə kimi bir dövlət idi?

“…Kommunanın birinci dekreti daimi qoşunu məhv etmək və onu silahlı xalq ilə əvəz etmək dekreti idi…”

İndi bu tələb sosialist partiyası adlanmaq istəyən bütün partiyaların proqramlarının nə kimi bir qiymətli olduğunu, məhz 27 fevral inqilabından sonra bu tələbi həyata keçirməkdən işdə imtina etmiş olan bizim eserlərin və menşeviklərin hərəkəti hər şeydən yaxşı göstərir!

“…Kommuna, ümumi seçki hüququ əsasında Parisin müxtəlif dairələrindən seçilmiş şəhər nümayəndələrindən təşkil olunmuşdur. Onlar məsul idilər və istənilən vaxt dəyişdirilə bilərdilər. Özlüyündə aydındır ki,onların çoxu fəhlələrdən ya da fəhlə sinfinin tanınmış nümayəndələrindən ibarət idi…

… O vaxtadək dövlət hakimiyyətinin əlində alət olan polis bütün siyasi vəzifələrindən dərhal məhrum edildi və o, Kommunanın, istənilən vaxt dəyişdirilə bilən məsul bir orqanına döndərildi… İdarəetmənin bütün yerdə qalan sahələrinin məmurları haqqında da belə edildi… Kommuna üzvlərindən başlamış ictimai xidmət yuxarıdan aşağıya qədər hər kəs tərəfindən fəhlənin aldığı əmək haqqı qədər maaşla icra edilməli idi. Hər cür imtiyazlar və dövlətdə ali mənsəb tutanlara nümayəndəlik pulu verilməsi, həmin mənsəblərin özü ilə birlikdə aradan qaldırdıqdan sonra Kommuna dərhal mənəvi zülm alətini, keşişlərin nüfuzunu qırmağa başladı… Məhkəmə məmurları öz zahiri müstəqilliklərini itirdilər… onlar bundan sonra açıq surətdə seçilməli,məsul olmalı və dəyişdirilə bilməli idilər…”

Deməli,Kommuna qırılmış dövlət maşınını sanki “yalnız” daha mükəmməl bir demokratiya ilə əvəz etmişdi; daimi ordunun məhv edilməsi, bütün vəzifəli şəxslərin tam seçki ilə olması və istənildiyi zaman dəyişdirilməsi. Lakin həqiqətdə bu “yalnız” bir təsisatları olduqca geniş miqyasda prinsipcə bambaşqa təsisatlarla əvəz etmək deməkdir. Burada məhz “kəmiyyətin keyfiyyətə çevrilməsi” hallarından birini görürük; ümumiyyətlə mümkün olduğu qədər ən dolğun və ardıcıl bir sürətdə yeridilən demokratiya, burjua demokratiyasından proletar demokratiyasına çevrilir, dövlətdən (müəyyən bir sinfi əzmək üçün xüsusi qüvvədən) daha əslində dövlət olmayan bir şeyə çevrilir.

Hələ burjuaziyanı əzmək və onun müqavimətini qırmaq lazımdır. Bunu etmək Kommuna üçün xüsusilə zəruri idi və onun məğlub olması səbəblərindən biri odur ki, bunu kifayət qədər qətiyyətlə etməmişdir. Artıq burada əzmək orqanı, hər zaman olduğu kimi; istər quldarlıq zamanı, istər

downloaded from KitabYurdu.org

təhkimçilik zamanı, istərsə də muzdlu əsarət zamanı olduğu kimi, əhalinin azlığından deyil, məhz çoxluğundan ibarət idi. Xalqin çoxluğu öz zalımlarını özü əzdikdə isə daha əzmək üçün "xüsusi qüvvə" lazım deyildir! Bu mənada dövlət ölüb getməyə başlayır. İmtiyazlı azlığın (məmurlar, daimi ordu başçıları) xüsusi təsisatları əvəzində, özü bu vəzifəni bilavasitə yerinə yetirə bilər, dövlət hakimiyyəti vəzifələrinin yerinə yetirilməsinin özü isə nə qədər çox ümumxalq mahiyyəti qazanarsa, bu hakimiyyəti olan ehtiyac da bir o qədər azalır.

Kommunanın Marks tərəfindən ayrıca qeyd olnunan tədbiri; nümayəndəlik üçün hər cür pul verilməsinin, məmurlara verilən hər cür pul imtiyazlarının ləğv edilməsi, dövlətin bütün vəzifəli şəxslərinə "fəhlənin əmək haqqı" qədər maaş verilməsi bu cəhətdən xüsusilə diqqətəlayiqdir. Burjua demokratiyasından proletar demokratiyasına, zalımlar demokratiyasından məzlum siniflər demokratiyasına, müəyyən sinfi əmək üçün "xüsusi qüvvə" olan dövlətdən xalq çoxluğunun, fəhlə və kəndlilərin ümümi qüvvəsi ilə zalımları əməyə doğru olan dönüş məhz burada ən aydın bir sürətdə nəzərə çarpır. Məhz bu çox əyani maddədə, yəni dövlət məsələsinin, demək olar, ən mühüm maddəsində Marksın öyrətdikləri daha çox unudulmuşdur! Populyar təfsislərdə – bunların isı sayı hesabı yoxdur, – bundan bəhs etmirlər. Vaxtı keçmiş bir "sadəlövhlükdür" deyə bunun üzərindən xristianlar, dövlət dini mövqeyi tutduqdan sonra ilk xristianlığın "sadəlövhlüklərini" və onun demokratik – inqilabi ruhunu "unutmuşdular"

Ali dövlət məmurlarının maaşını azaltmaq tələbi, "ancaq" sadəlövh, ibtidai demokratizm tələbi kimi görünür. Ən yeni opportunizmin "banilərindən" biri olan keçmiş sosial – demokrat Ed Bernşteyn "ibtidai" demokratizm haqqında bayağı burjua istehzalarını dəfələrlə təkrar etmişdir. Bütün opportnunistlər kimi,bütün indiki kautskicilər kimi Bernşteyn də qətiyyən anlamışdır ki, əvvələn, "ibtidai" demokratizmə müəyyən dərəcədə "qayıtmadıqca" kapitalizmdən sosializmə keçmək mümkün deyildir (yoxsa, dövlət vəzifələrini əhalinin çoxunun və başdan – başa bütün əhalinin yerinə yetirməsinə nece keçmək olar?), ikincisi də, kapitalizmə və kapitalist mədəniyyətinə əsaslanan "ibtidai demokratizm" – ibtidai dövrlərdə və ya kapitalizmdən qabaqkı vaxtlarda olan ibtidai demokratizm deyildir. Kapitalist mədəniyyəti iri istehsal, fabriklər, dəmir yolları, poçt, telefon və sairə yaratmışdır, bunun əsasında da köhnə "dövlət hakimiyyəti" vəzifələrinin ən çoxu o qədər sadələşdirilmişdir və elə sadəcə qeyd etmə, yazma, yoxlama əməliyyatlarından ibarət ola bilər ki, bu vəzifələri adi "fəhlənin əmək haqqı" ilə yerinə yetirmək olar və bu vəzifələri hər cür imtiyazdan, "hökmranlıqdan" məhrum etmək olar (və məhrum etmək lazımdır).

İstisnasız olaraq bütün vəzifəli sahiblərinin tamamilə seçkili olması və istənilən vaxtd dəyişdirilə bilməsi, onların maaşının adi "fəhlə əmək haqqı" dərəcəsinə endirilməsi – bu sadə və "özlüyündə aydın" olan demokratik tədbirlər fəhlələrlə kəndlilərin çox hissəsinin mənafeyini tamamilə birləşdirir və eyni zamanda kapitalizmdən sosializmə keçmək üçün bir körpücük xidmətini görür. Bu tədbirlər

downloaded from KitabYurdu.org

cəmiyyətin dövlət cəhətdən, xalis siyasi cəhətdən qurulmasına aiddir, lakin bunlar, şübhəsiz, yalnız o zaman tamamilə mənalı və əhəmiyyətli olar ki, "mülkiyyətdən məhrum edənlərin mülkiyyətdən məhrum edilməsi" və ya bunun hazırlanması ilə, yəni istehsal vasitələri üzərində kapitalistlərin xüsusi mülkiyyətinin ictimai mülkiyyətə keçməsi ilə əlaqədar olsun. Marks yazırdı:

"Kommuna xərclərin iki ən böyük maddəsini; ordunu və məmurları ləğv etməklə, bütün bujua inqilablarının şüarını – ucuz başa gələn hökumət şüarını – həqiqətə çevirdi".

Kəndlilərdən, habelə xırda burjuaziyanın başqa təbəqələrindən ancaq çox az adam "yuxarı qalxır", burjuaziyanın anladığı mənada "adamlar cərgəsinə girir", yəni ya varlı adama,burjuaya çevrilir. Kəndli əhalisi olan hər bir kapitalist ölkəsində (belə kapitalist ölkələri isə əksəriyyət təşkil edir) kəndlilərin böyük əksəriyyəti hökumətin əsarətindədir və onun yıxılmasını, "ucuz başa gələn" hökumət yaradılmasını həsrətlə gözləyir. Bunu isə ancaq proletariat bunu həyata keçirə bilər, həm də proletariat bunu həyata keçirməklə, dövləti sosialistcəsinə yenidən qurmağa doğru addım atmış olur.

**3. Parlamentarizmin məhv edilməsi**

Marks yazırdı:

"Kommuna parlament korporasiyası deyil, işləyən bir korporasiya olmalı idi,eyni zamanda həm qanun verən, həm də qanunları icra edən bir korporasiya olmalı idi…

…Hər üç və ya altı ildə bir dəfə ,hakim sinfin hansı üzvünün parlamentdə xalqı təmsil etməli və əzməli (ver- und zertreten) olduğunu həll etmək əvəzində, ümumi seçki hüququ kommunalar haqqında təşkil olunmuş xalqa, öz müəssisəsi üçün fəhlələr, nəzarətçilər, mühasiblər axtarıb tapmağa xidmət etməli idi, necə ki, fərdi seçki hüququ bu məqsəd üçün hər bir başqa iş verənə xidmət edir"

Parlamentarizmin 1871 – ci ildə verilmiş bu gözəl tənqidi də sosial – şovinizmin və opportunizmin hökmranlığı üzündən indi marksizmin "unudulmuş sözləri" cərgəsinə keçmişdir. Peşələri nazirlik və parlament üzvlüyü olan, proletariata xəyanət edən indiki "işbaz" sosialistlər parlamentarizmi tənqid etməyi tamamilə anarxistlərin öhdəsinə buraxmış və belə qəribə bir əsasla,parlamentarizmin hər cür tənqidini "anarxizm"adlandırmışlar!! Heç də qəribə deyil ki, "qabaqcıl" parlamentli ölkələrin proletariatı Şeydemanlar, Davidlər, Leginlər, Sambalar, Renodellər, Hendersonlar,Vanderveldlər, Stauninglər, Brantinglər, Bissolatilər kimi "sosialistləri" gördükdə nifrət edirdi və anarxizm – sindikalizm opportunizmin doğma qardaşı olduğuna baxmayaraq, ona getdikcə daha tez – tez rəğbət göstərirdi.

Lakin Plexanovun, Kautskinin və başqalarının dəbdə olan boş bir ibarəyə və oyuncağa çevirdikləri inqilabi dialektika Marksın nəzərində heç bir zaman belə boş bir ibarə və oyuncaq olmamışdır. Marks, xüsusən açıq – aydın inqilabi şərait mövcud olmadığı bir zamanda burjua parlamentarizminin

downloaded from KitabYurdu.org

hətta “pəyəsindən” də istifadə etməyi bacarmayan anarxizimlə əlaqəni amansızlıqla qırmağı və eyni zamanda parlamentarizmi əsl inqilabi proletar nöqteyi-nəzərindən tənqid etməyi də bacarırdı.

Hakim sinfin hansı üzünün parlamantdə xalqı əzib tapdalayacağını hər neçə ildə bir dəfə həll etmək – bax, yalnız parlamentli-konstutsiyalı monarxiyalarda deyil, hətta ən demokratik respublikalarda da burjua parlamentarizminin əsl mahiyyəti bundan ibarətdir.

Lakin dövlət məsələsinə proletariatın bu sahədəki vəzifələri nöqteyi-nəzərindən yanaşılırsa,parlamentarizmə dövlət təsisatlarından biri kimi baxılarsa, parlamentazrimdən qurtulmaq üçün nə kimi bir yol vardır? Onsuz necə keçinmək olar?

Təkrar – təkrar demək istəyirəm ki, Marksın Kommunanı tədqiq etmək əsasında verdiyi dərslər o qədər unudulmuşdur ki, “sosial-demokrat” (sosializmin indiki xaini), parlamentarizmin anarxistcəsinə və ya irtıcaçılıqla tənqidindən başqa heç bir tənqidi fikirinə də gətirmir.

Parlamentarizmdən qurtulmaq yolu, əlbəttə, nümayəndəli təsisatları naqqalxana halından çıxarıb “iş görən” təsisatlara çevirməkdən ibarətdir. “Kommuna parlament təsisatı deyil, işləyən ,eyni zamanda həm qanun verən, həm də qanunları icra edən bir təsisat olmalı idi.”

“Parlament təsisatı deyil, işləyən” bir təsisat – bu sözlər indiki parlament xadimləri və sosial-demokratların parlamentlərdəki “ev tulaları” haqqında çox sərrast deyilmişdir! Amerikadan tutmuş İsveçrəyə qədər, Fransadan tutmuş İngilərəyı qədər, Norveçə və ya sair ölkəyə qədər hansı parlamentli “ölkəyə nəzər salsanız görəcəksiniz ki, əsl “dövlət” işini xəlvətdə görürlər və görənlər də departamnetlər, dəftərxanalar, ştablardır. Parlamentlərdə “qara camaatı” aldatmaq məqsədilə ancaq boşboğazlıq edirlər. Bu cəhət o qədər doğrudur ki, hətta burjua – demokratik respublikası olan Rusiya respublikası heç əsl parlament yaratmağa macal tapmazdan əvvəl, parlamentarizmin bütün eyibləri dərhal burada ortaya çıxdı. Skobelevlər və Seretilər, Çernovlar və Avksentyevlər kimi çürük meşşanlıq qəhrəmanları, Sovetləri də iyrənc burjua parlamentarizmi kimi mundarlayaraq, naqqalxanaya döndərə bildilər. Sovetlər cənab “sosialist” nazirlər sadədil adamları boş sözlərlə və qətnamələrlə aldadırlar. Bir tərəfdən, eser və menşeviklərin daha çoxuna növbə ilə gəlirli və fəxri vəzifələrdən ibarət “yağlı tikə” təmin etmək üçün, o biri tərəfdən,xalqın “fikirini məşğul etmək” üçün hökümtdə arasıkəsilməz bir oyun davam edir. Dəftərxanalarda, ştablarda isə “dövlət” işi “görülür”.

Hakim partiya olan “sosialist-inqilabçılar” partiyasının orqanı “Delo Naroda” bu yaxınlarda redaksiya adından dərc etdiyi baş məqalədə – “bütün üzvlərinin hamsının” siyasi fahişəliklə məşğul olduğu “abırlı cəmiyyətə” mənsub adamlar kimi – tamamilə açıq aydın etiraf etmişdi ki, hətta “sosialistlərin” (üzlərdən iraq!) əlində olan nazirliklərdə də bütün məmur aparatı mahiyyətcə keçmişdə olduğu kimi qalır, köhnə qayda ilə işləyir,inqilabi təşəbbüslərə qarşı tamamilə “sərbəst” surətdə sabotajçılıq edir! Hətta bunu mətbuatda etiraf etməsəydilər də, eser və menşeviklərin hökumətdə iştirak etməsinin həqiqi tarixi bunu sübut etmirmi? Burada marağlı ancaq odur ki, cənab Çernovlar, Rusanovlar,

downloaded from KitabYurdu.org

Zensinovlar və “Delo Naroda”nın başqa redaktorları nazirliklərdə kadetlərdə bir yerdə olaraq,o qədər həyasızlaşmışlar ki, “öz” nazirliklərində hər şeyin köhnə qaydada qaldığını boş bir şey kimi açıq – aşkar söyləməkdən utanıb qızarmırlar! Kənddəki İvanuşkaları aldatmaq üçün inqilabi – demokratik ibarələr, kapitalistləri “razı salmaq” üçün isə məmurların dəftərxana süründürməçiliyi – “namuslu” koalisiyanın mahiyyəti bax bundan ibarətdir.

Kommuna burjua cəmiyyətinin satqın və çürümüş parlamentarizmini elə təsisatlarla əvəz edir ki, bunlarda fikir söyləmək azadlığı və müzakirə etmək azadlığı aldatmaya çevrilmir, çünki parlament üzvləri özləri işləməlidirlər, öz qanunlarını özləri yerinə yetirməlidirlər, həyatda ortaya çıxan nəticələri özləri yoxlamalıdırlar, öz seçiciləri qarşısında bilavasitə özləri cavabdeh olmalıdırlar. Burada nümayəndəli təsisatlar qalırlar, lakin qanunverici və icraçı əmək bölgüsü kimi xüsusi bir sistem olan, deputatlar üçün imtiyazlı bir vəziyyət təmin edən parlamentarizm burada yoxdur. Biz, nümayəndəli təsisatları olmayan bir demokratiya olmasını, hətta proletar demokratiyası olmasını təsəvvür edə bilmərik; lakin, burja cəmiyyətini tənqid etmək bizim üçün boş bir söz deyilsə, burjuaziyanın hökmranlığını yıxmaq səyi, menşevik və eserlərin, Şeydemanların və Leginlərin, Sambaların və Vanderveldlərin etdiyi kimi, fəhlələrin səslərini toplamaq üçün “seçki” ibarəsi olmayıb, bizim ciddi və səmimi arzumuzdursa, demokratiyanı parlamentsiz təsəvvür edə bilərik və etməliyik.

Çox ibrətli cəhət budur ki, Marks həm Kommunaya, həm də proletar demokratiyasına lazım olan məmurların vəzifələrindən danışarkən, müqayisə üçün “hər cür başqa iş verəni” qulluqçuları, yəni “fəhlələri,nəzarətçiləri və müsahibləri” olan adi bir kapitalist müəssisəsini götürür.

Marksda, “yeni cəmiyyət” quraşdırmaq, uydurmaq mənasında zərrə qədər də utopizm yoxdur. Yox, Marks köhnə cəmiyyətdən yeni cəmiyyətin doğulmasını,köhnə cəmiyyətdən yeni cəmiyyətə keçid formalarını təbii – tarixi bir proses kimi tədqiq edir. Marks kütləvi proletar hərəkatının faktik təcrübəsini götürür və bundan əməli nəticələr çıxarmağa çalışır. Bütün böyük inqilabçı mütəfəkkirlər məzlum sinfin böyük hərəkatına heç vaxt xırdaçı “nəsihətlərlə” (Plexanovun; “silaha əl atmaq lazım deyildi” və ya Sertelenin “sinif özünü məhdud etməlidir” ) yanaşmayaraq, bu hərəkatın təcrübəsini öyrənməkdən qorxmadıqları kimi, Marks da Kommunadan “öyrənir”.

Kapitalizm “dövlətin” idarəetmə vəzifələrini sadələşdirir, “başçılıq etməni” bir kənara atmaq və bütün işi,bütün cəmiyyət adından muzdla “fəhlələr, nəzarətçilər, mühasiblər” götürən proletarların (hakim sinif olmaq etibarilə) təşkilinə müncər etmək imkanı verir.

Biz utopist deyilik. Biz belə bir “xəyal” etmirik ki, bəlkə birdən – birə heç bir idarəetmə sistemi və heç bir tabelik sistemi olmadan keçinə bildik; proletariat diktaturasının vəzifələrini anlanmamaqdan irəli gələn bu anarxist xəyalları marksizmə kökündən yaddır və insanlar dəyişib başqa cür olana qədər sosialist inqilabını həqiqətdə ancaq ləngitmək işinə xidmət edir.Yox, biz sosialist inqilabını indiki

downloaded from KitabYurdu.org

adamlarla tabelik, nəzarət, “nəzarətçilər və mühasiblər ” olmadan keçinə bilməyən adamlarla etmək istəyirik.
Lakin bütün isitsmar edilənlərin və zəhmətkeşlərin silahlı avanqardına – proletariata tabe olmaq lazımdır. Dövlət məmurlarının spesifik “başçılıq etməsini” dərhal, bu gün-sabah “nəzarətçilərin və mühasiblərin” adi vəzifələri ilə əvəz etməyə başlamaq olar və başlamaq lazımdır; bu vəzifələr isə ümumiyyətlə indi şəhər əhalisinin inkişaf səviyyəsinə tamamilə müyəssərdir və “fəhlənin əmək haqqı” qədər maaşla icra oluna bilər.
Kapitalizmin yaratdıqlarına əsaslanaraq iri istehsal təşkil edəcəyik ; biz özümüz, fəhlələr, öz fəhlə təcrübəmizə əsaslanaraq, ən ciddi polad intizam yaradıb bu intizamı silahlı fəhlələrin dövlət hakimiyyətinin köməyi ilə təmin edəcəyik ki, dövlət məmurları bizim tapşırıqları yerinə yetirən adi icraçılar, məsuliyyət daşıyan dəyişdirilə bilən, cüzi maaş alan “nəzarətçilər və mühasiblər” (əlbəttə, hər növ, hər cür və hər dərəcədən olan texniklərlə birlikdə) olsunlar – bax bizim proletar inqilabı edərkən bundan başlamaq olar və başlamaq lazımdır. İri istehsala əsaslanan belə bir başlanğıc nəticəsində hər bir məmurluq tədriclə, öz özünə “ölüb gedəcək”, tədriclə elə bir qayda – dırnaq işarəsi içinə alınmayan, muzdlu köləliyə bənzəməyən bir qayda – yaranacaqdır ki, getdikcə sadələşən nəzarət vəzifələri və hesabat növbə ilə hamı tərəfindən yerinə yetiriləcək, sonra bir adət halını alacaq və nəhayət, xüsusi təbəqədən olan adamların xüsusi vəzifələri olmaq etibarı ilə aradan qalxacaqdır .
Keçən əsrin yetmişinci illərinin bir hazırcavab alman sosial – demokratı poçtu sosialist təsərrüfatı üçün bir nümunə adlandırmışdı. Bu çox doğrudur. İndi poçt dövlət kapitalizmi inhisarı tipində təşkil edilmiş bir təsərrüfatdır. İmperializm bütün trestləri tədriclə bu cür təşkilatlarla çevirir. Həddindən artıq işləyən və aclıq “adi” zəhmətkeşlər üzərində yenə bir burju bürokratiyası durur. Lakin burada ictimai təsərrüfatçılıq mexanizmi artıq hazırdır. Kapitalistləri yıxmaqla, bu istismarçıların müqavimətini silahlı fəhlələrin dəmir ilə qırmaqla, müasir dövlətin bürokratik maşınını sındırmaqla, “tüfeylidən” azad edilmiş və yüksək texnika ilə təchiz olunmuş bir mexanizmə malik olaraq, birləşmiş fəhlələrin özləri isə texniklər, nəzarətçilər,mühasiblər tutaraq, onların hamsının işi üçün, habelə ümumiyyətlə bütün “dövlət” məmurlarının işi üçün fəhlənin əmək haqqı qədər maaş verərək,bu mexanizm tamamilə işə sala bilərlər. Bütün trestlər haqqında dərhal həyata keçirilə bilən konkret, əməli vəzifə bax budur : həmin vəzifə zəhmətkeşləri istismardan qurtaracaq, Kommunanın (xüsusən dövlət quruculuğu sahəsində) əməli surətdə başlamış olduğu təcrübəni nəzərə alacaqdır.
Silahlı proletariatın nəzarəti və rəhbərliyi altında bütün xalq təsərrüfatı poçt kimi təşkil olunmalı, texniklər, nəzarətçilər, mühasiblər, habelə bütün vəzifə sahibləri “fəhlənin əmək haqqından” yuxarı olmayan miqdarda maaş almalıdır, – bax, bizim ən yaxın məqsədimiz budur. Bizə belə bir iqtisadi əsas üzərində qurulmuş belə bir dövlət lazımdır. Gör, parlamentarizmin məhv edilməsi və

downloaded from KitabYurdu.org

nümayəndəli təsisatların saxlanması nə verəcəkdir, məhz bununla zəhmətkeş siniflər burjuaziya tərəfindən həmin təsisatların pozğunlaşdırılmasından xilas ediləcəklər.

### 4. Milli birliyin təşkili

“…Milli təşkilat haqqında Kommunanın daha artıq dərəcədə işləyib hazırlamağa macal tapmadığı müxtəsər oçerkdə tam qətiyyətlə deyildir ki, Kommuna hətta ən kiçik kənd üçün də… siyasi forma olmalı idi”… Parisdə olacaq “milli nümayəndə heyəti” də kommunalardan idi.

“…O zaman hələlik mərkəzi hökumətin öhdəsində qalacaq olan sayca az, lakin çox mühüm vəzifələr ləğv edilməsi deyil, – belə bir iddia qəsdən edilən bir saxtakarlıq idi, – bu vəzifələr Kommuna məmurlarına , yəni ciddi məsul olan məmurlara verilməli idi…

…Millətin birliyi məhv edilməli deyil, əksinə Kommuna quruluşu vasitəsi ilə təşkil edilməli idi. Millətin birliyi, özünü bu birliyin bir təcəssümü kimi qələmə verən,lakin millətdən asılı olmaq deyil,ondan yüksəkdə durmaq istəyən dövlət hakimiyyətini məhv etmək vasitəsi ilə həqiqətə çevrilməli idi. İşdə isə bu dövlət hakimiyyəti millətin bədənində ancaq bir tüfeyli törəmə idi… Vəzifə köhnə hökumət hakimiyyətinin xalis zülmkarlıq orqanlarını tamamilə məhv etməkdən, cəmiyyətdən yüksəkdə durmaq iddiasında olan hakimiyyətin əlindən onun səlahiyyətli vəzifələrini almaq və cəmiyyətin məsul xidmətçilərinə verməkdən ibarət idi”

Marksın bu mülahizələrini hazırki sosial – demokratiya opportunistlərinin qətiyyən anlamaqdıqlarını – bəlkə, daha doğrusu, anlamaq istəmədiklərini – xain Bernşteynin Herostrat şöhrəti qazanmış “Sosializmin ilkin şərtləri və sosial demokratiyanın vəzifələri” adlı kitabı hər şeydən daha yaxşı göstərir. Marksın məhz həmin sözləri münasibətilə ilə Bernşteyn yazmışdır ki, bu proqram “öz siyasi məzmunu cəhətdən bütün mühüm xüsusiyyətləri ilə Prudonun federalizminə son dərəcədə yaxındır… Marks ilə “xırda burjua” Prudon ( Bernşteyn “xırda burjua” sözlərini dırnaq ıçərisinə alır;yəqin ki, onun rəyincə bu rişxənd əlaməti olmalıdır) arasındakı bütün başqa fikir ixtilaflarına baxmayaraq, bu nöqtələrdə onların fikirlərinin gedişi bir – birinə mümkün olduğu qədər yaxındır”. Bernşteyn sözünə davam edərək deyir ki,əlbəttə, bələdiyyə idarələrinin əhəmiyyəti artır, lakin “mənə şübhəli gəlir ki, demokratiyanın ilk vəzifəsi hazırkı dövlətləri Marksın və Prudonun təsəvvür etdikləri kimi belə ləğv etməkdən ( Auflösung – hərfiyyən, buraxmaqdan, əritməkdən) və onların təşkilatını tamamilə dəyişdirməkdən (Umwandlung-çevrilişdən) ibarət olsun; Marksın və Prudonun təsəvvürüncə bu vəzifə – eyni zamanda kommunarların da nümayəndələrindən ibarət olacaq əyalət və ya vilayət məclislərinin nümayəndələrindən milli məclis düzəltməkdən ibarətdir ki, beləliklə də bütün milli nümayəndəliklərini keçmiş forması tamamilə yox olardı” ( Bernşteyn, “ Sosializmin ilkin şərtləri”, 1899 – cu il almanca nəşrinin 134 və 136 – cı səhifələri).

Marksın “tüfeyli dövlət hakimiyyətinin məhv etmək” haqqındakı baxışlarını Prudonun federalizmi ilə qarışdırmaq lap əcaib bir şeydir! Lakin bu təsadüfü deyildir, çünki opportnunistin heç ağlına da

downloaded from KitabYurdu.org

gəlmirdi ki, Marks burada heç də mərkəziyyətçiliyin əksinə olaraq, federalizmdən deyil, bütün burjuaziya ölkələrində olan köhnə, burjua dövlət maşınını qırmaqdan danışır.

Opportunistin ağlına bir şey gəlirsə o da ancaq öz ətrafında, şəhər meşşanlığı və “reformist” durğunluğu mühitində gördüyü şeylərdir, yəni ancaq “bələdiyyə idarələridir”! Opportunist, proletariatın inqilabı haqqında düşünməkdən də yadırğamışdır.

Bu gülüncdür. Lakin qəribədir ki, bu məsələdə Bernşteyn ilə heç kim mübahisə etmirdi. Bernşteyni bir çoxları – xüsusilə rus ədəbiyyatında Plexanov, Avropa ədəbiyyatında isə Kautski təzkib edirdi, lakin bunların heç biri Bernşteyn tərəfindən Marksın belə təhrif edilməsindən danışmamışdır.

Opportunist, inqilabi tərzdə düşünməkdən və inqilab haqqında fikirləşməkdən o qədər yadırğamışdır ki, “federalizmi” Marksa isnad verərək, onu anarxizmin banisi olan Prudonla qarışdırır. Optodoks marksist olmaq,inqilabi marksizm təlimini müdafiə etmək istəyən Kautski və Plexanov isə bu barədə susurlar! Marksizmlə anarxizm arasındaki fərqə aid baxışların son dərəcədə bayağılaşdırılmasının köklərindən biri də bundan ibarətdir: bu bayağılaşdırma həm kautskişilərə həm də opportunistlərə xasdır və bunun haqqında biz hələ danışmalı olacağıq.

Kommunanın təcrübəsi haqqında Marksın yuxarıda göstərilən mülahizələrində federalizmin heç izi də yoxdur.Marks məhz opportunist Bernşteynin görmədiyi məsələdə Prudonla həmfikirdir. Marksın Prudonla məhz həmfikir olduğunu Bernşteynin zənn etdiyi məsələdə Marksla Prudon arasında fikir ixtilafı vardır.

Marks Prudonla bir nöqtədə həmfikirdir, o da bundan ibarətdir ki, onların hər ikisi hazırkı dövlət maşınını “dağıtmaq” tərəfdarlarıdır. Marksizmin anarxizmə (həm Prudonla, həm Bakuninlə)bu bənzəyişini nə opportunistlər, nə də kautskiçilər görmək istəmirlər, çünki onlar bu nöqtədə marksizmdən uzaqlaşmışlar.

Marks Prudondan da,Bakunindən də məhz federalizm məsələsində (hələ proletariat diktaturası məsələsi bir yana dursun) ayrılır. Federalizm prinsip etibarilə anarxizmin xırda burjua görüşlərindən irəli gəlir.Marks mərkəziyyətçidir. Göstərdiyimiz mülahizələrdə də o, mərkəziyyətdən əsla kənara çıxmır. Ancaq dövlətə meşşancasına “mövhümü etiqad” bəsləyən adamlar burjua dövlət maşınının məhv edilməsini mərkəziyyətin məhv edilməsi hesab ede bilərlər!

Bəs proletariat və yoxsul kəndlilər dövlət hakimiyyətini öz əllərinə alsalar,tam azad bir şəkildə kommunalar halında təşkil olunsalar və bütün kommunların fəaliyyətini kapitala zərbə vurmaq üçün, kapitalistlərin müqavimətini qırmaq üçün,dəmir yollar, fabriklər, torpaq və sairə üzərində xüsusi mülkiyyəti bütüb millətə,bütün cəmiyyətə vermək üçün birləşdirsələr, məgər bu mərkəziyyətçilik olmayacaqdırmı? məgər bu ən ardıcıl bir demokratik mərkəziyyət olmayacaqdırmı? Həm də proletar mərkəziyyət olmayacaqdırmı?

downloaded from KitabYurdu.org

Bernşteynin heç ağlına da gələ bilmir ki, könüllü mərkəziyyət,kommunaların könüllü sürətdə bir millət halında birləşməsi,burjua hökmranlığını və burjua dövlət maşınını dağıtmaq işində proletar kommunlarının könüllü sürətdə birləşməsi mümkündür. Hər bir filister kimi Bernşteyn də mərkəziyyəti ancaq yuxarıdan, ancaq məmurlar və hərbçiər tərəfindən zorla tədbiq edilib saxlanıla bilən bir şey kimi təsəvvür edir.

Marks, sanki öz baxışlarının təhrif edilə biləcəyini qabaqcadan görərək qəsdən deyirdi ki, Kommunanı guya millətin birliyini məhv etmək, mərkəzi hakimiyyəti ləğv etmək arzusunda olmaqda ittiham etmək şüurlu surətdə edilən bir saxtakarlıqdır. Marks şüurlu, demokratik, proletar mərkəziyyətinə qarşı qoymaq üçün qəsdən "millətin birliyini təşkil etmək" ifadəsini işlədir.

Lakin… eşitmək istəməyən bir adam hər bir kardan daha pisdir. Müasir sosial – demokratiya opportunistləri isə dövlət hakimiyyətini məhv etmək, tüfeylini kəsib atmaq sözlərini eşitmək istəmirlər.

**5. Tüfeylinin – dövlətin məhv edilməsi**

Yuxarıda biz Marksın müvafiq sözlərini göstərdik və indi bunları tamamlamalıyıq.

Marks yazmışdır:

"… Yeni tarixi yaradıcılığın müqəddaratı adətən bundan ibarətdir ki, ona ictimai həyatın köhnə və hətta vaxtı keçmiş formaları kimi, yeni təsisatların az – çox bənzədiyi formaların oxşarı kimi baxırlar. Müasir dövlət hakimiyyətini qıran (bricht – dağıdan) bu yeni Kommunaya da orta əsrlər kommunasının bərpa edilməsi kimi… xırda dövlətlərin ittifaqı kimi (Monteskye, jirondistlər)… həddən artıq mərkəzləşdirməyə qarşı köhnə mübarizənin şişirdilmiş bir forması kimi baxılırdı.

…Kommuna quruluşu cəmiyyətin hesabına bəslənən və onun sərbəst hərəkətini ləngidən həmin tüfeyli törəmənin, yəni "dövlətin" bu vaxta qədər udmuş olduğu bütün qüvvələri cəmiyyətə qaytaradı. Təkcə elə bu, Fransanın dirşəlməsini irəlilətmiş olardı…

…Kommuna quruluşu kənd istehsalçılarını hər vilayətin baş şəhərlərinin mənəvi rəhbərliyi altına alardı və burada onların mənafeyini şəhər fəhlələri şəxsində müdafiə edən təbii nümayəndələri olmasını təmin edərdi. Kommunanın varlığının özü isə özlüyündə təbii bir şey kimi, yerli özünüidarə meydana gətirirdi, lakin daha bu özünüidarə, indi lüzumsuzlaşan dövlət hakimiyyətinin qarşılığı deyildi".

"Tüfeyli törəmə" olan "dövlət hakimiyyətini məhv etməli, onu "kəsib atmalı", "onu dağıtmalı"; "dövlət hakimiyyəti indi lüzumsuz bir şey olur"- Marks, Kommunanın təcrübəsini təhlil edib qiymətləndirirkən dövlət haqqında bax, bu ifadələri işlətmişdir.

Bütün bunlar təqribən yarım əsr əvvəl yazılmışdır, indi, marksizm təhrif edilməmiş şəkildə kütlələrin şüuruna çatdırmaq üçün sanki qazıntı işləri aparmaq lazım gəlir. Marksın görmüş olduğu son böyük inqilab üzərində müşahidələrdən çıxarılan nəticələri, proletariatın məhz sonrakı böyük inqilablarının vaxtı çatdığı bir zamanda unutmuşlar.

downloaded from KitabYurdu.org

"…Kommunanın doğurduğu mextəlif rəylər və burada öz ifadəsini tapmış olan müxtəlif mənafelər sübut edir ki, Kommuna son dərəcə çevik bir siyasi forma idi, halbuki bütün əvvəlki hökumət formaları mahiyyət etibarı ilə zülmkarlıq formalarıı idi. Kommunanın əsl sirri bu idi: o, əslində fəhlə sinfinin hökuməti idi, istehsal edən sinfin mənimsəyən sinfə qarşı mübarizəsinin nəticəsi idi, o, nəhayət, kəşf edilmiş elə bir siyasi forma idi ki, əmək bütün daxilində iqtisadi cəhətdən azad edilə bilərdi.

Bu axırıncı şərt olmadan, kommuna quruluşu qeyri – mümkün və başaldatma olardı…"

Utopistlər cəmiyyətiin sosialistcəsinə yenidən qurulması üçün guya imkan verəcək olan siyasi formalar "kəşf" etməklə məşqul olurdular. Anarxislər ümumiyyətlə siyasi formalar məsələsində əl çəkmişdilər. Müasir sosial – demokratiya opportunistləri parlamentli demokratik dövlətin burjua siyasi formalarını son hədd hesab edir, bu həddi keçilməz zənn edir və bu "nümunəyə" baş əyib səcdə edir, həmin formaları sındırmaq yolunda göstərilən hər bir səyi anarxizm elan edirdilər.

Marks sosializm və siyasi mübarizənin bütün tarixindən bu nəticəni çıxarmıdır ki, dövlət yox olmalıdır və "hakim sinih halında təşkil olunmuş proletariat" dövlətin yox olması üçün keçid (dövlətdən dövlətsizliyə keçid) forması olacağdır. Lakin Marks bu gələcəyin siyasi formalarını kəşf etməyə girişməmişdir. O, Fransa tarixini dürüst müşahidə etməklə, onu təhlil etməklə və 1851-ci ilə əsasən çıxartdığın nəticə ilə kifayətlənirdi; bu nəticə ondan ibarət idi ki, iş burjua dövlət maşınının dağıdılmasına doğru gedir.

Proletariatın kütləvi inqilabının hərəkatı başlandıqda isə Marks bu hərəkatın müvəffəqiyyətsizlliyinə baxmayaraq, onun qısa müddət davam etdiyinə və aydın sürətdə görünən zəifliyinə baxmayaraq, həmin hərəkatın nə kimi formalar kəşf etdiyini öyrənməyə başladı.

Kommuna proletar inqilabının "nəhayət kəşf etdiyi" elə bir formadır ki, əmək bu forma daxilində iqtisadi cəhətdən azad ola bilər.

Kommuna burjua dövlət maşınınıı qırmaq üçün prooletar inqilabının ilk cəhdi və "nəhayət kəşf edilmiş" suyasi bir formadır ki, dağıdılmış dövlət maşınını bununla əvəz etmək olar və əvəz emək lazımdır.

Şərhimizin görəcəyik ki, 1905-ci və 1917-ci illərdəki rus inqilablarını başqa bir vəziyyətdə, başqa bir şəraitdrə Kommunanın işini davam etdirir və Marksın dahiyanə tarixi təhlilini təsdiq edir.

V FƏSİL

# ARDI. ENGELSİN ƏLAVƏ İZAHATLARI

Marksın Kommunanın təcrübəsinin əhəmiyyəti məsələsində əsas cəhətləri verilmişdir. Engels elə həmin mövzuya dəfələrlə qayıdaraq Marksın təhlilini və çıxartdığı nəticələri izah etmiş və məsələnin

downloaded from KitabYurdu.org

başqa cəhətlərini bəzən elə bir qüvvətlə və əyani şəkildə aydınlaşdırmışdır ki, bu izahatlardan ayrıca danışmaq lazımdır.

## 1. "MƏNZİL MƏSƏLƏSİ"

Engels mənzil məsələsi haqqındakı əsərində (1872-ci il) Kommuna təcrübəsini nəzərə alaraq dövlət məsələsində inqilabın vəzifələrindən bir neçə dəfə danışır. Maraqlıdır ki, konkret mövzu üzərində işləməklə, bir tərəfdən, proletar dövləti ilə indiki dövlətin bir-birinə bənzəyən cəhətləri, – yəni hər iki halda dövlət haqqında danıçmaq üçün əsas verən cəhətlər, – digər tərəfdən bu iki dövləti bir-birindən cəhətlər, yaxud, başqa sözlə desək, dövlətin məhv edilməsinə keçmək məsələsi tamamilə aydınlaşdırılır.

"Mənzil məsələsini necə həll etməli? Müasir cəmiyyətdə bu məsələ də tamamilə hər bir başqa ictimai məsələ kimi həll olunur: tələblə təklifin tədricən iqtisadi tarazlaşması yolu ilə həll olunur, bu isə məsələnin elə bir həllidir ki, məsələni daim yenidən özü doğurur, yəni məsələni heç bir sayaqla həll etmir. Bu məsələni sosial inqilabın necə həll edəcəyi nəyinki yalnız zaman və məkan şəraitindən asılıdır, həmçinin daha dərin məsələlərlə də bağlıdır və bu məsələlərin ən mühümlərindən biri şəhərlə kənd arasında əksliyin ləğv edilməsidir. Biz gələcək cəmiyyətin utopik quruluşu sistemlərini icad etməklə məşğul olmadığımıza görə, bunun üzərində dayanmaq çox lüzumsuz bir şey olardı. Bir şey şübhəsizdir, o da məhz budur ki, artıq indi böyük şəhərlərdə kifayət qədər yaşayış binaları vardır və həmin binalardan ağıllı-başlı istifadə olunsa, mənzilə olan həqiqi ehtiyacı ödəməyə dərhal kömək edə bilər.
Aydındır ki, bu indiki ev sahiblərini mülkiyyətdən məhrum etmək yolu ilə və yurdsuz fəhlələri, yaxud indi həddinən artıq dolmuş mənzillərdə yaşayan fəhlələri həmin evlərə köçürmək yolu ilə edilə bilər. Proletariat siyasi hakimiyyəti öz əlinə alan kimi, cəmiyyətin xeyri üçün tələb olunan bu cür tədbir və müasir dövlətin başqa mülkiyyətlərindən məhrum etmək və mənzilləri tutmaq təbbirləri kimi asanlıqla yerinə yetirilə bilər" (1887-ci il almanca nəşrin 22-ci səhifəsi).

Burada dövlət hakimiyyəti formasının dəyişilməsi nəzərdən keçirilmir, yalnız onun fəaliyyətinin məzmunu götürülür. İndiki dövlətin sərəcamı ilə də mülkiyyətdən məhrum etmə halları olur və mənzillər tutulur.İşin rəsmi cəhəti götürülərsə, proletar dövləti və mənzilləri tutmaq və evləri müsadirə etmək "sərəncamı verəcəkdir". Lakin aydındır ki, köhnə icraiyyə aparatı, burjuaziya ilə bağlı olan məmurlar proletar dövlətin sərəncamlarını həyata keçirmək üçün heç də yaramazdı.

"…Qeyd etmək lazımdir ki, bütün əmək alətlərinə, bütün sənaye zəhmətkeş xalqın həqiqətdə yiyələnməsi prudonistlərin irəli sürdükləri "ödənc tələbinin lap əksidir. Sonuncu halda hər bir ayrıca fəhlə mənzil, bir parça kəndli torpağı, əmək alətləri mülkiyyətçisi olur; birici halda isə "zəhmətkeş xalq" evlərin, fabriklərin və əmək alətlərinin məcmu mülkiyyətçisi olaraq qalır. Hər halda keçid dövründə bu evlərin, fabriklərin və sairənin istifadə edilmək üçün xərci alınmadan ayrı-ayrı şəxslərə

downloaded from KitabYurdu.org

və ya şirkətlərə veriləcəyini çətin ehtimal etmək olar. Eyniylə də torpaq mülkiyyətinin məhv edilməsi deyil, bəlkə onun dəyişilmiş bir formada olsa da, cəmiyyətə verilməsi nəzərdə tutulur. Deməli, bütün əmək alətlərinə həqiqətdə zəhmətkeş xalqın yiyələnməsi kirayəni saxlamağı və kirayəyə verməyi əsla aradan qaldırmır" (səh. 68).

Bu mülahizədə toxunulan məsələdən, yəni dövlətin ölüb getməsinin iqtisadi əsasları məsələsindən biz sonrakı fəsildə bəhs edəcəyik. Engels son dərəcə ehtiyatla danışaraq deyir ki, "hər halda keçid dövründə" mənzilləri proletar dövlətinin pulsuz paylaşdıracağını "çətin ehtimal etmək olar". Bütün xalqa məxsus olan mənzillərin ayrı-ayrı ailələrə pulla kirayəyə verilməsi bu kirayə haqqının alınmasını da, müəyyən bir nəzarət olmasını da, mənzillərin bu və ya başqa bir norma üzrə paylaşdırmasını da nəzərdə tutur. Bütün bunlar müəyyən bir dövlət forması olmasını tələb edir, lakin heç də xüsusi və bürokratik bir aparat olmasını və burada xüsusi imtiyazlı vəziyyətə malik vəzifə sahiblərinin olmasını tələb etmir. Mənzillərin pulsuz verilə biləcəyi bir vəziyyətə keçmək isə dövlətin tamamilə "ölüb getməsi ilə bağlıdır.

Kommunadan sonra və onun verdiyi təcrübənin təsiri altında blankistlərin prinsipial marksizm mövgeyinə keçmələrindən danışırkən, Engels ötəri olaraq bu mövgeyə aşağıdaki tərifi verir:

"…Siniflərin və onlarla birliktə dövləti ləğv etməyə keçmək üçün proletariatın siyasi fəaliyyəti və onun diktaturası lazımdır…" (səh.55)

Hərfi tənqid həvəskarları və ya "marksizmi məhv edən" burjualar "dövlətin ləğvi haqqındakı bu etirafla, "Anti-Dürinq"dən yuxarıda verilən parçada bu formulun anarxist bir formul kimi rədd edilməsi arasında, bəlkə də, ziddiyyət olduğunu göstərələr. Opportunistlər Engelsi də "anarxistlər" cümləsinə daxil etsəydilər, burda təəcüblə bir şey olmazdı,-beynəmiləlçiləri sosial-şovinistlərin anarxizmdə ittiham etməsi indi keçdikcə daha geniş sürətdə yayılır.

Siniflərin ləğvi ilə bərabər dövlətin də ləğv olacağını marksizm həmişə göstərmişdir. "Anti-Dürinq"dən "dövlətin ölüb getməsi" hamıya məlum olan parça, anarxistləri sadəcə olaraq dövləti ləğv etməyə tərəfdar olduğlarına görə deyil, bəlkə dövləti guya "günü sabah" ləğv etmək mümkün olduğunu təbliğ etdiklərinə görə təqsirləndirir.

Dövlətin məhv edilməsi məsələsində marksizmin anarxizmə münasibəti hazırda hökm sürən "sosial-demokrat" doktrinası vasitəsi ilə tamamilə təhrif edidiyi üçün Marks və Engelsin anarxistlərlə bir mübahisəsini xatırlatmaq xüsusilə faydalıdır.

## 2. ANARXİSTLƏRLƏ MÜBAHİSƏ

Bu mübahisə 1873-cü ilə aiddir. Marks və Engels prudonistlər, "müxtariyyətçilərə" və ya "antiavtoritaristlərə" qarşı İtaliya sosialist məcmuəsinə məqalələr vermişdilər, bu məqalələr ancaq 1913-ildə almancaya tərcümə edilərək, "Neue Zeit"də çıxmışdır.

Marks siyasəti inkar edən anarxistlərə rişxəndlə yazmışdı:

downloaded from KitabYurdu.org

“…Əgər fəhlə sinfinin siyasi mübarizəsi inqilabı formalar alırsa, əgər fəhlələr burjuaziya diktaturasının yerinə öz inqilabi diktaturasını qoyurlarsa, onlar prinsipləri təhqir etmək kimi dəhşətli bir cinayət törədirlər, çünki fəhlələr öz gündəlik cüzi, qaba ehtiyaclarını ödəmək üçün, burjuaziyanın müqavimətini qırmaq üçün, silahı yerə qoymaq və dövləti ləğv etmək əvəzində dövlətə inqilabi və keçici bir forma verirlər…” (“Neue Zeit”, 1913-1914, 32-ci il, 1-ci cild, səh. 40).

Marks anarxistləri təkzib edirkən dövlətin ancaq belə kəğvi əleyhinə idi! Heç də siniflərin yox olması ilə dövlətin ləğv olacağı əleyhinə deyil, əksinə fəhlələrin silah işlətməkdən, mütəşəkkil zorakılıqdan imtina etməsi əleyhinə idi, yəni “burjuaziyanın müqavimətini qırmaq” məqsədinə xidmət etməli olan dövlətdən imtina etmələri əleyhinə idi.

Marks proletariat üçün zəruri olan dövlətin “inqilabı və keçici formasını” qəsdən təkildə qeyd edir ki, onun anarxizmlə mübarizəsinin əsl mənasını təhrif etməsinlər. Proletariata dövlət ancaq müəyyən bir zaman üçün lazımdır. Bir məqsəd olmaq etibarı ilə dövləti ləğv etmək bizimlə anarxistlər arasında fikir ixtilafları yoxdur. Biz deyirik ki, sinifləri məhv etmək üçün məzlum sinifin müvəqqəti diktaturası lazım olduğu kimi, dövləti ləğv etmək məqsədinə çatmaq üçündə istismarçılara qarşı dövlət hakimiyyətinin silahlarından, vasitələrindən və üsullarından müvəqqəti istifadə etmək lazımdır. Marks anarxistlərə qarşı məsələnən kəskin və ən aydın şəkildə qoyur: fəhlələr kapitalistlərin əsarətini yaxdıqdan sonra “silahı yerə qoymalıdırlarmı”, yoxsa kapitalistlərin müqavimətini qırmaq üçün bu silahdan kapitalistlərə qarşı istifadə etməlidirlər? Bir sinfin başka bir sinfə qarşı silahdan müntəzəm istifadə etməi dövlətin “keçici forması” deyildirsə, bəs nədir?

Qoy hər bir sosial-demokrat özündən soruşsun: anarxistlərlə mübahisədə o, dövlət məsələsini belə mi qoyurdu? İkinci intrenasionalist rəsmi sosialist partiyaların böyük əksəriyyəti həmin məsələni beləmi qoyurdu?

Engels eyni fikirləri daha müfəssəl daha aydın şəhr edir. Ən əvvəl, o, özlərini “antiavtoritarist” adlandırılan, yəni hər cür avtoriteti, hər cür tabeliyi, hər cür hakimiyyəti inkar edən prudonistlərin fikirlərinin dolaşınığlığına rişxənd edir. Engels deyir ki, fabriki, dəniz yolunu, açıq dənizdəki gəmini götürün, – müəyyən bir tabelik olmazsa, maşınlar tədbiqinə və bir çox şəxslərin müntəzəm əməkdaşlığına əsaslanmış olan bu mürəkkəb texniki müəssislərdən heç birinin işləyə bilməyəcəyi məgər aydın deyilmi?

Engels yazır:

“…Əgər mən ən ötkəm antiavtoristlərə qarşı dəlilləri irəli sürürəmsə, onlar mənə ancaq aşağıdakı cavabı verə bilərlər: “Bəli! Bu doğrudur, lakin burada məsələ bizim öz nümayəndələrimizə verdiyimiz avtoritet deyil, məhz müəyyən tapşırıqdadır.” Bu adamlar belə zənn edirlər ki, biz müəyyən bir şeyin adını dəyişdirməklə onun özünü də dəyişdirə bilərik…”

downloaded from KitabYurdu.org

Beləliklə, Engels avtoritetin və muxtariyyətin nisbi anlayışları olduğunu, ictimai inişafın müxtəlif mərhələlərində onların tədbiq edilməsi sahəsinin dəyişdiyini, onları mütləq hesab etməyin mənasız bir şey olduğunu göstərərək, maşınların və iri istehsalın tətbiq edilməsi sahəsinin getdikcə genişləndiyini əlavə edərək, avtoritet haqqında ümumi mülahizələrdən dövlət məsələsinə keçir.

Engels yazır:

"…Əgər müxtariyyətçilər yalnız onu demək istəsəydilər ki, gələcəyin sosial təşkilatı avtoritetə ancaq istehsal şəraitinin labüddən tələb etdiyi bir dərəcədə yol verəcəkdir, o zaman onlarla ümumi dil tapmaq olardı. Lakin onlar avtoriteti zəruri edən bütün faktları əsla görmürlər və buna görə də kəlməyə qarşı qızğın mübarizə edirlər.

Nə üçün anti avtoritaristlər siyasi avtoritetə, dövlətə qarşı çığır-bağır salmaqla kifayətlənmirlər? Bütün sosialistlər belə bir fikrə şərikdirlər ki, dövlət və onunla birlikdə siyasi avtoritet də gələcək sosial inqlab nəticəsində yox olub gedəcəkdir, yəni ictimai vəzifələr öz siyasi xarakterini itirəcək və sosial mənafelərə nəzər yetirən sadə inzibati vəzifələrə çevriləcəkdir. Lakin antiavtoritaristlər tələb edirlər ki, siyasi dövlət, onu doğurmuş olan sosial münasibətlər hələ ləğv edilməmişdən əvvəl, bir zərbə ilə ləğv edilsin. Onlar tələb edirlər ki, sosial inqilabın birinci tədbiri avtoriteti ləğv etməkdən ibarət olsun.

Bu cənablar heç ömürlərində inqilab görmüşlərmi? İnqilab, şübhəsiz, mümkün ola biləcək ən avtoritar bir şeydir. Inqilab elə bir hadisədir ki, əhalinin bir hissəsi tüfənglər, süngülər, və toplar vasitəsi ilə, yani son dərəcə avtoritarlı vasitələrlə öz iradəsini əhalinin digər hissəsinə qəbul etdirir. Həm də qalib gələn partiya zəruri olaraq öz hökmranlığını, öz silahı ilə irticaçıların canına saldığı qorxu vasitəsi ilə saxlamağa məcbur olur. Əgər Paris Kommunası burjuaziyaya qarşı silahlı xalqın avtoritetinə arxalanmasaydı, məgər bir gündən artıq yaşaya bilərdimi? Əksinə biz Kommunanı bu avtoritetdən çox az istifadə etdiyinə görə qınamaqda haqlı deyilikmi? Beləliklə: iki şeydən biridir. Ya budur ki, antiavtoritaristlər nə dediklərini heç özləri də bilmirlər və bu halda ancaq dolaşıqlıq salırlar. Ya da budur ki, onlar bunu bilirlər və bu halda onlar proletariatın işinə xəyanət edirlər. Hər iki halda onlar ancaq irticaya xidmət edirlər" (səh. 39) .

Həmin mülafizədə, dövlət ölüb gedərkən iqtisadiyyat ilə siyasət arasında qarşılıqlı münasibət mövzu ilə (bundan sonrakı fəsil bu mövzuya həsr edilmişdir) əlaqədar sürətdə nəzərdən keçirilməli olan məsələlərdən bəhs olunur. İctimai vəzifələrin siyasi vəzifə halında çıxıb sadəcə inzibati vəzifələrə çevrilməsi və "siyasi dövlət" məsələsi bu qəbildəndir. Dolaşıqlığa daha çox səbəb ola biləcək "siyasi dövlət" ifadəsi dövlətin ölüb getməsi prosesini göstərir,: ölüb getməkdə olan dövləti ölüb getməsinin müəyyən pilləsinə qeyri-siyasi dövlət adlandırmaq olar.

Engelsin bu mülahizəsində ən gözəl cəhət yenə anarxistlərə qarşı məsələnin qoyulmasıdır. Engelsin şagirdi olmaq istəyən sosial-demokratlar 1873-cü ildən bəri anarxistlərə qarşı milyon

downloaded from KitabYurdu.org

dəfələrlə mübahisə etmişlər, lakin məhz marksistlərin edə biləcəkləri və etməli olduqları kimi mübahisə etməmişlər. Engels məsələni belə qoyurdu: dövlətin ləğvi haqqında anarxist təsəvvürü dolaşıqdır və *inqilabi deyildir*. Anarxistlər inqilabin meydana gəlib inkişaf etməsində, onun zor, avtoritet, hakimiyyət, dövlət haqqında spesifik vəzifələrində məhz inqilabın özünü görmək istəmirlər.

Anarxizmin hazırki sosial-demokratlar tərəfindən adi tənqidi tamamilə meşşan bayağılığına çevrilmişdir: "axı biz dövləti qəbul edirik. Anarxistlər isə qəbul etmirlər!". Əlbəttə belə bayağılıq az-çox düşüncəli və inqilabçı fəhlələrin nifrətinə səbəb olmaya bilməz. Engels başqa cür deyir: o qeyd edir ki, sosialist inqilabının nəticəsi olaraq dövlətin yox olacağını bütün sosialistlər etiraf edirlər. Sonra Engels inqilab məsələsini konkret sürətdə qoyur, halbuki sosial-demokratlar öz opportunistlikləri adətən məhz həmin məsələyə göz yumurlar və bu məsələni, necə deyirlər, "işləyib hazırlamağı" təkcə anarxistlərin öhtəsinə buraxırlar. Həm də Engels bu məsələni qoymaqla işin lap məğzindən bəhs edir: Kommuna dövlətin, yəni hakim sinif halında təşkil olunmuş silahlı proletariatın inqilabi hakimiyyətindən daha çox istifadə etməli deyildimi?

Hakim rəsmi sosial-demokratiya inqilabda proletariatın konkret vəzifələri məsələsindən adətən ya filisterlərə məxsus bir rişxənd ilə. Ya da ən yaxşı halda, sofistlərə məxsus: "o zaman məlum olar" sözləri ilə baş qaçırmışdır. Anarxistlərdə belə bir sosial-demokratiya əleyhinə: o, fəhlələrə inqilabi tərbiyə verməkdən ibarət olan öz vəzifəsinə xəyanət edir deməyə haqq qazandırdılar. Engels proletariatın həm banklara. Həm də dövlətə qarşı nə şəkildə hərəkət etməli və bu hərəkəti necə etməli olduğu məsələni məhz ən konkret şəkildə öyrənmək üçün axrıncı proletar inqilabınıın təcrübəsindən istifadə edir.

### 3. BEBELƏ MƏKTUB

Marksın və Engelsin əsərlərində dövlət məsələsi haqqında ən gözəl mülahizəlrdən biri, hətta ən gözəl mülahizə Engelsin Bebelə 1875-ci il 18-28 mart tarixli məktubunun bu aşağıdaki yeridir. Sözarası qeyd edək ki, həmin məktub, – bizim bildiyimizə görə, Bebel tərəfindən ilk dəfə öz xatirələrinin ("Mənim həyatımdan") ikinci cildində 1911-ci ildə, yəni məktubun yazılıb göndərildiyi zamandan 36 il keçəndən sonra dərc edilmişdir.

Engels Marksın da Brakeyyə məşhur məktubunda tənqid etdiyi Qota proqramı lahiyəsini tənqid edərək və dövlət məsələsindən ayrıca danışaraq, Bebelə yazmışdır:

"…Azad xalq dövləti azad dövlətə çevrilmişdir. Bu sözlərin qrammatik mənasına görə, azad dövlət elə bir dövlətdir ki, burada dövlət öz vətəndaşlarına qarşı azaddır, yəni müstəbid hökümətə malik bir dövlətdir. Dövlət haqqında bütün bu boşboğazlığı, xüsusən artıq əsl mənada dövlət olmayan Kommunadan sonra bir kənara atmaq lazım idi. Anarxistlər "xalq dövləti" – həddinən artıq gözümüzə soxurdular, halbuki Marksın Prudona qarşı yazdığı əsərində, sonra da "Kommunist Manifesti"ndə açıq deyilir ki, sosializm ictimai quruluşu yaradıldıqda dövlət öz-özünə ləğv olur (sich

downloaded from KitabYurdu.org

auflöst) və yox olur. Dövlət öz düşmənlərini zorla əzmək üçün mübarizədə, inqilabda istifadə edilməli olan ancaq keçici bir təsisat olduğuna görə, azad xalq dövlətində danışmaq lap mənasızdır: nə qədər ki, proletariatın dövlətə ehtiyacı var, onun dövlətə olan bu ehtiyacı azadlıq mənafeyi üçün deyil, öz düşmənlərini əzmək mənafeyi üçündür, azadlıqdan danışmaq mümkün olduqda isə dövlət bir dövlət olaq etibarı ilə daha mövcud olmur. Buna görə biz təklif edirik ki, hər yerdə dövlət sözü əvəzinə, köhnə, qəşəng alman sözü olan və fransızca "kommuna" sözünə uyğun gələn "icma" (Gemeinwesen) sözü qoyulsun" (almanca orijinalın 321-322-ci səhifələri) .

Nəzərdə tutmaq lazımdır ki, bu məktub Marksın həmin məktubdan cəmi bir neçə həftə sonra yazdığı məktuba (Marksın 1875-ci il 5 may tarixli məktubunda) tənqid etdiyi partiya proqramına aiddir və o vaxt Engels Marksla bir yerdə Londonda yaşayırdı. Buna görə Engels son cümlədə "biz" dedikdə alman fəhlə partiyasının başçısına "dövlət" sözünü proqramdan çıxarıb atmağı və bunu "icma" sözü ilə əvəz etməyi şübhəsiz, özünün və Marksın adından təklif edir.

Opportunislər üçün əlverişli şəkildə saxtalaşdırılmış olan hazırkı "marksizm"in başçılarına proqramı belə təshih etmələri təklif edilsəydi, onlar "anarxizm" haqqında necə ulaşmağa başlayardılar!

Qoy ulaşsınlar. Bunun üçün burjuaziya onları tərifləyər.

Biz isə öz işimizi görəcəyik. Partiyamızın proqramını nəzərdən keçirib dəyişdirirkən, həqiqətə daha yaxın olmaq üçün, marksizmi təriflərdən təmizləyib bərpa etmək üçün, fəhlə sinfinin öz azadlığı uğruna mübarizəsinə daha düzgün istiqamət vermək üçün Engelsin və Marksın məsləhətini mütləq nəzərə almaq lazımdır. Yəqin ki, bolşeviklər arasında Engelsin və Marksın məsləhətinə zidd çıxan tapılmaz. Ehtimal ki, termin məsələsində çətinlik olacaqdır. Almanca "icma" mənasında iki söz vardır və Engels bunlardan ayrıca bir icmanı ifadə edən sözü deyil, icmalar məcmusunu, icmalar sistemini ifadə edən sözü seçmişdir. Rusca belə bir söz yoxdur və olsun ki, fransızca "kommuna" sözünü götürmək gərəkəcəkdir, hərçənd bunun da öz uyğunsuzluqları vardır.

"Kommuna artıq əsl mənada dövlət deyildir" – Engelsin nəzəri cəhətdən ən mühüm fikri budur. Yuxarida deyilənlərdən sonra bu fikir tamamilə aydındır. Kommuna əhalinin çoxluğunu deyil azlığınıı (istismarçıları) əzməli olurdu və buna görə də dövlət halından çıxardı, kommuna burjua dövlət maşınını qırmışdı, əzmək üçün olan xüsusi qüvvə əvəzindəmeydana əhalinin özü çıxırdı. Bütün a əsl mənada dövlətdən kənara çıxmaq deməkdir. Əgər Kommuna möhkəmlənsəydi, ondakı dövlət izləriöz-özünə "ölüb gedərdi", dövlət təsisatlarını Kommunanın "ləğv etməsi" lazım gəlməzdi: onların görəcəyi bir iş qalmadıqda onlar da aradan qalxardı.

"Anarxistlər "xalq dövləti"ni gözümüzə soxurlar", Engels bunu dedikdə hər şeydən əvvəl, Bakunini və alman sosial-demokratlarınaonun hücumlarını nəzərdə tutur. "Xalq dövləti" də"azad xalq dövləti" kimi, mənasız bir şey və sosializmdən eyni dərəcədə kənara çıxmaq demək olduğuna görə Engels həmin hücumları da bu nöqteyi-nəzərdən düzgün hesab edir. Engels alman sosial demokratlarının

downloaded from KitabYurdu.org

anarxistlərə qarşı mübarizəsini islah etməyə, bu mübarizəni prinsip etibarı ilə doğru yola salmağa, onu “dövlət” haqqındaki opportunist mövhumatından təmizləməyə çalışır.Heyhat! Engelsin məktubu 36 il ört-basdır edilmiş halda qalmışdır. Aşağıda görəcəyik ki, bu məktub çap olunduqdan sonra da Kautski Engelsin göstərib çəkindirdiyi həmin səhvləri nadla təkrara edir.

Bebel 1875-ci il 21 sentyabr tarixli məktubla Engelsə cavab verərək, yeri gəlmişkən, Engelsin proqram lahiyəsi haqqında rəyinə “tamamilə şərik” olduğunu yazmış və demişdir ki, Libknexti güzəştə getdiyi üçün danlamışdır (Bebelin xatirələrinin almanca nəşri, səh.334, II c.). Lakin bebelin “Məqsədlərimiz” adlı kitabçasını götürsək, orada dövlət haqqıda əsla doğru olmayan mülahizələrə rast gəlirik:

“Dövlət, *sinfi hökmranlıq* üzərində qurulmuş dövlətdən *xalq dövlətinə* çevrilməlidir” (“Unsere Ziele”nin almanca nəşri, 1886, səh.14).

Bebelin kitabçasının 9-cu nəşrində belə deyilmişdir! Xüüsusən Engelsin inqilabi izahatının ört-basdır edildiyi, bütün həyat şəraiti isə inqilabı uzun müddətə “unutdurduğu” bir zamanda təəcüblü deyil ki, alman sosial-demokratiyası dövlət haqqında opportunist mülahizələrini bu qədər inadla təkrar etməyi mənimsəyirdi.

### 4. ERFURT PROQRAMI LAHİYƏSİNİN TƏNQİDİ

Marksizmin dövlət təlimi təhlil edilərkən, Erfurt proqramı lahiyəsinin64 tənqidindən, Engelsin 1891-ci il iyunu 29-da Kautskiyə göndərdiyi və ancaq on il sonra “Neue Zeit”də nəşr edilən bu tənqidindən ddanışmaq olmaz, çünki bu tənqid başlıca olaraq, dövlət quruluşu məsələlərində məhz sosial-demokratiyanın opportunist göörüşlərinin tənqidinə həsr edilmişdir.

Sözarası nqeyd edək ki, Engels habelə iqtisadiyyat məsələlərinə aid diqqətəlayiq qiymətli bir göstəriş də verir, bu göstərişdən məlum olur ki, Engels məhzən yeni kapitalizmin nə kimi şəkillərə girdiyni diqqətlə izləyi bunların üzərinə dərindən düşünmüşdür və buna görə də bizim dövrün, imperializm dövrünün vəzifələrini qabaqcadan müəyyən dərəcədə təyin edə bilmişdir. Həmin göstəriş budur: kapitalizmə xarakteristika vermək üçün proqramın lahiyəsində işlədilmiş “planauyğunluq olması” (Planlosigkeit) sözü haqqında Engels yazır:

“…Əgər biz səhmdar cəmiyyətlərindən, sənayenin bütöv sahələrini özünə tabe edən və inhisar altına alan trestlərə keçiriksə, burada yalnız xüsusi istehsal deyil, hətta planauyğunuq olmaması da aradan qalxır” (“Neue Zeit”, 20-ci il, 1-ci cild, 1901-1902, səh. 8).

Burada ən yeni kapitalizmə, yəni imperializmə verilən nəzəri qiymətin əsas cəhəti götürülmüşdür, məhz o cəhət ki, kapitalizm inhisarçı kapitalizmə çevrilir. Sonuncunu xüsusi qeyd etmək lazım gəlir, çünki ən çox yayılmış səhv belə bir burjua-reformist iddiasından ibarətdir ki, guya inhisarçı kapitalizm daha kapitalizm deyildi.

downloaded from KitabYurdu.org

Lakin dövlət məsələsinə qayıdaq. Engels burada üç cür xüsusilə qiymətli göstəriş verir: əvvələn, respublika məsələsinə dair, ikincisi, milli məsələnin dövlət quruluşu ilə əlaqəsinə dair, üşüncüsü, yerli özünüidarə məsələsinə dair.

Respublikaya gəldikdə Engels bunu Erfurt proqramı lahiyəsinin tənqidi üçün əsas götürmüşdür. Erfurt proqramının bütün beynalxalq sosial demokratiya içərisində nə kimi bir əhəmiyyət aldığını və bütün ikinci İnternasional üçün nə kimi bir nümunə olduğunu xatırlasaq, mübaliğəsiz demək olar ki, Engels burada bütün ikinci İnternasionalın opportunizmini tənqid edir.

Almaniyada respublika tələbini proqramda leqal şəkildə irəli sürmək mümkün olmadığını çox gözəl bilən Engels əlavə edərək deyir: “ Bu mövzuya toxunmaq qorxuludur”. Lakin Engels “hamını” qənaətləndirən bu çox aydın mülahizəyə heç də qeydsiz-şərtsiz şərik olmur. Engels sözünə davam edərək deyir: “Lakin buna baxmayaraq, işi hər halda irəlilətmək lazımdır. Sosial-demorat mətbuatının çox hissəsində məhz indi yayılmaqda olan (einreibende) opportuizm bunun nə dərəcədə lazım olduğunu göstərir. Sosialistlərə qarşı qanunun67 bərpa ediləcəyi qorxusundan və ya bubu qanun8un hökm sürdüyü dövrdə vaxtından əvvəl edilmiş bəzi bəyanatı xatırlayaraq, indi istəyirlər ki, partiya Almaniyada olan indiki qanun-qaydanı, özünün bütün tələblərinin dinc yolla həyata keçirilməsi üçün kifayət  hesab etsin…”.

Alman sosial-demokraylarının müstəsna qanunu bərpa edilə biləcəyi qorxusunu göz qabağına alara hərəkət etdiklərini, bu əsas faktı birinci sıraya qoyaraq Engels heç tərəddüd etmədən bunu opportunizm adlandırır, Almaniyada məhz respublika və azadlıq olmadığı üçün “dinc” yol haqqındakı xəyalların tamamilə mənasız bir şet olduğunu bidirir. Engels kifayyət qədər ehtiyatlı olub öz əl-qolunu bağlamır. O, Ş etiraf edir ki, respublikalı və ya çox böyük azadlığa malik olan ölkələrdə sosializmə doğru dinc inkişafı “təsəvvür etmək olar” (ancaq “təssəvür etmək”!), lakin Almaniyada, -deyə Engels təkrar edir.

“…Hökümətin, demək olar, tam hakim olduğu, reyxstaqın və bütün başqa nümayəndəli təsisatların isə həqiqi bir hakimiyyətə malik olmadığı Almaniyada belə bu şeyi irəli sürmək-mütləqiyyətin örtüyünü qaldırıb atmaq deməkdir və onun çılpaqlığını pərdələmək üçün pərdə yerini tutmaq deməkdir…”.

Bu göstərişləri “ört-basdır” etmiş olan sosial-demokrat partiyasının rəsmi başçılarının böyük əksəriyyəti mütləqiyyəti doğrudan da pərdələmiş oldular.

“…Belə bir siyasət nəticədə partiyanı ancaq yalnış yola sala bilər. Birinci sıraya ümumi, abstrakt siyasi məsələləri çəkirlər və beləliklə, iilk böyük hadisələr zamanı, ilk siyasi böhran zamanı öz-özünə ggünün vacib məsələlərini ort basdır edirlər. Bu isə yalnız belə bir nəticəyə səbəb olar ki, qəti anda partiya birdən aciz vəziyyətdə qalar,həlledici məsələlər heç bir zaman müzakirə edilməmiş olduğuna görə, partiyada bu məsələlər qaranlıq qalar və birlik olmaz… Günün keşici mənafeyi

downloaded from KitabYurdu.org

xatirinə böyük, əsas mülahizələri belə unutmaq, keçici müvvəfəqiyyətlər ardınca belə qaçmaq və sonrakı nətticələri hesaba almadan bu keçici müvvəfəqiyyətlər uğruna mübarizə etmək, hərəkatın gələcəyini indiyə qurban vermək, bəlkə də “səmimi” dəlillərdən irəli gəlir. Lakin bu, opportunizmdir və oppotunizm olaraq qalır, “səmimi” opportunizm isə demək olar ki. Bütün başqa opportunizmlərdən daha qorxuludur…

Ən şübhəsiz bir şey varsa, o da budur ki, partiyamız və fəhlə sinifi, ancaq demokratik respublika kimi siyasi bir forma şəraitində hakimmiyyət başına gələ bilər. Bu demokratik respublika, böyük Fransa inqilabının göstərmiş olduğu kimi göstərmiş olduğu kimi, proletariatın diktaturasının lap spesifik bir formasıdır…”.

Burada Engels Marksın bürün əsərlərində irəli sürülən əsas ideyanı xüsusilə qabarıq bir şəkildə təkrar edir, məhz o ideyanı ki, demokratik respublika proletariat diktaturasına ən yaxın yoldur. Çünki belə bir respublika kapitalın hökmdarlığını və deməli, kütlələrə zülm edilməsini və sinfi mübarizəni heç də aradan qaldırmayacaqdır, labüddən bu mübarizənin elə bir genişlənməsinə vüsətlənməsinə, yayılmasına və kəskinləşməsinə səbəb olur ki, məzlum kütlələrin əsas mənafeyini təmin etmək imkanı yarandıqda həmin imkan mütləq və ancaq proletariatın diktaturası ilə, proletariatın bu kütlələrə rəhbərlik etməsi ilə həyata keçirilir. Bütün ikinci İnternasional üçün bu da marksizmin “unudulmuş sözləridir” və bunların unudulduğunu 1917-ci ildə rus inqilabının birinci yarım ili ərzində menşeviklər partiyasının tarixini son dərəcə aydın sürətdə meydana çıxrtmışdır.

Əhalinin milli tərkibi ilə əlaqədar olaraq federativ respublika məsələsi haqqinda Engels yazmışdır:

“İndiki Almaniyanın” (onun irticaçı monarxist konstitusiyası və eyni dərəcədə irticaçı bir şəkildə xırda dövlətlərə bölgüsü, yəni “prussiyaçılğın” xüsusiyətlərini Almaniyada əridib yox etmək əvəzinə, bunları ədəbləşdirən bir bölgüsü) “yerini nə tutmalıdır?”. “Mənim fikrimcə, proletariat ancaq vahid və bölünməz respublika formasindan istifadə edə bilər. Federativ respublika Birləşmiş Ştatların şərqində artıq indi bir maneə olmağa başlayırsa da, Birləşmiş Ştatların geniş ərazisində ümumiyyətlə və bütünlüklə hələ indi də zəruridir. İki adada dörd millətin yaşadığı və bir biri ilə yanaşı üç qanunvericilik sisteminin mövcud olduğu İngiltərədə vahid parlament olduğuna baxmayaraq. Federativ respublika irəliyə doğru bir addım olardı. Federativ respublika kiçik bir ölkə olan İsveçrədə artıq çoxdan bəri maneəyə çevrilmişdir və orda federativ respublikaya yalnız ona görə hələ də dözmək olar ki, İsveçrə

Avropadakı dövlət sistemimi yalnız passiv bir üzvü rolunda qalmaqla kifayətlənir. Almaniyanın federalizm üsulu ilə isveçrə şəklinə salınması, onun üçün geriyə atılmış çox böyük bir addım olardı. Mütəffiq dövləti tam vahid dövlətdən fərqləndirən iki cəhət vardır: biri budur ki, xalq palatası il yanaşı dövlətlərin nümayəndələr palatası vardır və bu palatada hər bir kanton, böyük-kiçikliyindən aslı olmayaraq, bir kanton sifəti ilə səs verir.” Almaniyada mütəffiq dövlət tam vahid dövlətə keçiddir və

downloaded from KitabYurdu.org

1866-cı il ilə1870-ci ilin “yuxarıdan inqilabını” geriyə döndərmək deyil, “aşağıdan hərəkatla”tamamlamaq lazımdır”.

Engels dövlət formaları məsələsinə nəinki laqeydlik göstərmir, əksinə, hər bir keçid hadisəsinin konkret tarixi xüsusiyyətlərindən asılı olaraq müəyyən keçid formasının nədən nəyə keçid olduğunu nəzərə almaq üçün məhz keçid formalarının son dərəcə böyük bir diqqətlə təhlil etməyə çalışır.

Marks kimi Engelsdə proletariat və proletar inqilabi nöqteyi-nəzərindən demokratik mərkəziyyəti, vahid və bölünməz respublikanı müdafiə edir. Engels federativ respublikaya ya bir istisna və inkişaf üçün bir maneə kimi baxır, ya da monarxiyadan mərkəziyyətci respublikaya bir keçid kimi, müəyyən xüsusi şəraitdə “irəliyə addım” kimi baxır. Bu xüsusi şərait içərisində milli məsələdə irəli sürülür.

Xırda dövlətlər olmasının mürtəcəliyini və bu mürtəceliyin müəyyən konkret hallarda milli məsələ ört-basdır edildiyini Marks kimi Engelsin də amamsız tənqid etdiyinə baxmayaraq, nə Marksın nə də Engelsin əsərlərinin hem biri yerində milli məsələdən üz döndərmək meylinin heç əsər-əlamətidə yoxdur.

Belə ehtimal etmək olar ki,İngiltərədə həm coğrafi şərait, həm dil birliyi, həm də yüz illərlə tarixi İngiltərənini ayrı-ayrı xırda hissələrinin milli məsələsinə “nəhayət vermişdir”, lakin Engels hətta burada da milli məsəlnin hələ aradan xalxmamı. Olması kimi aydın bir faktı nəzərə alır və buna görə də fedrativ respublikanı “irəliyə doğru addım” sayır. Söz yox, buna federativ respublikanın nöqsanlarını tənqid etməkdən və vahid, mərkəziyyətci-demokratik respulika uğrunda qəti təbliğat və mübarizə aparmaqdan əl çəkməyin heç əsəri də yoxdu.

Lakin demokratik mərkəziyyəti Engels, heç də bu anlaışı burjua ideoloqlarının, o cümlədən anarxistlərin işlətdikləri bürokratik mənada başa düşmür. Engelsin dediyi mərkəziyyət”kommunalar” və vilayətlər tərəfindən dövlətin vahidliyinin könüllü sürətdə müdafiə edilməsi şərti ilə, hər cür bürokratizmi və yuxarıdan, hər cür “komandalıq edilməsini” ləğv edən geniş yerli özünü idarəni heç nə aradan qaldırmır.

Engels marksizmin dövlət haqqında proqram baxışlarını inkişaf etdirərək yazır:

“…Deməli, vahid respublika, lakin 1798-ci ildə təhsis edilmiş imperatorsuz imperiyaddan başqa bir şey olmayan indiki Fransa respublikasına bənzəməyən vahid respublika. 1792-ci ildən 1798-ci ilə qədər Fransanın hər bir departamenti, hər bir icması (Gemeinde) Amerikada olduğu kimi, tam bir özünüidarəyə malikidi,bizdə də belə olmalıdır. Özünüidarəni necə təşkil etmək lazım gəldiyini, və bürokratiyasız necə keçirmək mümkün olduğunu , Amerika və birinci Fransa respublikası bizə göstərmiş vəsübut etmişdir, indi isə kanada,Avstraliya və digər ingilis müstəmləkələri göstərməkdədir. Belə bir əyalət (vilayət) bə icma özünüidarəsi,- məsələn, İsveçrə federalizmindən qat-qat azad təsisatlardır; İsveçrədə kanton,doğrudur, bu da nisbətən” (yəni bütünlükdə federativ dövlətə nisbətən) “çox müstəqildir, lakin habelə qəzaya (besirge) nisbətən də, icmaya nisbətən də

downloaded from KitabYurdu.org

müsəqildir. Kanton hökümətləri qəza canişinlərini (ştathalterlərini) və prefektlərini təyin edirlər; ingilis dilində danişan ölkələrdə qətiyyən belə bir şey yoxdur və bunu, habelə Prussiya landratlarını və pegipusnhsratlarını" (komussarları, canişinləri, qubernatorları, ümumiyyətlə yuxarıdan təyin edilən məmurları)

"Biz də gələcəkdə öz ölkəmizdə eyni qətiyyətlə aradan qaldırmalıyiq". Buna müvafiq olaraq Engels proqramı özünüidarə haqqında bəndini aşağıdakı şəkildə verməyi təklif edir: "Ümumi seçki qanunu üzrə seçilmiş məmurlar vasitəsi ilə əyalətdə" (quberniyada və ya vilayətdə) , "qəzada və icmada tam özünüidarə olmalıdır" dövlət tərəfindən təyin edilən bütün yerli və əyalət höküməti nümayəndələri ləğv edilməlidir".

Kerenskinin və başqa "sosialist" nazirlərin höküməti tərəfindən bağlanılmış "Pravqa"da (N 68, 28 may 1917-ci il) göstərmişdim ki, bizim guya inqilabi olan uydurma demokratiyanın uydurma sosialist nümayəndələri bu bənddə,– əlbəttə, təkcə bu bənddə deyil, digər bəndlərdə də – *demokratizimlərdən* son dərəcə uzaqlaşmışlar*. Aydın məsələdir ki, özlərini koalisiya" vasitısi ilə imperialict burjualiziyaya bağlamış olan adamlar bu göstərişləri eşitmirdilər.

Bunu qeyd etmək son dərəcə mühümdür ki, Engels – xüsusilə xirda burjua demokratiyası arasında – çox geniş yayılmış bir mövhumatı ən dürüst bir misal əsasında faktlarla təksib edir, bu mövhumat ondan ibarətdir ki, guya federativ respublika mərkəziyyətcə respublikadan hökmən daha artıq azadlıq deməkdir.Bu, düz deyildir. Engelsin, 1792–1798-ci illərdəki mərkəziyyətci Fransa respublikası və federalist İsveçrə respublikası haqqında gətirdiyi faktlar bunu təkzib edir. Həqiqətdə demokratik mərkəziyyətci respublika federalist respublikadan *daha artiq* azadlıq verirdi. Başqa sözlə desək: tarixdə məlum olan ən çox yerli azadlığı, vilayət və sairə azadlığını federativ respublika deyil,*mərkəziyyətci respublika* vermişdir.

Buna fakta, habelə ümumiyyətlə bütün federativ və mərkəziyyətci respublika məsələsinə və yerli özünüidarə məsələsinə bizim partiya təbliğatımızda və təşviqatımızda kifayət qədər diqqət verilməmiş və verilmir.

### 5. MARKSIN "VƏTƏNDAŞ MÜHARİBƏSİ" ƏSƏRİNƏ 1891-Cİ İLDƏ YAZILMIŞ MÜQƏDDİMƏ

Engels "Fransada vətəndaş müharibəsi"nin 3-cü nəşrinə yazdığı müqəddimədə, – bu müqəddimənin tarixi 1891-ci il 18 mart göstərilmiş və ilk dəfə "Neue Zeit" jurnalında çap edilmişdir,- dövlətə münasibətlə əlaqədar məsələlərə dair maraqlı ötəri qeydlərlə bərabər, Kommunadan alınan dərslərin olduqca gözəl və aydın yekununu verir. Kommuna ilə müəllifin bu müqəddiməni yazması arasında keçən iyirmiillik dövrün bütün təcrübəsi nəticəsində daha artıq əsaslandırılmış olan və xüsusən Almaniyada çox yayılmış "dövlətə mövhumi etiqad" əleyhinə çevrilmiş olan bu yekun, tədqiq etdiyimiz məsələdə haqlı olaraq, marksizmin *son nailiyyəti* adlandırıla bilər.

downloaded from KitabYurdu.org

Fransada fəhlələr- deyə Engels qeyd edir,- hər inqilabdan sonra silahlanmış olurdular, “buna görə dövlət başında duran burjuaların birinci məqsədi, fəhlələri tərk-silah etmək idi. Buna görə də fəhlələrin əldə etdikləri hər bir inqilabdan sonra yeni mübarizə baş verir və bu mübarizə fəhlələrin məğlubiyyəti ilə qurtarır…”

Burjua inqilabları təcrübəsinin yekunu mənalı olduğu qədər də qısadır. İşin mahiyyəti- o cümlədən dövlət məsələsində də (***məzlum sinfin silahı vardırmı?***) işin mahiyyəti – burada gözəl dərk edilmişdir. İstər burjua ideologiyasının təsiri altında olan professorlar, istərsə də xırda burjua demokratları çox zaman işin məhz bu mahiyyətindən yan keçirlər. 1917-ci ildəki rus inqilabında “qondarma marksist”, “menşevik” Sereteliyə burjua inqilablarının bu sirrini dilindən qaçırtmaq şərəfi (Kavenyak şərəfi) nəsib oldu.Sereteli iyunun 11-də söylədiyi “tarixi” nitqində Piter fəhlələrini tərk-silah etmək haqqında burjuaziyanın qərarını ağzından qaçırmışdı və həmin qərarı, əlbəttə, həm öz qərarı, həm də ümumiyyətlə “dövləti” bir zərurət kimi qələmə verirdi!
Seretelinin iyunun 11-dəki tarixi nitqi, əlbəttə, 1917-ci il inqilabının hər bir tarixçisi üçün, eserlərlə menşeviklərin cənab Sereteli tərəfindən başçılıq edilən blokunun inqilabçı proletariata *qarşı* burjuaziya tərəfinə keçdiyini göstərən ən aydın nümunələrdən biri olacaqdır. Ehgelsin, yenə dövlət məsələsi ilə əlaqədar olan başqa ötəri bir qeydi dinə aiddir. Məlumdur ki, alman sosial-demokratiyası getdikcə çürüyərək daha artıq opportunistləşdikcə, məşhur: “dinin xüsusi bir iş elan edilməsi” formulunu filistercəsinə yalnış yozmağa doğru getdikcə daha tez-tez yuvarlanırdı. Yəni, bu formul belə yozulurdu ki, guya din məsələsi inqilabçı proletariatın *partiyası üçün* də ona dəxli olmayan xüsusi bir iş imiş!! 1891-ci ildə öz partiyasında opportunizmin hələ *ən zəyif* rüşeymlərini müşahidə edən və buna görə də çox ehtiyatla danışan Engels proletariatın inqilabi proqramına edilən həmin tam xəyanətə qarşı qəti çıxış etdi:
“Kommunada, demək olar, ancaq fəhlələr və ya fəhlələrin tanınmış nümayəndələri iclas etdiklərinə görə, oun qərarları da qəti surətdə proletar mahiyyətində idi. Ya bu qərarlar, fəhlə sinfinin azad fəaliyyəti üçün zəruri bir bünövrə təşkil edən islahatlar həyata keçirilməsi haqqında dekretlər verirdi və respublikaçı burjuaziya bunlardan ancaq öz alçaq qorxaqlığı nəticəsində imtina etmişdi. Məsələn,dinin *dövlətə dəxli olmayan* xüsusi bir iş olduğu prinsipinin həyata keçirilməsi bu cümlədəndir. Ya da Kommuna, doğrudan-doğruya fəhlə sinfinin xeyrinə olan və köhnə içtimai qruluşun qismən dərindən dəyişdirən qərarlar verirdi…”

Engels məhz alman opportunizminə sərrast zərbə vurmaq istəyərək, “dövlət dəxli olmayan” sözlərini qəsdən ayrıca qeyd edir,çünki alman opportunizmi dini, *partiyaya dəxli olmayan* xüsusi bir iş elan etmiş və beləliklə, inqilabçı proletariyatin partiyasını “azadfikirli” ən bayağı meşşanlıq dərəcəsinə endirmişdir ,bu meşşanlıq isə dinsizlik vəziyyətini qəbul etməyə hazırdır, lakin xalqın ağlını başından çıxaran din zəhərinə qarşı *partitanın* mebarizə aparmaq vəzifəsini rədd edir.

downloaded from KitabYurdu.org

Alman sosial-demokratiyasının gələcək tarixşisi,onun 1914-cü ildə rüsvayşılıqla iflas etməsini köklərini araşdırırkən, partiyanın ideya rəhbəri Kastskinin məqalələrində ilan və qapıları opportunizmin üzünə taybatay açan sazişçi bəyanatlardan tutmuş 1913-cü ildə " los-von-Kriche-Bewegung "(kulsədən ayrılmaq hərəkatınına) partiyanın münasibətinə qədər bu məsələ haqqında bir çox maraqlı material tapacaqdır.

Lakin biz Komumanin mübarizə edən proletariata vermiş olduğu dərslərə Kommunadan iyirmi il sonra Engelsin necə yekun vurduğu məsələsinə keçək.

Engels məhs aşağıdakı dərsləri ön siraya çəkirdi:

"…Əvvəlki mərkəzləşdirilmiş hökümətin zülmkar hakimiyyəti,ordu,siyasi polis, burokratiya, 1798-ci ildə Napoleon tərəfindən yaradılmış olan və o vaxtdan bəri hər bir yeni hökümətin yararlı bir alət kimi qəbul edib öz düşmənlərinə qarşı istifadə etdiyi hakimiyyət– məhs bu hakimiyyət, Parisdı yıxıldığı kimi, Fransanın hər yerində yıxılmalı idiş

Kommuna lap əvvəldən etiraf etməli idi ki,fəhə sinfi hakimiyyət başına gəldikdə köhnə dövlət maşını ilə daha hökmranlıq edə bilməz;fəhlə sinfi yenicə əldə etdiyi hökmranlığını yenidən itirməmək uçun , bir tərəfdən,bu vaxta qədər ona qarşı tətbiq edilmiş olan bütün köhnə zülm maşınını aradan qaldırmalı, o biri tərəfdən isə heç bir istisnaya yol vermədən bütün öz deputatlarının və məmurlarının hər zaman dəyişdirilə biləcəyini elan etməklə özünü onlara qarşı təmin etməlidir…"

Engels dönə-dönə qeyd edir ki.dövlət yalnız mənərxiyada deyil, habelə *deməkratik respublikada da* dövlətliyində qalır, yəni özünün əsas xüsusiyyətlərini saxlayır ki, bu da vəzifə sahiblərini, "cəmiyyətin xidmətçilərini", onun orqanlarını həmin cəmiyyətin *ağalarına*çevirməkdən ibarətdir.

"…İndiyə qədər mövcud olmuş bütün dövlətlətdə bu labüd hala qarşı– dövlətin və dövlət orqanlarının cəmiyyət xidmətçilərindən cəmiyyətin ağalarına çevrilməsinə qarşı Kommuna iki düzgün vasitə tətbiq etdi. Əvvələn, o, idarəetmə, məhkəmə, xalq bmaarifi sahəsində bütün vəzifələrə ümümi seşki hüququ qaydası ilə seçilmiş şəxsləri təyin edirdi, hm də seçilən bu şəxslərin öz seçicilərinin qərarı ilə istənilən vaxt geri çağırılması hüququnu tətbiq etdi.

İkincisi isə, Kommuna bütüb həm yüksək, həm də aşağı vəzifəli şəxslərə, ancaq başqa fəhlələrin aldığı qədər maaş verirdi. Kommunanın ümumiyyətlə verdiyi ən yüksək maaş 6000 frank idi*. Beləliklə, vəzifə ardinca qaçmaq və mənsəpərəstlik əleyhinə etibarlı bir maneə yaradılmışdı, hətta buna üstəlik, Kommuna tərəfindən nümayəndəli idarələrin deputatları üşün tətbiq edilmiş imperativ mandatlarından da asılı olmayaraq, belə bir maneə yaradılmışdır…"

Engels burada belə bir maraqlı nöqtəyə gəlib çıxır ki, burada ardıcıl demokratiya, bir tərəfdən, sosializmə *çevrilir*, o biri tərəfdən isə sosializm olmasını *tələb edir*. Çünki dövləti məhv etmək,üçün, dövlət xidməti vəzifələrini əhalinin böyük çəxluğunun, sonra isə başdan-başa bütün əhalinin bacara biləcəyi, gücü şata biləcəyi sadə nəzarət və uşət əməliyyatına şevirmək lazımdır.Mənsəbpərəstliyin

downloaded from KitabYurdu.org

tamamilə aradan qaldirılması isə tələb edir ki, dövlət xidmətində, gəlirsiz də olsa, "fəxri" vəzifə, bütün ən azad kapitalist ölkələrində daim oldğu kimi, banklarda və səhmdar cəmiyyətlərində yüsək gəlirli vəzifələrə sıçramaq üşün bir körpücük xidmətini görə *b i l m ə s i n.*

Lakin Engels millətlətin öz müqəddəratını təyin etmək hüqüqu məsələsində, məsələn, bəzi marksistlərin etdikləri səhvi etmir və demir ki,guyan bu hüququ kapitalizm zamanında mümkün deyildir, səsializm zamanında isə lüzumsuzdur. Belə bir , zahirdə tutarlı, həqiqətdə isə yalnış mülahizəni *hət bir* deməkratik təsisat haqqında və o cumlədən məmurların cuzimaaşı haqqında və demək olardı, çünki kapitalizm zamanında axlra qədər ardıcıl demokratizm mümkün deyildir, sosializm zamanında isə hər cur demokratiya *ölüb gedecəkdir*.

Bu,–adamın başından bir tük əksik olarsa,başı daz olarmı– kimi köhnə zarafata bənzəyən bir sofizimdir.

Demokratiyanın *axıra qədər* inkişafı, belə inkişaf *formalarının* axtarılıb tapılması, bunların*təcrübədə* sınanılması və i.a. – Bütün bunlar sosial inqilab uğrunda mübarizənin əsas vəzifələrindən biridir. Təklikdə götürülən heç bir demokratizim sosializmlə nəticələnməz, lakin həyatda demokratizm heçvaxt "təklikdə götürülməyəcəkdir", "birlikdə götürüləcəkdir", iqtisadiyyatda da öz təsirini göstərərcək, *onun* dəyişməsinə təkan verəcək, iqtisadi inkişafdan təsir görəcək və i. a. Canlı tarixin dialektikası belədir.

Engels sözünə davam ederək deyir:

"…Köhnə dövlət hakimiyyətinin belə partladılması (Sprengung) və onun yeni, həqiqətən demokratik hakimiyyətlə əvəz edilməsi "vətəndaş müharibəsi"nin üşüncu bölməsində ətraflı təsvir edilmişdir. Lakin bu əvəzedilmənin bəzi xüsusiyyətlərindən burada bir daha müxtəsər danışmaq lazım idi, çünki məhz Almaniyada dövlətə olan mövhumi etiqad fəlsəfədən burjuaziyanın və hətta bir çəx fəhlənin ümumi şuuruna keçmişdir. Filosofların təliminə görə, dövlət "ideyanın həyata keçirilməsidir" və ya, fəlsəfə dili ilə desək,yer üzündə ilahi səltənətdir, dövlət elə bir sahədir ki, əbədi həqiqət və ədalət orada həyata keçirilir və ya keçirilməlidir. Buradan da dövlət və dövlətlə əlaqədar olan hər bir şeyə göstərilən mövhumi hörmət irəli gəlir,– bu mövhumi hörmət ona görə asanlıqla kök salır ki, adamlar uşaqlıqdan belə düşünməyə alışırlar : guya bütün cəmiyyətə aid ümumi işlər və onun gəlirli yerlərlə təltif edilmiş məmurlarının vasitəsi ilə yerinə yetirilib mühafizə edilə bilər. Adamlar belə xəyal edirlər ki, irsi monarxiyaya inanmaqdan əl çəkib demokratik respublikaya tərəfdar olurlarsa, irəliyə doğru son derəcə cəsarətli bir addım atmış olurlar. Həqiqətdə isə dövlət, monarxiyada olduğu kimi, eyni dərəcədə demokratik respublikada da bir sinfin başqa bir sinfi əzmək maşınıdır. Ən yaxşı halda dövlət sinfi höhmranlıq uğrunda mübarizədə qalıb gəlmiş proletariata irs olaraq keşən bir bəladır ; Komuna kimi, qalib gəlmiş proletariat da bu bəlanın ən pis tərəflərini

downloaded from KitabYurdu.org

dərhal aradan qaldırmalı olacaqdir ki, nəhayət, yeni, azad içtimai şəraitdə yetişmış nəsil bütün bu dövlət zir-zibilini süpürüb ata bilsin".

Engels almanlara xəbərdarlıq edirdim ki, onlar monarxıyanın respublikailə əvəz edilməsi ilə əlaqədar olaraq, ümumiyyətlə dövlət məsələlərində sosializmin əsaslarını unutmasınlar. Onunetdiyi xəbərdarlıq indi, özlərinin "kaolisiya" praktikasında dövlət mövhumu etiqad və mövhumi hörmət bəsləyən cənab Seretelilərə və Çernovlara açıq bir ibrət dərsidir!

Daha iki qeyd: 1) Əgər Engels: dövlət monarxiyada olduğu kimi, "eyni dərəcədə" demokratik respublikada da"bir sinfin başqa bir sinfə zülm etmək maşını" olaraq qalır,– deyirsə , bu bəzi anarxistlərin "öyrətdiyi" kimi, heç də o demək deyildir ki, zülm *formasının*proletariat üçün fərqi yoxdur. Daha geniş, daha azad, daha açıq sinfi mübarizə və sinfi mübarizə və sinfi zülm *forması* ümumiyyətlə sinifləri məhv etmək uğrunda mübarizədə proletariatın işini son dərəcə asanlaşdırır.

2) Nə üçün bütün bu dövlət zir-zibilini ancaq yeni nəsil tamamilə çıxarıb ata biləcəkdir – bu məsələ deməkratiyanı aradan qaldırmaq məsələsi ilə bağlıdır və biz də indi bu məsələyə keçirik.

## 6. ENGELS DEMOKRATİYANI ARADAN QALDIRMAQ HAQQINDA

Engels bu xüsusdakı fikrini "sosial-demokrat" adının *elmi* cəhətdən düzgün olmadığı məsələsi ilə əlaqədar söyləməli olmuşdur.

Engels 1870-ci illərdə yazılmış və başlıca olaraq "beynəlmiləl" məzmunda ("Unternationales aus dem "Volksstaat" "*), –müxtılif mövzulara dair məqalələrinin nəşrinə 1894-cü il 3 yanvar tarixi göstərilmiş müqəddimədə, yəni vəfatından il yarım qabaq yazdığı müqəddimədə göstəriridi ki, bütün məqalələrdə "sosial- demokrat" sözü deyil "kommunist" sözü işlədilir, çünki o zaman Fransada– prudonistlər, Almaniyada– lassalçılar özlərini sosial-demokrat adlandırırdılar.

Engels sözünə davam edib deyir:

"…Buna görə də ayrıca olaraq bizim nöqteyi-nəzərimizi göstərmək üçün Marks və mən belə bir yayğın ifadədən qətiyyən istifadə edə bilməzdik. Hazırda iş başqa cürdür və bu söz ("sosial-demokrat" sözü) bəlkə də, yarayır (mag passieren), doğrudur, iqtisadi proqramı ümumiyyətlə sadəcə sosialist proqramı olmayıb bilavasitə kommunist proqramı olan bir partiya üçün,–son siyasi məqsədə bütün dövləti və deməli, habelə deməkratiyanı da aradan qaldırmaqdan ibarət olan bir partiya üçün,– bu söz tamamilə dürüst olmur (unpassend,qeyri-münasib). Lakin *həqiqi* (kursivEngelsindir) siyasi partiyaların adları özlərinə heç bir vaxt tamamilə uyğun olmur; partiya inkişaf edir, adı isə qalır"

Dialektik Engels ömrünün son günərində də dialektikaya sadiq qalır. O deyir ki, Marksla biz partiyaya gözəl, elmi cəhətdən dürüst ad vermişdik, lakin həqiqi , yəni kütləvi proletar partiyası yox idi. İndi (XIX əsrin axırları) həqiqi partiya var, lakin onun adı elmi cəhətdən düzgün deyildir.

downloaded from KitabYurdu.org

Eybi yoxdur, “yarayar”, təki partiya *inkişaf etsin*, təki onun adının elmi cəhətdən dürüst olmaması ondan gizlədiləmsin və onun doğru istiqamətdə inkişaf etməsinə mane olmasın!

Ehtimal ki, zarafatçının birisi biz bolşeviklərə də Engels sayağı təsəlli verib deyərdi: bizim həqiqi partiyamız vardır, bu patiya əla inkişaf edir; 1903-cü ildə Brussel-London qurultayında çoxluq təşkil etməyimiz kimi tamamilə təsadüfi bir cəhətdən başqa qətiyyən heç bir şeyi ifadə etməyən “bolşevik” sözü kimi mənasiz, eybəcər bir söz də “yarayar” … Ola bilsin ki, partiyamızın iyulda və avqustda respublikaçılar və “inqilabçı” meşşan dempkratiyası tərəfindən təqib edilməsi “bolşevik” sözünə bütün xalqın nəzərinədə bu qədər şərəf qazandirdiqdan sonra, bundan başqa, həmin təqiblər partiyamızın *həqiqi*inkişafında onun irəli atdığı bu qədər böyük, tarixi addımı göstərdikdən sonra, ola bilsin ki, indi mən də partiyamızın adını dəyişdirmək haqqındakı aprel təklifimdə tərəddüd edərdim*. Ola bilsin ki, mən öz yoldaşlarıma bir “kompromis” təklif edərdim: partiyanı kommunist partiyası adlandırmaq, mötərizə içərisində isə bolşeviklər sözünü saxlamaq…

Lakin partiyanın adı məsələsi inqilabçı proletariatın dövlətə münasibəti məsəsləsindən çox az əhəmiyyəti olan bir məsələdir.

Həmişə dövlət haqqında adimülahizələrdə Engelsin burada çəkindirdiyi və bizim yuxarıdan ötəri qeyd etdiyimiz səhv buraxılır. Məhs: həmişə unudurlar ki, dövlətin məhv edilməsi demokratiyanın da məhv edilməsidir, dövlətin ölüb getməsi demokratiyanın da ölüb getməsidir.

Ilk baxışdan belə bir iddia son dərəcə qəribə və anlaşılmaz görünür; olsun ki, bəziləri hətta belə bir qorxuya düşə bilərlər: Bəlkə, biz elə bir içtimai qruluşun yaranacağını gözləyirik ki, orada azlığın çoxluğa tabe olması prinsipinə riayət edilməyəcəkdir, axı demokratiya məhz belə prinsipi qəbul etmək deməkdir?

Yox. Demokratiya azlığın çoxluğa tabe olmasının eyni *d e y i l d i r.* Demokratiya azlığın çoxluğa tabe olmasını qəbul edən *dövlətdir,* yəni bir sinfin başqa sinfə, əhalinin bir hissəsinin o biri hissəsinə müntəzəm sürətdə *zorakılıq* göstərməsi təşkilatıdır.

Bizim son məqsədimiz dövləti, yəni hər cür mütəşəkkil və müntəzəm zorakılığı, ümumiyyətlə insanlara qarşı hər cür zorakılığı yox etməkdir. Biz elə bir içtimai quruluşun gəlməsini gözləmirik ki, orada azlığın çoxluğa tabe olması prinsipinə riayət edilməsin. Lakin bir sosializmə doğru getməyə çalışırkən , əminik ki, sosializm böyüyüb kommunizmə keçəcəkdir, bununla da əlaqədar olaraq, insanlara qarşı ümumiyyətlə zorakılıq lüzumu, bir insanın başqasına, əhalinin bir hissəsinin başqa hissəsinə *tabe olması* lüzumu yox olacaqdir, çünki insanlar, içtimai yaşayışın adi şərtlərinə *zorakılıq olmadan və tabeçilik olmadan* riayət etməyə *alışacaqlar.*

Məhz bu vərdiş ünsürünü qeyd etmək üçün Engels “yeni, azad içtimai şəraitdə yetişmiş və bütün bu dövlət zir-zibilini”— hər cür dövlət, o cümlədən demokratik respublikaçı dövlət zir-zibilini də,— “tamamilə çıxarıb ata biləcək” yeni *nəsildən* danışır.

downloaded from KitabYurdu.org

Bunu izah etmək üçün dövlətin ölüb getməsinin iqtisadi əsasları məsələsini araşdırmaq lazım gəlir.

## V FƏSİL

## DÖVLƏTİN ÖLÜB GETMƏSİNİN İQTİSADİ ƏSASLARI

Marks bu məsələni «Qota proqramının tənqidi»ndə (1875-ci il mayın 5-də Brakkeyə yazılmış, ancaq 1891-ci ildə «Ieie 2ei»də, IX, 1də çap olunmuş və rusca ayrıca nəşr edilmiş olan məktubu) ən ətraflı surətdə izah etmişdir. Bu gözəl əsərin, lassalçılığı tənqid edən mübahisə hissəsi onun, necə deyərlər, müsbət hissəsini, yəni: kommunizmin inkişafı ilə dövlətin ölüb getməsi arasındakı əlaqənin təhlilini kölgədə buraxmışdır.

### 1. MƏSƏLƏNİN MARKS TƏRƏFİNDƏN QOYULUŞU

Marksın Brakkeyə yazdığı 1875-ci il 5 may tarixli məktubunu, Engelsin Bebelə yazdığı və yuxarıda nəzərdən keçirdiyimiz 1875-ci il 28 mart tarixli məktubu ilə səthi tutuşdurduqda, belə görünə bilər ki, Marks Engelsdən daha çox «dövlət tərəfdarıdır» və bu iki müəllifin dövlətə baxışları arasındakı fərq çox böyükdür.

Engels Bebelə dövlət haqqındakı boşboğazlıqdan tamamilə əl çəkməyi, dövlət sözünü proqramdan tamamilə çıxararaq, onu «icma» sözü ilə əvəz etməyi təklif edir; Engels hətta deyir ki, Kommuna əsl mənada daha dövlət deyildi. Halbuki Marks hətta «gələcəkdə kommunizm cəmiyyəti dövlətindən» danışır, yəni hətta kommunizmdə də dövlətin zəruri olduğunu sanki təsdiq edir.

Lakin belə bir baxış kökündən yalnış olardı. Məsələnin daha yaxından tədqiqi göstərir ki, Marksın və Engelsin dövlətə və onun ölüb getməsinə baxışları bir-birinə tamamilə uyğundur. Marksın göstərilən ifadəsi isə məhz həmin *ölüb gedən* dövlətə aiddir.

Aydındır ki, dövlətin *gələcək* «ölüb getmə» vaxtını təyin etmək haqqında heç danışıq da ola bilməz, xüsusilə ona görə ki, bu açıqdan-açığa uzun sürən bir prosesdir. Marksla Engels arasındakı zahiri fərqin səbəbi, onların götürmüş olduqları mövzuların, öz qarşılarına qoyduqları vəzifələrin müxtəlif olmasıdır. Engelsin qarşıya qoyduğu vəzifə, dövlət haqqında yayılmış olan (və Lassalın xeyli dərəcədə şərik olduğu) mövhumatın bütün mənasızlığını Bebelə aydın, kəskin və qabarıq şəkildə göstərmək idi. Marks isə *bu*məsələyə ancaq ötəri toxunaraq, başqa bir mövzu ilə: kommunizm cəmiyyətinin *inkişafı ilə*maraqlanır.

Marksın bütün nəzəriyyəsi, inkişaf nəzəriyyəsini – ən ardıcıl, tam, düşünülmüş və məzmunca zəngin bir şəkildə – müasir kapitalizmə tətbiq etməkdir. Təbiidir ki, Marksın qarşısında, bu nəzəriyyəni həm kapitalizmin *qarşıdakı* iflasına, həm də *gələcək*kommunizmin *Gələcək* inkişafına tətbiq etmək məsələsi durmuşdu.

downloaded from KitabYurdu.org

Gələcək kommunizmin gələcək inkişafı məsələsini nəyə *əsasən* irəli sürmək olar?

Ona əsasən irəli sürmək olar ki, kommunizm kapitalizmdən *əmələ gəlir,* tarixən kapitalizmdən inkişaf edir, kapitalizmin *doğurmuş* olduğu bir ictimai qüvvənin təsiri nəticəsidir. Marksda utopiya ilə məşğul olmaq, təyin edilə bilməyəcək bir şey haqqında boş ehtimallarla məşğul olmaq təşəbbüslərindən heç iz də yoxdur. Məsələn, necə əmələ gəldiyini və öz şəklini hansı yollarla dəyişməkdə olduğunu bildiyimiz yeni bir bioloji növün inkişafı məsələsini bir təbiətşünas nə şəkildə qoyardısa, Marks da kommunizm məsələsini eyni şəkildə qoyur.

Marks hər şeydən əvvəl, dövlətlə cəmiyyət arasındakı qarşılıqlı münasibət məsələsində Qota proqramının törətdiyi qarışıqlığı silib atır.

«…Müasir cəmiyyət», – deyə Marks yazır,– «bütün mədəni ölkələrdə olan və orta əsrlər aşqarından az-çox azad olan, hər ölkənin tarixi inkişafı xüsusiyyətlərinin təsiri altında şəklini az-çox dəyişmiş olan, az-çox inkişaf etmiş olan kapitalizm cəmiyyətidir. Əksinə, hər bir dövlət sərhəddi çərçivəsində «müasir dövlət» də dəyişir. Prussiya – Almaniya imperiyasında dövlət bir cür, İsveçrədə isə, tamamilə başqa cürdür, İngiltərədə bir cür, Birləşmiş Ştatlarda isə tamamilə başqa cürdür. Deməli, «müasir dövlət» bir fiksiyadır.

Lakin bunların formalarının olduqca müxtəlifliyinə baxmayaraq, müxtəlif mədəni ölkələrin müxtəlif dövlətləri arasında belə bir ümumi cəhət vardır ki, onlar az-çox kapitalistcəsinə inkişaf etmiş müasir burjuaziya cəmiyyəti zəminində dururlar. Buna görə onların bəzi mühüm ümumi əlamətləri vardır. Bu mənada, dövlətin indiki kökü olan burjua cəmiyyətin ölüb gedəcəyi gələcək dövrün əksinə olaraq, «müasir dövlətçilikdən» danışmaq olar.

Sonra məsələ belə qoyulur: kommunizm cəmiyyətində dövlət nə kimi dəyişikliyə uğrayacaqdır? Başqa sözlə: indiki dövlət vəzifələrinə bənzəyən vəzifələrdən o zaman nə kimi ictimai vəzifələr qalacaqdır? Bu suala ancaq elmi surətdə cavab vermək olar; həm də «xalq» sözünü dövlət sözünə neçə min dəfə qoşsalar da, bundan məsələnin həlli zərrə qədər də irəliləməz…»

«Xalq dövləti» haqqındakı bütün danışıqlara belə istehza etdikdən sonra, Marks məsələni necə qoymaq lazım gəldiyini göstərir və sanki xəbərdarlıq edir ki, buna elmi surətdə cavab vermək üçün ancaq qəti şəkildə müəyyən edilmiş elmi məlumata əsaslanmaq olar.

Bütün inkişaf nəzəriyyəsinin, ümumən bütün elmin tamamilə dürüst müəyyən etdiyi – və utopistlərin unutduğu, sosialist inqilabından qorxan indiki opportunistlərin unutmaqda olduqları, – birinci şey odur ki, kapitalizmdən kommunizmə *keçid üçün,* tarixən, şübhəsiz xüsusi bir mərhələ və ya xüsusi bir dövr olmalıdır.

## 2. KAPİTALİZMDƏN KOMMUNİZMƏ KEÇİD

Marks sözünə davam edərək deyir:

downloaded from KitabYurdu.org

«…Kapitalizm cəmiyyəti ilə kommunizm cəmiyyəti arasında birincinin inqilabi surətdə ikinciyə çevrilməsi dövrü vardır. Bu dövrün özünə uyğun siyasi keçid dövrü də vardır və bu dövrün dövləti *proletariatın inqilabi diktaturasından* başqa bir şey ola bilməz…», , ,

Marksın çıxardığı bu nəticə, müasir kapitalizm cəmiyyətində proletariatın oynadığı rolun təhlilinə, bu cəmiyyətin inkişafı haqqındakı *və* proletariatla burjuaziyanın birbirinə əks mənafeyinin barışmazlığı haqqındakı əsaslara arxalanır.

Keçmişdə məsələ belə qoyulurdu: proletariat azadlığa nail olmaq üçün burjuaziyanı yıxmalı, siyasi hakimiyyət əldə etmədi, öz inqilabi diktaturasını qurmalıdır.

İndi məsələ bir qədər başqa cür qoyulur: kommunizmə doğru inkişaf etməkdə olan kapitalizm cəmiyyətindən kommunizm cəmiyyətinə keçid, «siyasi keçid dövrü» olmadan mümkün deyildir və bu dövrün dövləti, ancaq proletariatın inqilabi diktaturasından ibarət ola bilər.

Bəs bu diktaturanın demokratiyaya münasibəti necədir?

Biz gördük ki, «Kommunist Manifesti» iki anlayışı: «proletariatın hakim sinfə çevrilməsi» və «demokratiya əldə edilməsi» anlayışlarını açıqca yan-yana qoyur. Kapitalizmdən kommunizmə keçildiyi zaman demokratiyanın necə dəyişdiyini, yuxarıda deyilənlərə əsasən tamamilə dürüst müəyyən etmək olar.

Kapitalizm cəmiyyətində, bunun ən əlverişli surətdə inkişaf etmiş olması şərti ilə, demokratik respublikada az və ya çox dərəcədə mükəmməl demokratizm olur. Lakin bu demokratizm həmişə kapitalist istismarının dar çərçivələri içərisinə alınıb məhdud edilmişdir və buna görə də əslində, həmişə azlıq üçün, ancaq varlı siniflər üçün, ancaq zənginlər üçün bir demokratizm olaraq qalır. Kapitalizm cəmiyyətində azadlıq həmişə, təxminən qədim yunan respublikalarında olan azadlıq şəklində qalır, yəni quldarlara məxsus bir azadlıq olaraq qalır. Kapitalist istismarının yaratdığı şərait nəticəsində ehtiyac və yoxsulluq hazırkı muzdlu qulları o qədər əzmişdir ki, onların «demokratiya yadına düşmür», «siyasət yadına düşmür», hadisələrin adi, dinc gedişi şəraitində əhalinin əksəriyyəti ictimai-siyasi həyatda iştirak etməkdən kənar edilmişdir.

Bu iddianın doğruluğunu, Almaniya bəlkə də məhz ona körə daha aydın təsdiq edir ki, bu dövlətdə konstitusiyanın yol verdiyi leqallıq təxminən yarım əsrə qədər (1871–1914) çox uzun müddət və möhkəm davam etmişdir, sosial demokratiya isə «leqallıqdan istifadə» etmək üçün və fəhlələrin, heç bir başqa ölkədə olmadığı qədər, çox böyük bir hissəsini siyasi partiyada təşkil etmək üçün bu müddət ərzində başqa ölkələrdə görüləndən daha çox iş görə bilmişdir.

Bəs, siyasi cəhətdən şüurlu və fəal muzdlu qulların kapitalizm cəmiyyətində müşahidə edilən həmin çox böyük hissəsi nə qədərdir? 15 milyon muzdlu fəhlədən – bir milyonu sosial demokratlar partiyasının üzvüdür! 15 milyondan üç milyonu həmkarlar ittifaqlarında təşkil olunmuşdur!

downloaded from KitabYurdu.org

Cüzi bir azlıq üçün demokratiya, zənginlər üçün demokratiya, – kapitalizm cəmiyyətinin demokratizmi belədir! Kapitalizm demokratiyasının mexanizminə yaxından diqqət yetirərsək, hər yerdə və hər tərəfdə, həm seçki hüququnun «xırda», guya xırda cəhətlərində (oturaqlıq senzi, qadınların seçki hüququndan məhrum edilməsi və i. a.), həm nümayəndəli təsisatların quruluşu texnikasında, həm yığıncaqlar hüququna qarşı həqiqətdə olan əngəllərdə (ictimai binalar «dilənçilər» üçün deyildir!), həm gündəlik mətbuatın xalis kapitalistcəsinə təşkil edilməsində və sairə və sairədə biz demokratizmin məhdud edilməsindən başqa bir şey görmərik. Yoxsullara qarşı olan bu məhdudiyyətlər, istisnalar, şərtlər və əngəllər xüsusən, heç vaxt ehtiyac nə olduğunu bilməmiş və məzlum siniflərin kütləvi həyatını yaxından körməmiş olanların (burjua publisistlərinin və siyasətçilərinin onda doqquzu, bəlkə də, yüzdə doxsan doqquzu belədir) gözünə xırda bir şey kimi görünər, – lakin birlikdə götürülən bu məhdudiyyətlər yoxsulları siyasətdən, demokratiyada fəal iştirak etməkdən uzaqlaşdırır, kənar edir.

Marks kapitalist demokratiyasının bu *m a h i yy ə t i n i* çox yaxşı körüb Kommunanın təcrübəsini təhlil edirkən demişdir: məzlumlara hər neçə ildən bir izin verirlər ki, zalım sinif nümayəndələrindən məhz kimin parlamentdə onları təmsil edəcəyini və. əzəcəyini həll etsinlər!

Lakin inkişaf, bu kapitalist demokratiyasından, – labüddən məhdud olan, yoxsulları xəlvətcə özündən uzaqlaşdıran, buna görə də başdan-başa riyakar və saxta olan bu demokratiyadan, – irəliyə doğru, liberal professorların və xırda burjua opportunistlərin təsəvvür etdikləri kimi, «gündən günə artan demokratiyaya» doğru sadə yolla, asan və hamar yolla getmir. Yox. İrəliyə, yəni kommunizmə doğru inkişaf, proletariat diktaturası yolu ilə kedir və başqa yolla kedə də bilməz, çünki istismarçı kapitalistlərin *müqavimətini qıracaq* başqa kimsə yoxdur və bu müqaviməti başqa yolla qırmaq olmaz.

Proletariat diktaturası, yəni zalımları əzmək üçün məzlumların avanqardının hakim sinif halında təşkil olunması, ancaq sadəcə olaraq demokratiyanın genişlənməsi ilə nəticələnə bilməz. Proletariat diktaturası, *ilk d ə f ə* olaraq, zənginlər üçün demokratizmə deyil, yoxsullar üçün demokratizmə, xalq üçün demokratizmə çevrilən demokratizmi son dərəcə genişləndirməklə *bərabər,* azadlığın bir sıra cəhətlərini zalımlara, istismarçılara, kapitalistlərə aid etmir. Bəşəriyyəti muzdlu köləlikdən azad etmək üçün biz onları əzməliyik, onların müqavimətini zor vasitəsi ilə qırmaq lazımdır, – aydındır ki, əzmək olan yerdə, zorakılıq olan yerdə azadlıq yoxdur, demokratiya yoxdur.

Engels, Bebelə məktubunda bunu çox gözəl ifadə edərək, oxucunun xatırladığı kimi, demişdir ki, «proletariatın dövlətə, azadlıq mənafeyi üçün deyil, öz düşmənlərini əzmək mənafeyi üçün ehtiyacı vardır, azadlıqdan danışıla biləcəyi zaman isə, dövlət olmayacaqdır».

downloaded from KitabYurdu.org

Xalqın olduqca böyük əksəriyyəti üçün demokratiya; istismarçıları, xalqın zalımlarını güclə əzmək, yəni demokratiyadan kənar etmək – kapitalizmdən kommunizmə *keçid* zamanının demokratiyası belə bir şəkil alacaqdır.

Ancaq kommunizm cəmiyyətində, kapitalistlərin müqaviməti tamamilə aradan qaldırılmış olduğu zaman. kapitalistlər yox olduqları zaman, siniflər olmadığı zaman (yəni ictimai istehsal vasitələrinə cəmiyyət üzvlərinin münasibəti nöqteyinəzərindən onların arasında fərq qalmadığı zaman), *ancaq* o zaman «dövlət yox olur və o zaman *azadlıqdan danışmaq olar». *həqiqətən heç bir istisnası olmayan, həqiqətən tam demokratiya da ancaq o zaman mümkün olacaq və həyata keçiriləcəkdir. Demokratiya da ancaq o zaman belə bir sadə səbəbə körə *ölüb getməyə* başlayacaqdır ki, kapitalizm əsarətindən, kapitalist istismarının saysız-hesabsız dəhşətlərindən, vəhşiliklərindən, mənasızlıqlarından, alçaqlıqlarından xilas olmuş insanlar, əsrlərdən bəri məlum olan, bütün köhnə əxlaq qanunlarında min illərlə təkrar edilmiş adi birgə yaşayış qaydalarına riayət etməyə tədriclə *alışacaqlar,* həm də zorakılığa, cəbrə, tabeçiliyə və cəbr üçün olub dövlət adlanan *xüsusi aparata ehtiyac qalmadan* bu qaydalara riayət etməyə alışacaqlar.

«Dövlət *ölüb gedir»* ifadəsi çox yerində işlədilmişdir, çünki prosesin həm tədriclə, həm də kortəbii yolla davam etdiyini göstərir. Ancaq vərdiş belə bir təsir göstərə bilər və şübhəsiz göstərəcəkdir, çünki biz öz ətrafımızda milyon dəfələrlə müşahidə edib görürük ki, istismar olmadıqda, insanı qəzəbləndirən, protest və üsyana səbəb olan, *əzmək* zərurətini doğuran bir şey olmadıqda, insanlar özlərinə lazım olan birgə yaşayış qaydalarına necə asanlıqla alışırlar.

Beləliklə: kapitalizm cəmiyyətində biz qırıq-kəsik, eybəcər, saxta demokratiya, ancaq zənginlər üçün, azlıq üçün demokratiya olduğunu görürük. Proletariat diktaturası, kommunizmə keçid dövrü azlığı, istismarçıları zəruri olaraq əzməklə yanaşı, ilk dəfə olaraq xalq üçün, çoxluq üçün demokratiya verəcəkdir. Ancaq təkcə kommunizm həqiqətən tam demokratiya verə bilər və bu demokratiya nə qədər mükəmməl olarsa, bir o qədər tezliklə lüzumsuz olacaq, öz-özünə ölüb gedəcəkdir.

Başqa sözlə desək: kapitalizm zamanında dövlət, sözün əsil mənasında, bir sinfin başqa sinfi, həm də azlığın çoxluğu əzməsi üçün xüsusi bir maşındır. Aydındır ki, çoxluq təşkil edən istismar olunanları azlıq təşkil edən istismarçıların daimi surətdə əzməsi kimi bir işin müvəffəqiyyəti üçün əzməyin son dərəcə yırtıcı və vəhşi üsulları lazımdır, qan dəryaları lazımdır və bəşəriyyət quldarlıq, təhkimçilik, muzdlu əmək vəziyyətində bu qan dəryalarından keçib gedir.

Sonra, kapitalizmdən kommunizmə *keçid* zamanı əzmək *hələ* zəruridir, lakin burada, çoxluq təşkil edən istismar olunanlar azlıq təşkil edən istismarçıları əzməlidirlər. Əzmək üçün xüsusi aparat, xüsusi maşın, «dövlət» *hələ* lazımdır, lakin bu artıq keçid dövlətidir, əsl mənada dövlət deyildir, çünki çoxluq təşkil edən *dünənki* muzdlu qulların azlıq təşkil edən istismarçıları əzməsi, nisbətən o qədər asan, sadə və təbii bir işdir ki, bu, qulların, təhkimlilərin, muzdlu fəhlələrin üsyanlarını yatırrmaqdan

downloaded from KitabYurdu.org

çox az qan bahasına tamam olacaqdır, o bəşəriyyətə çox ucuz başa gələcəkdir. Bununla bərabər, demokratiyanı əhalinin o qədər böyük bir çoxluğuna aid etmək olur ki, əzmək üçün *xüsusi maşına* ehtiyac yox olmağa başlayır. Təbiidir ki, istnsmarçılar xalqı əzmək kimi bir vəzifəni yerinə yetirmək üçün ən mürəkkəb bir maşına malik olmadan bunu edə bilməzlər, *xalq* isə istismarçıları ən sadə bir «maşınla» da əzə bilər, demək olar «maşın» olmadan, xüsusi aparat olmadan,*silahlı kütlələrin* (bir az irəliyə kedərsək, deyə bilərik ki, fəhlə və əskər deputatları Sovetləri kimi) sadə *təşkilatı* vasitəsi ilə də əzə bilər.

Nəhayət, dövləti ancaq kommunizm tamamilə lüzumsuz edir, çünki əzilməsi lazım kələn*kimsə* qalmır, yəni *sinif* mənasında, əhalinin müəyyən hissəsi ilə müntəzəm mübarizə aparmaq mənasında «kimsə qalmır». Biz utopist deyilik və asayiş qaydalarını *ayrı-ayrı şəxslərin* poza biləcəklərini və bunun labüd olduğunu, habelə *bu kimi* hadisələri yatırtmaq zərurətini heç də danmırıq. Lakin, əvvələn, bunun üçün xüsusi maşın, xüsusi bir əzmə aparatı lazım deyildir, bunu silahlı xalq özü sadə bir surətdə və asanlıqla edəcəkdir, necə ki, lap müasir cəmiyyətdə bir dəstə mədəni adamlar, dalaşanları ayırır və ya qadına zorakılıq göstərilməsinə yol vermir. İkincisi isə, biz bilirik ki, birkəyaşayış qaydalarını pozmaqdan ibarət olan hadisələrin əsas ictimai səbəbi kütlələrin istismar edilməsidir, onların ehtiyac və yoxsulluğudur. Bu başlıca səbəb aradan qaldırıldıqda, o cür hadisələr də labüddən *«ölüb getməyə»* başlayacaqdır. Biz bunların nə zaman və nə kimi tədriciliklə ölüb kedəcəyini bilmirik, lakin bilirik ki, bunlar ölüb gedəcəkdir. Bunlar ölüb getdikcə dövlət də *ölüb gedəncəkdir.*

Bu gələcək haqqında *indi* müəyyən edilə biləcək şeyi Marks utopiyaya qapılmadan, müfəssəl müəyyən etmişdir ki, bu da kommunizm cəmiyyətinin aşağı və yüksək fazaları (pillələri, dövrləri) arasındakı fərqdən ibarətdir.

## 3. KOMMUNİZM CƏMİYYƏTİNİN BİRİNCİ FAZASI

Sosializm zamanında fəhlələrin «azaldılmamış» və ya «tam əmək məhsulu» alacaqları haqqında Lassalın irəli sürdüyü ideyanı Marks «Qota proqramının tənqidi»ndə ətraflı təkzib edir. Marks göstərir ki, bütün cəmiyyətin bütün ictimai əməyindən həm ehtiyat fondu, həm istehsalı genişləndirmək fondu, həm «işlənib korlanan» maşınların və sairənin xərci çıxılmalıdır, sonra isə istehlak şeylərindən idarəetmə xərcləri, məktəblər, xəstəxanalar üçün, qoca evlərinin və sairənin saxlanması üçün fond çıxılmalıdır.

Lassalın dumanlı, anlaşılmaz ümumi ifadəsi («Fəhləyə – tam əmək məhsulu») əvəzinə Marks, sosializm cəmiyyətinin məhz necə təsərrüfatçılıq etməli olacağını aydın göstərir. Marks kapitalizmin olmayacağı belə bir cəmiyyətdə həyat şəraitinin *konkret* təhlilinə keçərək deyir:

downloaded from KitabYurdu.org

«Biz burada» (fəhlə partiyasının proqramını təhlil edərkən) «öz əsası üzərində *inkişaf etmiş olan* bir kommunizm cəmiyyətini deyil, məhz kapitalizm cəmiyyətindən hələ yenicə*çıxmaqda olan* və buna görə də özündə hər cəhətdən: iqtisadi, mənəvi və əqli cəhətdən hələ köhnə cəmiyyətin, yəni içərisindən çıxmış olduğu cəmiyyətin izlərini saxlayan kommunizm cəmiyyətini nəzərdə tuturuq».

Bax, kapitalizm içərisindən yenicə dünyaya kəlmiş, özündə hər cəhətdən köhnə cəmiyyətin izlərini saxlayan bu kommunizm cəmiyyətini, Marks kommunizm cəmiyyətinin «birinci» və ya aşağı fazası adlandırır.

İstehsal vasitələri artıq ayrı-ayrı şəxslərin xüsusi mülkiyyəti halından çıxmışdır. İstehsal vasitələri bütün cəmiyyətin malı olmuşdur. Cəmiyyətin hər bir üzvü, ictimai zəruri işin müəyyən bir hissəsini görərək, cəmiyyətdən vəsiqə alır ki, filan qədər iş görmüşdür. Bu vəsiqə ilə o, istehlak şeyləri saxlanan ictimai anbarlardan müvafiq miqdarda məhsul alır. Deməli, ictimai fonda gedən miqdarda əmək çıxıldıqdan sonra, hər bir fəhlə cəmiyyətə vermiş olduğu əmək qədər şey alır.

Sanki burada «bərabərlik» hökm sürür.

Lakin Lassal bu kimi ictimai qaydaları (bunlar adətən sosializm adlandırılır, Marks tərəfindən isə kommunizmin birinci fazası adlandırılır) nəzərdə tutaraq, buna «ədalətli bölgü», «bərabər əmək məhsuluna hər kəsin bərabər haqqı» dedikdə səhv edir və Marks onun səhvini izah edir.

Burada doğrudan da «bərabər hüquq» vardır, – deyə Marks köstərir, – lakin bu *hələ*«burjua hüququdur» və bu hüquq da, hər bir hüquq kimi, *bərabərsizliyi n ə z ə r d ə t u t u r.* Hər bir hüquq, işdə bir cür olmayan, birbirinə bərabər olmayan *müxtəlif* insanlara *eyni bir* ölçü ilə yanaşmaq deməkdir; buna görə də «bərabər hüquq» bərabərliyi pozmaq və ədalətsizlikdir. Doğrudan da, hər kəs, başqasının sərf etmiş olduğu qədər ictimai əmək sərf edərək, ictimai məhsulun (yuxarıda köstərilənlər çıxıldıqdan sonra) bərabər hissəsini alır. Halbuki ayrıayrı adamlar bərabər deyildir: biri güclü, o biri isə zəifdir; biri evlidir, o biri yox, birinin uşağı çoxdur, o birininki azdır və i. a.

Marks belə bir nəticəyə gəlir:

«…Bərabər dərəcə əmək sərf etməklə, deməli, ictimai istehlak fondunda bərabər dərəcədə iştirak etməklə, həqiqətdə biri o birindən çox alacaq, o birindən varlı olacaq və i. a. Bütün bunlara yol verməmək üçün hüququn bərabər olması əvəzinə, bərabər olmaması lazım gəlir…»

Deməli, kommunizmin birinci fazası hələ ədalət və bərabərlik verə bilməz: zənginlik fərqləri, həm də ədalətsiz olan fərqlər qalacaqdır, lakin insanın insanı *istismar etməsi*mümkün olmayacaqdır, çünki *istehsal vasitələrini,* fabrikləri, maşınları, torpağı və sairəni ələ keçirib xüsusi mülkiyyət halına salmaq olmaz. Marks Lassalın *ümumi xarakter daşıyan*«bərabərlik» və «ədalət» haqqında aydın olmayan xırda burjua ifadəsini puça çıxararaq, kommunizm cəmiyyətinin *inkişafı gedişini g*östərir; bu cəmiyyət əvvəlcə *yalnız* istehsal vasitələrinin ayrı-ayrı şəxslər tərəfindən ələ keçirilməsi kimi bir «ədalətsizliyi» yox etməyə*məcburdur* və bu cəmiyyət istehlak şeylərinin (tələbata görə deyil) «işə

downloaded from KitabYurdu.org

görə» bölüşdürülməsindən ibarət olan sonrakı ədalətsizliyi də birdən-birə yox etmək *iqtidarında deyildir.*

Vulqar iqtisadçılar, o cümlədən burjua professorları, o cümlədən də «bizim» Tuqan daim sosialistləri məzəmmət edirlər ki, guya onlar insanların bərabərsizliyini unudurlar və bu bərabərsizliyi yox etmək «arzusundadırlar». Belə bir məzəmmət, gördüyümüz kimi, burjua ideoloqları cənablarının ancaq son dərəcə nadan olduqlarını sübut edir.

Marks insanların labüd bərabərsizliyini yalnız ən dürüst bir surətdə nəzərə almaqla kifayətlənmir, o bunu da nəzərə alır ki, hələ istehsal vasitələrinin təkcə bütün cəmiyyətin ümumi mülkiyyətinə keçməsi (adi danışıq dilində «sosializm») bölüşdürmə nöqsanlarını və «burjua hüququ» bərabərsizliyini *ortadan qaldırmır* və məhsullar «işə görə» bölüşdürüldüyü üçün bu hüquq *hökmranlıq etməkdə davam edir.*

Marks sözünə davam edərək göstərir:

«…Lakin kommunizm cəmiyyətinin birinci fazasında, uzun müddət sürən doğuluş əzablarından sonra bu cəmiyyətin kapitalizm cəmiyyətindən çıxdığı halında, bu nöqsanların olması labüddür. Hüquq heç bir zaman iqtisadi quruluşdan və cəmiyyətin bu quruluş nəticəsindəki mədəni inkişafından yüksək ola bilməz…»

Beləliklə, kommunizm cəmiyyətinin birinci fazasında (bunu adətən sosializm adlandırırlar) «burjua hüququ» tamamilə *d e y i l,* ancaq qismən, ancaq əldə edilmiş iqtisadi çevriliş dərəcəsində, yəni ancaq istehsal vasitələri sahəsində ləğv edilir. «Burjua hüququ» istehsal vasitələrini ayrı-ayrı şəxslərin xüsusi mülkiyyəti hesab edir. Sosializm bunları *ümumi* mülkiyyət edir. «Burjua hüququ» *bu qədər* – və ancaq bu qədər – aradan qalxır.

Lakin bu hüququn başqa bir hissəsi yenə qalır, bu hüquq cəmiyyət üzvləri arasında məhsulların bölüşdürülməsini və əməyin bölüşdürülməsini nizama salan (müəyyən edən) bir vasitə olaraq qalır. «İşləməyən dişləməz», – sosializmin bu prinsipi *artıq* indi həyata keçirilmişdir; «bərabər miqdar əmək üçün bərabər miqdar məhsul», – sosializmin bu prinsipi də *artıq* indi həyata keçirilmişdir. Lakin bu hələ kommunizm deyildir və bu hələ bərabər olmayan insanlara bərabər olmayan (həqiqətdə bərabər olmayan) miqdarda əmək üçün bərabər miqdarda məhsul verən «burjua hüququnu» aradan qaldırmır.

Marks deyir ki, bu «nöqsandır», lakin kommunizmin birinci fazasında bu labüddür, çünki utopizmə qapılmadan zənn etmək olmaz ki, kapitalizmi yıxdıqdan sonra, insanlar *heç bir hüquq norması qoyulmadan* cəmiyyət üçün işləməyə birdən-birə alışırlar və kapitalizmin ləğv edilməsi, *belə bir* dəyişiklik üçün iqtisadi şəraiti də *birdən-birə yaratmır.*

downloaded from KitabYurdu.org

«Burjua hüququndan» başqa, özgə normalar isə yoxdur. Buna körə istehsal vasitələri üzərində ümumi mülkiyyəti qorumaqla bərabər, əmək bərabərliyini və məhsulların bərabər bölüşdürülməsini qoruya biləcək dövlətə hələ ehtiyac qalır.

Kapitalistlər olmadığı üçün, siniflər olmadığı üçün, buna görə heç bir *sinfi əzmək* mümkün olmadığı üçün dövlət ölüb gedir.

Lakin dövlət hələ büsbütün ölüb getməmişdir, çünki faktik bərabərsizliyi təqdis edən «burjua hüququnun» mühafizəsi hələ qalır. Dövlətin tamamilə ölüb ketməsi üçün tam kommunizm lazımdır.

## 4. KOMMUNIZM CƏMİYYƏTİNİN YÜKSƏK FAZASI

Marks sözünə davam edərək deyir:

«…Əmək bölküsünün insanı özünə bir qul kimi tabe etməsi kommunizm cəmiyyətinin yüksək fazasında yox olduqdan sonra; bununla birlikdə əqli əməklə fiziki əmək arasındakı əkslik yox olacağı zaman; əmək yaşayış üçün ancaq bir vasitə halından çıxaraq, özü yaşayışın birinci tələbatı olacağı zaman; fərdlərin hərtərəfli inkişafı ilə bərabər məhsuldar qüvvələr də artaraq, cəmiyyətin bütün sərvət mənbələri tam gücü ilə coşub daşacağı zaman, ancaq o zaman burjua hüququnun dar çərçivəsini tamamilə aradan qaldırmaq mümkün olacaq və cəmiyyət öz bayrağı üzərində bu sezləri yaza biləcəkdir: «hər kəs qabiliyyətinə görə, hər kəsə tələbatına görə».

«Azadlıq» və «dövlət» sözlərini birləşdirməyin mənasızlığına amansızlıqla istehza edən Engelsin qeydlərinin bütün doğruluğunu biz ancaq indi qiymətləndirə bilərik. Nə qədər ki, dövlət vardır, azadlıq yoxdur. Azadlıq olacağı zaman dövlət olmayacaqdır.

Dövlətin tamamilə ölüb getməsinin iqtisadi əsası kommunizmin elə yüksək inkişafından ibarətdir ki, bu zaman əqli əməklə fiziki əmək arasındakı əkslik yox olur, deməli, hazırkı*ictimai* bərabərsizliyin ən mühüm mənbələrindən biri, həm də təkcə istehsal vasitələrinin ictimai mülkiyyətə keçməsi ilə, təkcə kapitalistlərin mülkiyyətdən məhrum edilməsi ilə heç bir halda birdən-birə aradan qaldırıla bilməyəcək bir mənbə yox olur.

Kapitalistlərin mülkiyyətdən məhrum edilməsi məhsuldar qüvvələrin olduqca inkişaf etməsinə *imkan* verəcəkdir. Artıq indi bu inkişafa kapitalizmin nə qədər ağlasığmaz dərəcədə *mane olduğunu* gördükdə, əldə edilmiş hazırkı texnika əsasında bir çox şeylərin nə qədər irəlilədilə biləcəyini gördükdə, bizim tam qətiyyətlə deməyə haqqımız var ki, kapitalistlərin mülkiyyətdən məhrum edilməsi insan cəmiyyətinin məhsuldar qüvvələrini labüddən son dərəcə inkişaf etdirəcəkdir. Lakin biz, bu inkişafın irəliləməsinin nə qədər vaxt tələb edəcəyini, əmək bölgüsündəi əl çəkilməsi, əqli əməklə fiziki əmək arasındakı əksliyin aradan qaldırılması, əməyin dönüb «həyatın birinci tələbatı» olması dərəcəsinə nə zaman çatacağını bilmirik və bilə də *bilmərik.*

downloaded from KitabYurdu.org

Buna körə də biz həmin prosesin uzun sürəcəyini, kommunizmin *yüksək fazasının* inkişaf sürətindən asılı olduğunu qeyd edərək, dövlətin ancaq labüd surətdə ölüb ketməsindən danışa bilərik; bu ölüb getmənin müddəti və ya konkret formaları məsələsini isə tamamilə açıq buraxmalıyıq, çünki bu kimi məsələlərin həlli üçün material *yoxdur.*

Dövlət o vaxt tamamilə ölüb kedə bilər ki, cəmiyyət: «hər kəs qabiliyyətinə görə, hər kəsə tələbatına görə» qaydasını həyata keçirsin, yəni insanlar əsas birgə yaşayış qaydalarına riayət etməyə o qədər alışmalıdırlar və onların əməyi o qədər məhsuldar olmalıdır ki, onlar könüllü surətdə öz *qabiliyyətlərinə* görə çalışsınlar. Başqasından yarım saat artıq işləməməyi və başqasından az əmək haqqı almamağı Şeyloka məxsus bir mərhəmətsizliklə hesablamağa vadar edən «burjua hüququnun dar çərçivəsi» o zaman aşılmış olacaqdır. O zaman məhsulların bölüşdürülməsi hər kəsin alacağı məhsulun miqdarının cəmiyyət tərəfindən normaya salınmasını tələb etməyəcəkdir; hər kəs sərbəst surətdə «tələbatına görə» məhsul götürəcəkdir.

Belə bir ictimai quruluşu burjua nöqteyi-nəzərindən asanlıqla «xalis utopiya» adlandırıb istehza ilə demək olar ki, sosialistlər ayrı-ayrı vətəndaşların əməyi üzərində heç bir nəzarət qoymadan hər kəsə cəmiyyətdən istədiyi qədər trüfel, avtomobil, pianino və sairə almaq ixtiyarı vəd edirlər. Burjua «alimlərinin» çoxu hətta indiyədək belə bir istehza ilə yaxalarını qurtarır və bununla həm öz nadanlıqlarını, həm də kapitalizmi mənfəətpərəstlikləri naminə müdafiə etdiklərini göstərirlər.

Nadanlıqlarını göstərirlər, çünki heç bir sosialist kommunizmin yüksək inkişaf fazasının kəlib çatacağını «vəd etmək» fikrində olmamışdır, belə bir fazanın gəlib çatacağını böyük sosialistlərin *qabaqcadan görmələri* isə, nə indiki əmək məhsuldarlığını, nə də, Pomyalovskinin bursakları kimi, anbarlarla ictimai sərvəti «boş yerə» xarab edib mümkün olmayan şeylər tələb edə biləcək *indiki* meşşanı nəzərdə tutmur.

Sosialistlər kommunizmin «yüksək» fazası gəlib çatıncayadək, əməyin ölçüsü və istehlakın ölçüsü üzərində cəmiyyət tərəfindən *və dövlət tərəfindən ən ciddi* nəzarət qoyulmasını tələb edirlər, lakin bu nəzarət kapitalistləri mülkiyyətdən məhrum etməkdən, kapitalistlər üzərində fəhlələrin nəzarət qoymasından *başlanmalı* və məmurlar dövləti tərəfindən deyil,*silahlanmış fəhlələr* dövləti tərəfindən həyata keçirilməlidir.

Burjua ideoloqlarının (və onların cənab Seretelilər, Çernovlar və K°sı kimi quyruqlarının) kapitalizmi mənfəətpərəstlikləri nöqteyi-nəzərindən müdafiə etməsi məhz bundan ibarətdir ki, onlar *bu günkü* siyasətin vacib və əhəmiyyətli məsələsini, yəni kapitalistləri mülkiyyətdən məhrum etmək, *bütün* vətəndaşları *bir* iri «sindikatın», yəni bütün dövlətin işçilərinə və qulluqçularına çevirmək və bütün bu sindikatın bütün işlərini həqiqətən demokratik dövlətə, *fəhlə və əskər deputatları Sovetləri dövlətinə* tamamilə tabe etmək məsələsini uzaq gələcək haqqındakı mübahisələr və sehbətlərlə *əvəz edirlər.*

downloaded from KitabYurdu.org

Əslində, bir alim professor, onun ardınca bir meşşan, onun da ardınca cənab Seretelilər və Çernovlar ağılsız utopiyalardan, bolşeviklərin demaqoq vədlərindən, sosializmi «tətbiq etməyin» mümkün olmamasından danışarkən, məhz kommunizmin yüksək pilləsini və ya fazasını nəzərdə tuturlar; halbuki bunu «tətbiq etməyi» heç kəs nəinki vəd etməmiş, hətta heç fikrinə də gətirməmişdir, çünki onu ümumiyyətlə «tətbiq etmək» olmaz.

Burada da biz, sosializm ilə kommunizm arasındakı elmi fərq məsələsinə kəlib çıxmış oluruq və Engels bu məsələdən, «sosial demokratlar» adının düzgün olmadığı haqqında onun yuxarıda göstərdiyimiz mülahizəsində etəri surətdə bəhs etmişdir. Kommunizmin birinci və ya aşağı fazası ilə yüksək fazası arasında siyasi çəhətdən, ehtimal, vaxtı ilə çox beyük fərq olacaqdır; lakin indi, kapitalizm zamanında, bunu etiraf etmək gülünc olardı və bunu bəlkə də ancaq ayrıayrı anarxistlər (Kropotkinlərin, Qravın, Kornelissenin və anarxizmin başqa «görkəmli simalarının» «plexanovcasına» sosial şovinistlərə çevrilməsindən, və ya da namus və vicdanını itirməmiş az miqdar anarxistlərdən biri olan Kenin dediyi kimi, anarxist tranşeyniklərə çevrilməsindən sonra, anarxistlər içərisində hələ heç bir şey öyrənməmiş adamlar qalmışdırsa) ön sıraya çəkərdilər.

Lakin sosializmlə kommunizm arasındakı elmi fərq aydındır. Adətən sosializm adlandırılan şeyi Marks kommunizm cəmiyyətinin «birinci» və ya aşağı fazası adlandırmışdır. İstehsal vasitələri *ümumi* mülkiyyətə keçdiyinə görə, «kommunizm» sözü burada da tətbiq oluna bilər, lakin unudulmamalıdır ki, bu hələ tam kommunizm *deyildir.* Marksın izahatının böyük əhəmiyyəti bundadır ki, materialist dialektikanı, inkişaf təlimini burada da ardıcıl surətdə tətbiq edərək, kommunizmi kapitalizmdən inkişaf etməkdə olan bir şey hesab edir. Sxolastikcəsinə uydurulmuş, «quraşdırılmış» təriflər əvəzinə və gəlmələr üzərində (sosializm nədir, kommunizm nədir) səmərəsiz mübahisələr əvəzinə, Marks təhlil edib göstərir ki, nəyi kommunizmin iqtisadi yetkinliyi pillələri adlandırmaq olar.

Kommunizm özünün birinci fazasında, ezünün birinci pilləsində iqtisadi cəhətdən hələ tamamilə yetkin, kapitalizmin ənənələrindən və ya izlərindən tamamilə azad ola *bilməz.*Buradan isə kommunizmin birinci fazasında *«burjua* hüququnun dar çərçivəsinin» saxlanılması kimi maraqlı bir hal irəli gəlir. *Istehlak* məhsullarının belüşdürülməsində burjua hüququ, əlbəttə, mütləq *burjua dövlətinin* olmasını da nəzərdə tutur, çünki hüquq normalarını yerinə yetirməyə *məçbur edə biləçək* bir aparat olmadan, hüquq heç bir şeydir.

Belə bir nəticə çıxır ki, kommunizmdə yalnız burjua hüququ deyil, burjuaziya olmadığı halda, hətta burjua dövləti də müəyyən bir zaman qalır!

Bu ağla batmayan bir şey və ya ağlın dialektik bir oyunu kimi görünə bilər; marksizmin son dərəcə dərin məzmununu öyrənmək üçün özlərini zərrə qədər zəhmətə salmayan adamlar marksizmi çox vaxt bunda təqsirləndirirlər.

downloaded from KitabYurdu.org

Həqiqətdə isə, yeni şeydə köhnənin qalıqları olduğunu, istər təbiətdə, istərsə cəmiyyətdə həyat bizə hər addımda göstərir. Marks da «burjua» hüququnun bir parçasını kommunizmə kefi istədiyinə körə keçirməmişdir; o, kapitalizm *içərisindən* çıxan bir cəmiyyətdə iqtisadi və siyasi cəhətdən labüd olacaq şeyi götürmüşdür.

Fəhlə sinfinin öz azadlığı uğrunda kapitalistlərə qarşı apardığı mübarizədə demokratiyanın çox böyük əhəmiyyəti vardır. Lakin demokratiya heç də geçilməsi mümkün olmayan bir hədd deyil, feodalizmdən kapitalizmə və kapitalizmdən kommunizmə kedən yoldakı mərhələlərdən ancaq biridir.

Demokratiya bərabərlik deməkdir. Əgər bərabərliyi *siniflərin* məhv edilməsi mənasında düzgün anlayırıqsa, proletariatın bərabərlik uğrunda mübarizəsinin və bərabərlik şüarının böyük əhəmiyyəti olduğu aydındır. Lakin demokratiya ancaq *formal* bərabərlik deməkdir. İstehsal vasitələrinə sahiblik *nöqteyi-nəzərindən,* bütün cəmiyyət üzvlərinin bərabərliyi, yəni əmək bərabərliyi, əmək haqqı bərabərliyi həyata keçirilən kimi, labüd olaraq, bəşəriyyət qarşısında formal bərabərlikdən həqiqi bərabərliyə doğru, yəni: «hər kəs qabiliyyətinə körə, hər kəsə tələbatına körə» qaydasını həyata keçirməyə doğru irəliləmək məsələsi duracaqdır. Bəşəriyyətin bu yüksək məqsədə doğru hansı mərhələlərlə, hansı əməli tədbirlər yolu ilə gedəcəyini biz bilmirik və bilə də bilmərik. Lakin sosializmin kuya ölgün, donub qalmış, dəyişməz bir şey olduğu haqqındakı adi burjua təsəvvürünün nə dərəcədə ağ bir yalan olduğunu aydınlaşdırmaq mühümdür; halbuki ictimai və şəxsi həyatın bütün sahələrində əhali *çoxluğunun* və sonra bütün əhalinin iştirakı ilə əmələ kələn bu sürətli, həqiqi, əsil kütləvi irəliləmə, həqiqətdə *ancaq* sosializmdən başlanacaqdır.

Demokratiya dövlət formasıdır, dövlətin bir növüdür. Deməli, hər bir dövlət kimi, demokratiya da insanlara mütəşəkkil, daimi surətdə zorakılıq tətbiq etməkdən ibarətdir. Bu bir tərəfdən. O biri tərəfdən isə, demokratiya vətəndaşlar arasında bərabərliyi, dövlət quruluşunu təyin və onu idarə etmək sahəsində hamının bərabər hüquqa malik olduğunu formal surətdə qəbul etmək deməkdir. Bu da yenə onunla əlaqədardır kn, demokratiya öz inkişafının müəyyən bir pilləsində, əvvələn, kapitalizmə qarşı inqilabçı sinfi – proletariatı birləşdirir və ona, lap respublikaçı burjua dövlət maşını olsa da, həmin burjua dövlət maşınını, daimi ordunu, polisi, məmurları əzib darmadağın etmək, yer üzündən silib atmaq və bunları *daha* demokratik, lakin hələ də dövlət maşını olan bir maşınla əvəz etmək imkanı verir; bu demokratik maşın isə – bütün xalqın milisdə iştirak etməsinə keçən silahlı fəhlə kütlələri halında olur.

Burada «kəmiyyət keyfiyyətə keçir»: demokratizmin *bu* dərəcəyə çatması, burjua cəmiyyəti çərçivəsindən çıxmaqla, bu cəmiyyəti sosialistcəsinə yenidən qurmağa başlamaqla əlaqədardır. Dövləti idarə etməkdə doğrudan da *hamı* iştirak edirsə, daha burada kapitalizm davam gətirə bilməz. Kapitalizmin inkişafı da, öz növbəsində, dövləti idarə etməkdə həqiqətən «hamının» iştirak *edə bilməsi üçün şərait* yaradır. Bir sıra ən qabaqcıl kapitalist ölkələrinin artıq indi həyata keçirmiş olduğu

downloaded from KitabYurdu.org

başdan-başa savadlılıq, sonra poçtun, dəmir yolların, iri fabriklərin, iri ticarətin, bank işinin və i. a. və sairənin iri, mürəkkəb, ictimailəşdirilmiş aparatı tərəfindən milyonlarla fəhlələrin «öyrədilməsi və intizama alışdırılması» bu ilkin şərtlər cümləsindəndir.

Belə bir *iqtisadi* ilkin şərtlər olduqda, kapitalistləri və məmurları yıxaraq, istehsala və bölüşdürməyə *nəzarət etmək* işində, əməyi və məhsulları *uçota almaq* işində onları dərhal, günü sabah silahlı fəhlələrlə, başdanbaşa silahlanmış xalq ilə əvəz etməyə keçmək tamamilə mümkündür (Nəzarət və uçot məsələsi, elmi təhsili olan mühəndis, aqronom və sairə heyəti məsələsi ilə qarışdırılmamalıdır; bu cənablar, bu kün kapitalistlərə tabe olaraq işləyirlər, sabah silahlı fəhlələrə tabe olaraq, daha yaxşı işləyəcəklər).

Uçot və nəzarət – kommunizm cəmiyyətinin *birinci fazasının* «sahmana salınması» üçün, onun düzgün işləməsi üçün tələb olunan *başlıca* cəhətdir. Burada *bütün* vətəndaşlar, silahlı fəhlələrdən ibarət dövlət üçün muzdla işləyən qulluqçulara çevrilirlər. *Bütün*vətəndaşlar *bir* ümumxalq, dövlət «sindikatının» qulluqçuları və fəhlələri olurlar. Bütün iş ondadır ki, bunlar, iş ölçüsünə düzkun riayət edərək bərabər dərəcədə işləsinlər və bərabər əmək haqqı alsınlar. Bunun uçotunu, buna nəzarəti kapitalizm olduqca*sadələşdirmişdir,* hər bir savadlı adamın bacardığı kez qoymaq və qeyd etmək, hesabdan dörd əməli bilmək və lazımi qəbzlər vermək kimi həddindən artıq sadə əməliyyat dərəcəsinə çatdırılmışdır.

Xalqın *əksəriyyəti* müstəqil surətdə və hər yerdə belə bir uçot aparmağa, kapitalistlər (bunlar indi artıq qulluqçulara çevrilmişlər) üzərində və kapitalist ədalarını mühafizə edən cənab ziyalılar üzərində belə bir nəzarət qoymağa başlayacağı zaman bu nəzarət doğrudan da universal, ümumi, ümumxalq nəzarəti olacaq, bu nəzarətdən heç bir vəchlə boyun qaçırmaq mümkün olmayacaq, ondan «yaxa qurtarmaq mümkün olmayacaqdır».

Bütün cəmiyyət vahid bir kontor, vahid bir fabrik olacaqdır ki, orada əmək bərabər və onun haqqı bərabər olacaqdır.

Lakin kapitalistlərə qalib gəlmiş, istismarçıları yıxmış olan proletariatın bütün cəmiyyətə tətbiq edəcəyi bu «fabrik» intizamı, heç bir halda bizim nə idealımızdır, nə də son məqsədimizdir, ancaq cəmiyyəti kapitalist istismarının rəzalət və alçaqlıqlarından əsaslı surətdə təmizləmək üçün və irəliyə hərəkəti *davam etdirmək üçün* lazım olan bir *pillədir.*

Bütün cəmiyyət üzvləri və ya onların heç olmazsa böyük çoxluğu, bunların *özləri* dövləti idarə etməyi öyrəndikdə, ezləri bu işi öz əllərinə aldıqda, çox cüzi bir azlıq təşkil edən kapitalistlər üzərində, kapitalist ədalarını mühafizə etmək istəyən xırda ağalar üzərində, kapitalizmin çox pozğunlaşdırmış olduğu fəhlələr üzərində nəzarəti «qaydaya saldıqda», bu zamandan etibarən ümumiyyətlə hər bir idarəetmə işinə ehtiyac yox olmağa başlayır. Demokratiya nə qədər mükəmməl olursa, onun lüzumsuz olacağı vaxt da bir o qədər yaxın olur. Silahlı fəhlələrdən ibarət olan və «daha sözün əsil

downloaded from KitabYurdu.org

mənasında dövlət olmayan» bir «dövlət» nə qədər demokratik olursa, *hər cür* dövlət də bir o qədər sürətlə ötüb ketməyə başlayır.

Zira ictimai istehsalı idarə etməyi *hamı* öyrənəcəyi və doğrudan da müstəqil idarə edəcəyi zaman, uçot işini, müftəxorlar, ərköyünlər, fırıldaqçılar və başqa bu kimi «kapitalizm ənənələrini mühafizə edənlər» üzərində nəzarət işini müstəqil surətdə həyata keçirməyi öyrənəcəyi zaman, həmin ümumxalq uçotu və nəzarətindən boyun qaçırmaq mütləq o qədər çətin olacaq, o qədər çox az təsadüf edilən bir istisna olacaqdır ki, bunun üçün, yəqin, o qədər tez və şiddətli cəza veriləcəkdir ki, (zira silahlı fəhlələr – hissiyyata qapılan ziyalılar deyil, əməli həyat adamlarıdır və kimsənin onlarla zarafat etməsinə çətin ki, yol verəcəklər), mürəkkəb olmayan, insanların hər cür əsas birgə yaşayış qaydalarına riayət etmək *zərurəti* çox tez zamanda *bir vərdiş* olacaqdır.

O zaman kommunizm cəmiyyətinin birinci fazasından onun yüksək fazasına keçmək üçün və bununla da birlikdə dövlətin tamamilə ölüb getməsinə keçmək üçün qapılar taybatay açılacaqdır.

## VI FƏSİL

## MARKSIZMIN OPPORTUNISTLƏR TƏRƏFINDƏN BAYAĞILAŞDIRILMASI

2-ci İnternasionalın (1889 – 1914) ən görkəmli nəzəriyyəçilərini və publisistlərini ümumiyyətlə inqilab məsələsi çox az məşğul etdiyi kimi, dövlətin ictimai inqilaba və ictimai inqilabın dövlətə münasibəti məsələsi də çox az məşğul etmişdir. Lakin 1914-cü ildə 2-ci İnternasionalı iflasa uğratmış olan opportunizmin tədricən böyüməsi prosesində ən səciyyəvi cəhət budur ki, bu məsələyə hətta tamamilə yaxınlaşdıqları zamanda da bu məsələnin üstündən keçməyə çalışırdılar, yaxud onu görmürdülər.

Ümumiyyətlə demək olar ki, marksizmin təhrif edilməsi və tamamilə bayağılaşdırılması, proletar inqilabının dövlətə münasibəti məsələsindəki qeyri-müəyyənlikdən, opportunizm üçün əlverişli olan və ona qida verən bu qeyri-müəyyənlikdən irəli gəlmişdir.

Bu kədərli prosesi heç olmazsa müxtəsər təsvir etmək üçün marksizmin ən görkəmli nəzəriyyəçiləri olan Plexanovu və Kautskini götürək.

### 1. PLEXANOVUN ANARXİSTLƏRLƏ MÜBAHİSƏSİ

Plexanov anarxizmin sosializmə münasibəti məsələsinə 1894-cü ildə alman dilində çıxmış “Anarxizm və sosializm” adlı xüsusi bir kitabça həsr etmişdir.

Plexanov bu mövzudan bəhs edərkən, anarxizmə qarşı mübarizədə ən aktual, ən vacib və siyasi cəhətdən ən mühüm məsələdən, yəni inqilabın dövlətə münasibəti məsələsindən və ümumiyyətlə dövlət məsələsindən xəlvətcə tamamilə yan keçmişdir! Onun kitabçasının iki hissədən ibarət olduğu gözə çarpır: biri Ştirner, Prudon və başqalarının ideyaları tarixinə dair qiymətli material verən tarixi-

downloaded from KitabYurdu.org

ədəbi hissədir. O biri hissə: anarxisti quldurdan seçmək mümkün olmadığı mövzusuna dair kobud fikir yeridilən filistercəsinə yazılmış hissədir.

Plexanovun bu iki mövzunu bir-biri ilə əlaqələndirməsi Rusiyada inqilab ərəfəsində və inqilabi dövr ərzində onun bütün fəaliyyətinin son dərəcə məzəli və çox səciyyəvi cəhətini təşkil edir. 1905-1917-ci illərdə Plexanov özünün məhz yarımdoktrinaçı, yarımfilister olduğunu, siyasətdə burjuaziyanın quyruğunda getdiyini göstərdi.

Biz gördük ki, Marks və Engels anarxistlərlə mübahisə edərkən, inqilabın dövlətə münasibəti haqqında öz baxışlarını daha diqqətlə aydınlaşdırmışlar. Engels 1891-ci ildə Marksın "Qota proqramının tənqidi" əsərini nəşr etdirərkən yazmışdı ki, "biz (yəni Engels və Marks) o vaxt Bakuninlə və onun anarxistləri ilə mübarizənin ən qızğın çağında idik – İnternasionalın (birinci İnternasionalın) Qaaqa konqresindən iki ildən də az keçmişdi.

Anarxistlər məhz Paris Kommunasını, necə deyərlər, "özlərininki" elan etməyə, onların təlimini təsdiq edən bir şey elan etməyə çalışırdılar, həm də onlar Kommunanın verdiyi dərsləri və bu dərslərin Marks tərəfindən verilmiş təhlilini əsla anlamamışdılar. Köhnə dövlət maşınını qırmaq lazımdırmı? Və onu nə ilə əvəz etmək lazımdır? kimi konkret siyasi məsələlər haqqında anarxizm həqiqətən hətta təxminən yaxın olan heç bir şey verməmişdir.

Lakin bütün dövlət məsələsindən yan keçərək, marksizmin Kommunadan əvvəlki və sonrakı bütün inkişafını görməyərək, "anarxizmdən və sosializmdən" danişmaq, labüddən opportunizmə yuvarlanmaq demək idi. Çünki opportunizmin də ən çox istədiyi şey məhz bundan ibarətdir ki, bizim indi göstərmiş olduğumuz həmin iki məsələ heç irəli sürülməsin. Bu özü opportunizmin qələbəsidir.

## 2. KAUTSKİNİN OPPORTUNİSTLƏRLƏ MÜBAHİSƏSİ

Kautskinin əsərləri ruscaya, şübhə yoxdur ki, hər hansı başqa bir dilə tərcümə olunduğundan qat-qat çox tərcümə olunmuşdur. Buna görə də bəzi alman sosial-demokratları zarafatla deyirlər ki, Kautskini Almaniyadan çox Rusiyada oxuyurlar (mötərizədə deməliyik ki, bu zarafatda, həmin zarafatı ortaya atanların zənn etdiklərindən daha dərin tarixi bir məzmun vardır ki, o da budur: 1905-ci ildə rus fəhlələri dünyanın ən yaxşı sosial-demokrat ədəbiyyatının ən yaxşı əsərlərinə çox böyük və misli görünməmiş bir tələb verərək və bu əsərlərin başqa ölkələrdə olduğundan qat-qat artıq miqdarda tərcümə və nəşr edilməsinə nail olaraq, bununla da, daha qabaqcıl olan qonşu bir ölkənin olduqca böyük təcrübəsini sürətlə bizim, necə deyərlər, gənc proletar hərəkatı zemininə keçirdilər). Kautski bizdə, marksizmə populyar şəkildə şərh etməkdən əlavə, opportunistlərlə və onlara başçılıq edən Bernşteynlə aparmış olduğu mübahisəyə görə daha çox məşhurdur. Lakin 1914 – 1915-ci illərdəki çox böyük böhran zamanı, Kautskinin ağlagəlməz dərəcədə biabırçı bir çaşqınlığa düşdüyünü və sosial-şovinizmi müdafiə etdiyini gözdən keçirməyi qarşımıza vəzifə qoysaq, çox az məlum olan bir faktdan yan keçmək olmaz. Bu da məhz o faktdır ki, Kautski opportinizmin Fransada,

downloaded from KitabYurdu.org

(Milyeran və Jores) və Almaniyada (Bernşteyn ) ən görkəmli nümayəndələrinə qarşı çıxış etməkdən qabaq çox böyük tərəddüdlər göstərmişdi. 1901 – 1902-ci illərdə Ştutqartda çıxan və inqilabi-proletar baxışlarını müdafiə edən marksist "Zarya" Kautski ilə mübahisəyə girişməyə və onun 1900-cü ildə paris beynəlxalq sosialist konqresində təklif etdiyi yayğın, qətiyyətsiz, oppotunistlərə qarşı barışqan qətnaməni "kauçuk" qətnamə adlandırmağa məcbur olmuşdu. Alman ədəbiyyatında Kautskinin məktubları çap edilmişdi; bu məktublar da Bernşteynə qarşı çıxış etməkdən qabaq Kautskinin eyni dərəcədə tərəddüd göstərdiyini meydana çıxarmışdı.

Lakin bundan qat-qat artıq əhəmiyyəti olan cəhət odur ki, Kautskinin opportunistlərlə mübahisəsinin özündə, onun məsələni qoymasında və məsələni təfsir etməl üsulunda indi, biz onun marksizmə qarşı ən yeni xəyanətinin tarixini öyrəndiyimiz zaman məhz dövlət məsələsində daim opportunizmə meyl etdiyini görürük.

Kautskinin opportunizmə qarşı birinci böyük əsərini, onun "Bernşteyn və sosial-demokrat proqramı" kitabını götürək. Kautski Bernşteyni ətraflı təkzib edir. Lakin baxın səciyyəvi olan nədir. Bernşteyn Herostrat şöhrəti qazanmış "Sosializmin ilkin şərtləri" əsərində marksizmi "blankizmdə" ittiham edir (bu ittiham o vaxtdan bəri Rusiyada opportunistlər və liberal burjualar tərəfindən inqilabi marksizm nümayəndələrinə, bolşeviklərə qarşı min dəfələrlə təkrar edimişdir). Həm də Bernşteyn Marksın "Fransada vətəndaş müharibəsi" əsərindən ayrıca bəhs edir və Kommunaın verdiyi dərslər haqqında Marksın nöqteyi-nəzəri ilə Prudonun nöqteyi-nəzərinin bir-birinin eyni olduğunu – yuxarıda gördüyümüz kimi, lap müvəffəqiyyətsizliklə – göstərməyə cəhd edir. Marksın "Kommunist Manifesti"nə 1872-ci ildə yazılan müqəddimədə çıxartdığı nəticə Bernşteynin diqqətini xüsusi cəlb edir; həmin nəticə isə bundan ibarətdir: "fəhlə sinfi hazır dövlət maşınına sadəcə yiyələnib onu öz məqsədləri üçün işə sala bilməz."

Bernşteyn bu kəlamı o qədər "bəyənmişdir" ki, onu tamamilə təhrif olunmuş, opportunist bir mənada təfsir edərək, öz kitabında azı üç dəfə təkrar edir.

Gördüyümüz kimi, Marks demək istəyir ki, fəhlə sinfi bütün dövlət maşınını qırmalı, sındırmalı, partlatmalıdır (Sprengung – partlayış – Engelsin işlətdiyi ifadədir), Bernşteynin sözündən isə belə çıxır ki, guya Marks bu sözlərlə fəhlə sinfini hakimiyyəti ələ alarkən həddindən artıq inqilabçı olmaqdan çəkindirmişdir.

Marksın fikrini bundan daha qaba və daha iyrənc bir şəkildə təhrif edilməsini heç təsəvvürə də gətirmək olmaz.

Bəs Kautski bernşteynçiliyi ən ətraflı surətdə təkzib edərkən necə hərəkət etmişdir? Kautski, bu məsələdə marksizmin opportunizm tərəfindən təhrif olunmasının bütün dərinliyini araşdırmaqdan boyun qaçırmışdır. O, Marksın "Vətəndaş müharibəsi"nə Engelsin yazdığı müqəddimədən yuxarıda sitat gətirilmiş parçanı qeyd edərək, demişdir ki, Marksa görə, fəhlə sinfi

downloaded from KitabYurdu.org

hazır dövlət maşınına sadəcə yiyələnə bilməz, amma ümumiyyətlə ona yiyələnə bilər, vəssalam, Bernşteynin Marksa, onun əsl fikrinin tam əksini isnad verdiyi haqqında, Marksın 1852-ci ildən bəri proletar inqilabı qarşısında dövlət maşınını "qırmaq" vəzifəsini irəli sürdüyü haqqında Kautski bir kəlmə də danışmamalıdır.

Nəticədə proletar inqilabının vəzifələri məsələsində marksizmin opportunizmdən ən mühüm fərqi Kautski tərəfindən ört-basır edilmişdir!

Kautski Bernşteynə "qarşı" yazırdı:

"Proletar diktaturası problemi məsələsinin həllini biz tamamilə arxayın bir surətdə gələcəyə həvalə edə bilərik" (almanca nəşrinin 172-ci səhifəsi).

Bu, Bernşteynə qarşı mübahisə deyil, əslində, ona güzəştə getməkdir, mövqeləri opportunizmə təslim eymək deməkdir, çünki hələlik opportunistlərə proletar inqilabının vəzifələri haqqında bütün əsas məsələləri "tamamilə arxayın bir surətdə gələcəyə həvalə etməkdən" başqa heç bir şey lazım deyildir.

Marks və Engels 1852-ci ildən 1891-ci ilə qədər qırx il ərzində proletariata öyrətmişlər ki, proletariat dövlət maşınını qırmalıdır. Kautski isə 1899-cu ildə opportunistlərin marksizmə bu məsələdə tam xəyanət etdiklərini gördüyü bir halda maşını qırmaq lazım olub-olmadığı məsələsini, həmin maşını qırmağın konkret formaları məsələsi ilə əvəz edir və canını belə bir "mübahisəsiz" (və səmərəsiz) filister iddiası sayəsində qurtarmağa çalışır ki, konkret formaları biz irəlicədən bilə bilmərik!! Proletar partiyasının fəhlə sinfini inqilaba hazırlamaq vəzifəsinə Marksın münasibəti ilə Kautskinin münasibəti arasında bir uçurum vardır.

Kautskinin, yenə də mühüm bir hissəsi opportunizmin səhvlərini sübut və rədd etməyə həsr olunmuş digər daha yetkin bir əsərini götürək. Bu onun "İctima inqilab" kitabçasıdır. Müəllif "proletar inqilabı" və "proletar rejimi" məsələsini həmin kitabçada xüsusi lövhə olaraq götürmüşdür. Müəllif bir çox son dərəcə qiymətli fikirlər irəli sürmüşdür, lakin məhz dövlət məsələsindən yan keçmişdir. Kitabçanın hər yerində dövlət hakimiyyətini ancaq ələ almaqdan bəhs olunur, bundan başqa heç bir şeydən bəhs olunmur, yəni dövlət maşınını dağıtmadan hakimiyyətin ələ alınmasını mümkün sayan və beləliklə opportunistlərə güzəştə gedən bir tərif irəli sürülür. Marksın 1872-ci ildə "Kommunist manifest" proqramında məhz "köhnəlmiş" elan etdiyi şey Kautski tərəfindən 1902-ci ildə yenidən ortaya atılır.

Kitabçada "İctimai inqilabın formalarına və silahına" xüsusi bir paraqraf həsr edilmişdir. Burada həm kütləvi siyasi tətildən, həəm vətəndaş müharibəsindən, həm də "müasir iri dövlətin bürokratiya və ordu kimi zor silahlarından" danışılır, lakin Kommunanın fəhlələrə nələr öyrətmiş olduğu haqqında bir kəlmə də deyilmir. Yəqin ki, Engels xüsusən alman sosialistlərini dövlətə "mövhumi hörmət" bəsləməkdən əbəs yerə çəkindirməmişdir.

downloaded from KitabYurdu.org

Kautski məsələni belə şərh edir: qalib gəlmiş proletariat "demokratik proqramı yerinə yetirəcəkdir"; sonra Kautski bu proqramın paraqraflarını şərh edir. Burjua demokratiyasını proletar demokratiyasının əvəz etməsi məsələsi sahəsində 1871-ci ilin nə kimi yeniliklər vermiş olduğu barəsində bir kəlmə də danışılmır. Kautski "mötəbər" görünən belə bir bayağı sözlərlə yaxasını qurtarır:

"Özlüyündə aydındır ki, biz indiki quruluşda hakimiyyətə nail ola bilmərik. İnqilab özü uzun sürən və dərin mübarizə aparmağı nəzərdə tutur; bu mübarizə isə bizim indiki siyasi və ictimai strukturu dəyişdirə biləcəkdir"

Şübhəsiz, bu da belə bir həqiqət kimi "özlüyündə aydındır" ki, atlar yulaf yeyir və Volqa Xəzər dənizinə axıb tökülür. Ancaq təəssüf olsun ki, "dərin təsir göstərən" mübarizə haqqında boş və şişirdilmiş ibarə vasitəsi ilə, inqilabçı proletariat üçün çox əhəmiyyətli olan bir məsələdən yan keçilir ; bu məsələ isə keçmiş qeyri-proletariat inqilabından fərqli olaraq, dövlət məsələsində, demokratiya məsələsində proletar inqilabının "dərinliyinin" nədən ibarət olduğu məsələsidir. Bu məsələdən yan keçən Kautski opportunizmə sözdə dəhşətli müharibə elan etdiyi halda, "inqilab ideyasının" əhəmiyyətini qeyd etdiyi halda, (inqilabın konkret dərslərini fəhlələrə təbliğ etməkdən qorxduğu halda bu "ideyanın" çoxmu qiyməti vardır?) və ya: "inqilabi idealizm hər şeydən ümdədir" dediyi halda, yaxud da ingilis fəhlələrinin indi "xırda burjualardan artıq bir şey" olmadıqlarını bildirdiyi halda, həmin ən mühüm məsələdə opportunizmə işdə güzəştə gedir.

Kautski yazır: "Sosializm cəmiyyətində bir-biri ilə yanaşı… ən müxtəlif formalı müəssisələr: bürokratik müəssisə (??), tred-yunionist müəssisə, kooperativ müəssisəsi, fərdi müəssisə mövcud ola bilər…" "Məsələn elə müəssisələr vardır ki, onlar bürokratik (??) təşkilatsız keçinə bilməzlər, – dəmir yolları bu qəbildəndir. Burada demokratik təşkilat belə bir şəkil ala bilər: fəhlələr nümayəndələri seçirlər, bu nümayəndələr parlamentə bənzər bir şey əmələ gətirirlər, bu parlament də iş qaydası təyin edir və bürokratik aparatın idarə olunmasına göz yetirir. Digər müəssisələri fəhlə ittifaqlarının ixtiyarına vermək olar, üçüncüləri kooperativ əsasları üzərində təşkil etmək olar" (rusca tərcüməsinin 148 və 115-ci səhifələri. 1903-xü ildəki cenevrə nəşri).

Bu mülahizə səhvdir və Kommuna dərslərinə əsasən Marks və Engelsin 70-ci illərdə verdikləri izahata nisbətən geriyə doğru bir addımdır.

Guya zəruri olan "bürokratik" təşkilat nöqteyi-nəzərindən dəmir yolları ilə iri maşınlı sənayenin ümumiyyətlə bütün müəssisələri arasında, hər bir fabrik, böyük mağaza, iri kapitalist kənd təsərrüfatı müəssisəsi arasında qətiyyən heç bir fərq yoxdur. Bütün işin dayanmasına və ya mexanizmin xarab olmasına, məhsulun xarab olmasına yol verməmək üçün bütün müəssisələrdə hər adama tapşırılmış işin yerinə yetirilməsində texnika mütləq ən ciddi intizam, ən artıq diqqət tələb eliyir. Bütün bu kimi

downloaded from KitabYurdu.org

müəssisələrdə fəhlələr, əlbəttə “nümayəndələr” seçəcəklər ki, bunlar da parlamentə bənzər bir şey əmələ gətirəcəklər.
Lakin əsl mətləb də bundadır ki, həmin “parlamentə bənzər bir şey” burjua parlamenti orqanları mənasında bir parlament olmayacaqdır. Əsil mətləb də bundadır ki, fikri burjua parlamentarizmi çərçivəsindən kənara çıxmayan Kautskinin xəyal etdiyi kimi, bu “parlamentə bənzər bir şey” yalnız “qayda qoymaq və bürokratik aparatın idarə olunmasına göz yetirməklə” kifayətlənməyəcəkdir. Sosializm cəmiyyətində fəhlə deputatlarından ibarət “parlamentə bənzər bir şey”, əlbəttə, “qayda qoyacaq” və “aparatın” “idarə olunmasına göz yetirəcəkdir”, lakin bu aparat özü “bürokratik” aparat olmayacaqdır. Fəhlələr siyasi hakimiyyəti ələ aldıqdan sonra köhnə bürokratik aparatı qıracaqlar, onu təməlinə qədər dağıdacaqlar, onun daşını daş üstündə qoymayacaqlar, onu yenə fəhlələrin və qulluqçuların özlərindən ibarət bir aparatla əvəz edəcəklər, bu fəhlələrin və qulluqçuların bürokratlara çevrilməsinə qarşı dərhal, Marks və Engelsin ətraflı təhlil etdikləri tədbirlər görüləcəkdir: 1) bunların yalnız seçkili olması deyil, habelə istənilən vaxt dəyişdirilməsi; 2) fəhlənin əmək haqqından yuxarı əmək haqqı verilməməsi; 3) dərhal belə bir vəziyyətə keçmək ki, hamı nəzarət və göz yetirmək vəzifəsini icra etsin, hamı müvəqqəti “bürokrat” olsun və buna görə də heç kim “bürokrat” ola bilməsin.
Kautski Marksın aşağıdakı sözləri üzərində qətiyyən düşünməmişdir: “Kommuna parlament korporasiyası deyil, işləyən bir korporasiya idi, eyni zamanda həm qanunlar verən, həm də bunları icra edən bir korporasiya idi”
Kautski demokratiyanı (xalq üçün olmayan demokratiyanı) bürokratizmlə (xalqa qarşı bürokratizmlə) birləşdirən burjua parlamentarizmi ilə proletar demokratizmi arasındakı fərqi, bürokratizmin kökünü kəsmək üçün dərhal tədbirlər görəcək və bu tədbirləri axıradək, bürokratizmi tamamilə məhv edincəyədək, xalq üçün demokratiyanı tamamilə tətbiq edincəyədək davam etdirə biləcək proletar demokratizmi arasında fərqi əsla anlamamışdır.
Kautski dövlətə “mövhumi hörmət” bəslədiyini, bürokratizmə “mövhumi etiqad” bəslədiyini burada yenə büruzə vermişdir.
Kautskinin opportunistlərə qarşı son və ən yaxşı əsərinə, onun “hakimiyyətə yol” kitabçasına keçək (gərək ki, rusca nəşr edilməmişdir, çünki bu kitabça Rusiyada irticanın qızğın çağında, 1909-cu ildə çıxmışdı). Bu kitabça irəliyə doğru böyük bir addımdır, çünki həmin kitabçada olduğu kimi, ümumiyyətlə inqilabi proqramdan danışılmır, 1902-ci ildəki “İctimai inqilab” kitabçasında olduğu kimi, ictimai inqilabın başlanması vaxtı nəzərə alınmadan bu inqilabın vəzifələrindən danışılmır, bizə “inqilablar dövrünün” başlanmaqda olduğunu etiraf etdirən konkret şəraitdən danışılır. Müəllif ümumiyyətlə sinfi ziddiyətlərin kəskinləşdiyini və bu cəhətdən xüsusilə böyük əhəmiyyəti olan imperializmi qəti surətdə qeyd edir. Qərbi Avropa üçün “1789-1871-ci illərin inqilabi dövründən”

downloaded from KitabYurdu.org

sonra, 1905-ci ildən etibarən Şərq üçün də eyni ilə bir dövr başlanır. Ümumdünya müharibəsi dəhşətli bir surətlə yaxınlaşır. “Daha proletariat vaxtı çatmamış inqilabdan danışa bilməz”. “Biz inqilabı bir dövrə qədəm qoymuşuq”. “İnqilabi dövr başlanır”.

Bunlar tamamilə aydın sözlərdir. Kautskinin həmin kitabçası imperialist müharibəsindən qabaq alman sosial-demokratiyasının nə kimi bir ümid verdiyini və müharibə qopduğu zaman onun (o cümlədən Kautskinin özünün də) nə qədər alçaldığını müqayisə etmək üçün bir meyar olmalıdır. Nəzərdən keçirdiyimiz kitabçada Kautski yazırdı: “İndiki vəziyyət belə bir təhlükə törədə bilər ki, asanlıqla bizi (yəni alman sosial-demokratiyasını) həqiqətdə olduğumuzdan daha mötədil saymaq olar”. Məlum oldu ki, həqiqətdə alman sosial-demokrat partiyası göründüyündən müqayisə edilməz dərəcədə çox mötədil və opportunist imiş!

Buna görə çox səciyyəvidir ki, Kautski inqilablar dövrünün artıq başlanmış olduğu haqqında bu qədər qəti şəkildə danışdığı halda, öz dediyinə görə, məhz “siyasi inqilab” məsələsinin təhlilinə həsr edilmiş kitabçasında da, dövlət məsələsindən yenə tamamilə yan keçmişdir.

Məsələdən məhz belə yan keçmək, sükut etmək, qətiyyətsizlik hallarının labüd nəticəsi olaraq tamamilə opportunizmə keçilmişdir ki, biz də indi bundan danışmalı olacağıq.

Alman sosial-demokratiyası Kautskinin dili ilə sanki belə deyirdi: mən inqilabi baxışlarımda qalıram (1899-cu il). Mən xüsusilə, proletariatın ictimai inqilabının labüd olduğunu qəbul edirəm (1902-ci il). Lakin madam ki, dövlət məsələsində proletariat inqilabının vəzifələri məsələsi ortaya qoyulur, Marksın hələ 1852-ci ildə dedikərinin əleyhinə olaraq hər halda mən geri gedirəm (1912-ci il). Kautskinin Pannekuk ilə mübahisəsində məsələ məhz belə bir qəti şəkildə qoyulmuşdur.

### 3. KAUTSKININ PANNEKUK İLƏ MÜBAHISƏSI

Sıralarında Roza Lüksenburqun, Karl Radekin və başqalarının olduğu “sol radikal” cərəyanının nümayəndələrindən biri olan Pannekuk Kautskiyə qarşı çıxış etdi; həmin cərəyan inqilabi taktikanı müdafiə edərək, belə bir əqidə ilə birləşmişdi ki, Kautski marksizmlə opportunizm arasında prinsipsiz olaraq tərəddüd edən “mərkəz” mövqeyinə keçir. Bu baxışın doğruluğunu müharibə tamamilə sübut etdi, çünki müharibə zamanı “mərkəz” (yanlış olaraq marksist cərəyanı adlanır) və ya “kautskiçilik” cərəyanı özünün bütün iyrənc miskinliyini tamamilə göstərdi.

Pannekuk dövlət məsələsindən bəhs edən “Kütləvi hərəkatlar və inqilab” məqaləsində (“Neue Zeit”, 1912, XXX, 2) Kautskinin mövqeyinə xarakteristika verərək bunu “passiv radikalizm” mövqeyi, “fəaliyyətsiz intizar nəzəriyyəsi” adlandırmışdır. “Kautski inqilab prosesini görmək istəmir” (səh. 616). Pannekuk məsələni belə qoymaqla bizi maraqlandıran mövzuya, dövlət məsələsində proletar inqilabının vəzifələri mövzusuna yanaşmışdır.

Pannekuk yazmışdır:

downloaded from KitabYurdu.org

“Proletariatın mübarizəsi dövlət hakimiyyəti üstündə burjuaziyaya qarşı sadəcə bir mübarizə deyil, dövlət hakimiyyətinə qarşı mübarizədir… Proletar inqilabının məzunu dövlətin zor silahlarını məhv etmək və bunları proletariatın zor silahları ilə aradan qaldırmaqdır (hərfiyyən buraxmaqdır, Auflösung)… Mübarizənin son nəticəsi olmaq etibarı ilə dövlət təşkilatı ancaq tamamilə dağıdılmış olduğu zaman mübarizə qurtarır. Çoxluğun təşkilatı öz üstünlüyünü bununla sübut edir ki, hökmranlıq edən azlığın təşkilatını məhv edir” (səh. 548)

Pannekukun öz fikirlərini ifadə etmək üçün işlətdiyi formulun çox böyük nöqsanları vardır. Lakin fikri hər halda aydındır və Kautski bunu necə rədd etdiyi maraqlıdır.

“Bu vaxta qədər, – deyə Kautski yazmışdır – sosial-demokratlarla anarxistlər arasında əkslik ondan ibarət idi ki, birincilər dövlət hakimiyyətini əldə etmək, ikincilər isə bu hakimiyyəti dağıtmaq istəyirdilər. Pannekuk bunların hər ikisini istəyir” (səh. 724)

Əgər Pannekukun şərhi kifayət qədər aydın və konkret deyildirsə (burada onun məqaləsinin, təhlil edilən mövzuya aid olmayan digər nöqsanlarından danışmırıq), Kautski Pannekuk tərəfindən işin məhz nəzərdə tutulan prinsipial mahiyyətini götürmüşdür və əsas prinsipial məqalədə Kautski marksizm mövqeyini bütünlüklə tərk edərək, tamamilə opportunizmə keçmişdir. Kautski sosial-demokratlarla anarxistlər arasında fərqi əsla doğru göstərməmişdir, marksizmi tamamilə təhrif etmiş və bayağılaşdırmışdır.

Marksistlərlə anarxistlər arasında fərq ondan ibarətdir ki, (1) birincilər dövləti tamamilə məhv etməyi özlərinə məqsəd götürməklə bərabər bunu da etiraf edirlər ki, həmin məqsədi, dövlətin ölüb getməsi üçün şərait yaradacaq sosializmin qurulması nəticəsində, sosialist inqilabı sinifləri ancaq məhv etdikdən sonra həyata keçirmək mümkündür; ikincilər bu gün-sabah dövlətin tamamilə məhv edilməsini istəyirlər, lakin belə bir məhvetmənin nə kimi bir şəraitdə həyata keçirilə biləcəyini anlamırlar. (2) Birincilər bunu vacib bilirlər ki, proletariat siyasi hakimiyyəti ələ aldıqdan sonra köhnə dövlət maşınını tamamilə dağıtsın və Kommuna tipində, silahlı fəhlələr təşkilatından ibarət yeni bir dövlət maşını ilə əvəz etsin; ikincilər dövlət maşınını dağıtmaq fikrini müdafiə etdikəri halda, bunu proletariatın nə ilə əvəz edəcəyini və inqilabi hakimiyyətdən onun necə istifadə edəcəyini əsla aydın təsəvvür etmirlər; anarxistlər dövlət hakimiyyətindən inqilabçı proletariatın istifadə etməsini, onun inqilabi diktaturasını hətta inkar edirlər. (3) Birincilər müasir dövlətdən istifadə etmək yolu ilə proletariatı inqilaba hazırlamağı tələb edirlər; anarxistlər bunu inkar edirlər.

Bu mübahisədə Kautskiyə qarşı marksizm məhz Pannekuk tərəfindən təmsil edilmişdir, çünki məhz Marks öyrədirdi ki, proletariat dövlət hakimiyyətini, köhnə dövlət aparatının yeni əllərə keçməsi mənasında sadəcə əldə etməklə kifayətlənə bilməz, proletariat həmin aparatı qırmalı, sındırmalı, onu yeni bir aparatla əvəz etməlidir.

downloaded from KitabYurdu.org

Kautski marksizmdən uzaqlaşıb opportunistlərə yanaşır, çünki dövlət maşınının opportunistlər tərəfindən əsla qəbul edilə bilməyən məhz bu dağıdılması fikri Kautski tərəfindən tamamilə yox edilir və "əldə etməyi" çoxluğun sadəcə nailiyyəti mənasında yozmaq üçün opportunistlərin əlində bəhanə qalır.

Kautski marksizmi təhrif etməsini pərdələmək üçün bir əzbərçi kimi hərəkət edir: o, Marksın özündən "sitat" irəli sürür. 1850-ci ildə Marks "qüvvəni dövlət hakimiyyətinin əlində qəti surətdə mərkəzləşdirmək" lazım olduğunu yazmışdı. Kautski təkəbbürlə soruşur: olmaya Pannekuk "mərkəziyyəti" dağıtmaq istəyir?

Bu isə mərkəziyyət əvəzinə federasiya haqqında baxışlarda marksizmlə prudonizmi bernşteyncəsinə eyniləşdirməyə bənzəyən sadəcə hoqqabazlıqdır.

"Sitat" Kautski tərəfindən lap yersiz gətirilmişdir. Köhnə dövlət maşınında da, yeni dövlət maşınında da mərkəziyyət mümkündür. Əgər fəhlələr öz silahlı qüvvələrini könüllü surətdə birləşdirsələr, bu mərkəziyyət olar, lakin həmin mərkəziyyət mərkəziyyətçi dövlət aparatının, daimi ordunun, polisin, bürokratiyanın "tamamilə dağıdılması" üzərində qurulacaqdır. Kautski Marksın və Engelsin Kommuna haqqında çox yaxşı məlum olan fikirlərindən yan keçib məsələyə dəxli olmayan bir sitat tapıb göstərməklə lap bir dələduz kimi hərəkət edir.

"…Olmaya Pannekuk dövlət məmurları vəzifələrini aradan qaldırmaq istəyir? – deyə Kautski davam edir. – Lakin dövləti idarə etmək məsələsi hələ bir yana qalsın, biz partiya təşkilatında da, həmkarlar təşkilatında da məmurlarsız keçinmirik. Bizim proqramımız dövlət məmurlarının aradan qaldırılmasını deyil, məmurların xalq tərəfindən seçilməsini tələb edir… indi biz "gələcək dövlətdə" idarə aparatının nə kimi bir şəkil alacağından danışmırıq; indi biz belə bir məsələdən danışırıq ki, hələ dövlət hakimiyyətini öz əlimizə almadan (kursiv Kautskinindir), bizim siyasi mübarizəmiz dövlət hakimiyyətini məhv edirmi? (hərfiyyən: buraxır, auflöst). Hansı nazirlik və onun məmurları məhv edilə bilər?" Sonra maarif, ədliyyə, maliyyə nazirliklərinin, hərbi nazirliyin adları çəkilir. "Yox, hökumətə qarşı siyasi mübarizəmiz indiki nazirliklərdən heç birini aradan qaldırmayacaqdır… Anlaşılmazlığa yol verməmək üçün təkrar edirəm: burada "gələcəyin dövlətinə" qalib sosial-demokratiyanın nə kimi bir şəkil verəcəyindən danışılmır, məhz bizim müxalifətin indiki dövləti necə dəyişdirəcəyindən danışılır" (səh. 725) .

Bu, açıq-aşkar saxtakarlıqdır. Pannekuk məhz inqilab məsələsini irəli sürmüşdür. Bu onun məqaləsinin başlığında da, sitat gətirdiyimiz parçalarda da aydın göstərilmişdir. Kautski atılıb məhz "müxalifət" məsələsinə keçməklə inqilabi nöqteyi-nəzəri opprtunist nöqteyi-nəzəri ilə əvəz edir. Kautskinin dediyindən belə çıxır: indi bizə lazım olan müxalifətdir, hakimiyyəti ələ aldıqdan sonra isə ayrıca danışarıq. İnqilab yox olub gedir! Bu elə məhz opportunistlərin tələb etdiyi şeydir. Söhbət müxalifətdən və ümumiyyətlə siyasi mübarizədən deyil, məhz inqilabdan gedir. İnqilab ondan

downloaded from KitabYurdu.org

ibarətdir ki, proletariat "idarəetmə aparatını" və bütün dövlət aparatını dağıdaraq, onu silahlı fəhlələrdən ibarət yeni aparatla əvəz edir. Kautski "nazirliklərə" mövhumi hörmət" bəslədiyini büruzə verir, lakin nə səbəbə bunları, məsələn, tam və hərtərəfli hakimiyyətə malik fəhlə və əsgər deputatları Sovetləri yanında mütəxəssislərdən ibarət komissiyalarla əvəz etmək olmaz? Məsələnin mahiyyəti heç də onda deyil ki, "nazirliklərmi" qalacaq, "mütəxəssislərdən ibarət komissiyalarmı" və ya başqa cür müəssisələrmi olacaq, – bunun əsla əhəmiyyəti yoxdur. Məsələnin mahiyyəti bundadır ki, köhnə dövlət maşını (minlərlə tel vasitəsilə burjuaziyaya bağlı olan, köhnəlik və ətalət iliyinə işləmiş olan köhnə dövlət maşını) qalacaqmı, yoxsa bu maşın dağıdılacaq və yeni dövlət maşını ilə əvəz olunacaqdır? İnqilab yeni sinfin köhnə dövlət maşınının köməyi ilə komanda verməsindən və idarə etməsindən ibarət olmamalıdır; inqilab ondan ibarət olmalıdır ki, yeni sinif bu maşını qırsın və yeni maşının köməyi ilə komanda versin və idarə etsin, – Kautski marksizmin bu əsas fikrini pərdələyir, ya da onu heç anlamamışdır.

Kautskinin məmurlar haqqında sualı aydın göstərir ki, o, Kommunadan alınan dərsləri və marksın təlimini anlamamışdır. "Biz partiya təşkilatında da məmurlarsız keçinmirik…"

Biz kapitalizm zamanında, burjuaziyanın hökmdarlığı zamanında məmurlarsız keçinmirik. Kapitalizm tərəfindən proletariat əzilmiş, zəhmətkeş kütlələr əsarət altına alınmışdır. Kapitalizm zamanı kütlələrin muzdlu köləliyi, ehtiyac və yoxsulluğun bütün şəraiti nəticəsində demokratizm məhdud edilmiş, əzilmiş, qol-qanadı kəsilmiş və eybəcər hala salınmışdır. Buna görə də ancaq buna görə bizim siyasi və həmkarlar təşkilatlarımızda vəzifəli şəxslər kapitalizm şəraiti üzündən pozğunlaşırlar (və ya, daha dürüst dedikdə, pozğunlaşmağa meyl göstərirlər) və dönüb bürokrat olmağa, yəni kütlələrdən ayrı düşən, kütlələrin fövqündə duran imtiyazlı adamlara çevrilməyə meyl göstərirlər. Bürokratizmin mahiyyəti bundadır və kapitalistlər mülkiyyətdən məhrum edilmədikcə, burjuaziya devrilmədikcə hətta proletarlardan olan şəxslərin də müəyyən dərəcədə "bürokratlaşması" labüddür. Kautskinin dediyindən belə çıxır: seçkili vəzifəli şəxslər sosializm zamanı qalırsa, deməli, məmurlar da qalacaq, bürokratiya da qalacaqdır! Doğru olmayan da məhz budur. Məhz Kommunanın timsalında Marks göstərmişdir ki, sosializm zamanı vəzifəli şəxslər da "bürokrat" olmurlar, "məmur" olmurlar; həm də bu, onların seçkili olmasından başqa, bir də istənilən vaxt dəyişdirilə biləcəkləri və bir də əmək haqqının fəhlələrin orta əmək haqqı dərəcəsinə qədər endirilməsi və bir də parlament təsisatlarının "işləyən, yəni qanunlar verən və bunları yerinə yetirən təsisatlarla" əvəz edilməsi prinsipi həyata keçirildikcə mümkün olur.

Əslində, Kautskinin Pannekuka qarşı irəli sürdüyü dəlillər və xüsusən Kautskinin: biz həmkarlar təşkilatlarında da, partiya təşkilatlarında da məmurlarsız keçinmirik sözləri ilə ifadə olunan xüsusilə əla dəlili göstərir ki, Kautski ümumiyyətlə marksizmə qarşı Bernşteynin çoxdan işlətdiyi "dəlilləri" təkrar edir. Bernşteyn "Sosializmin ilkin şərtləri adlı öz xəyanətkar kitabında, "ibtidai" demokratiya

downloaded from KitabYurdu.org

ideyaları əleyhinə, “doktrinaçı demokratizm” adlandırdığı şey əleyhinə – imperativ mandatlar, muzd almayan vəzifəli şəxslər, aciz mərkəzi nümayəndəlik və sairə əleyhinə qızğın mübarizə aparır. Bernşteyn bu “ibtidai” demokratizmin əsassız olduğunu sübut etmək üçün ingilis tred-yunionlarının təcrübəsini əsas göstərir və həm də bu təcrübəni Vebb adlı ər-arvadın təfsir etdikləri mənada götürür. Belə çıxır ki, guya “tam azadlıq şəraitində” (almanca nəşrinin 137-ci səhifəsi) inkişaf etmiş olan tred-yunionlar, özlərinin yetmiş illik inkişafı ərzində guya məhz ibtidai demokratizmin yararsız olduğuna tamamilə inanmışlar və onu adi demokratizmlə əvəz etmişlər, yəni: bürokratizmlə birləşmiş parlamentarizmlə əvəz etmişlər.

Həqiqətdə isə tred-yunionlar “tam azadlıq şəraitindən” deyil, tam kapitalist əsarəti şəraitində inkişaf etmişdir; bu əsarətdə isə hökm sürən şərə, zorakılığa, haqsızlığa, “ali” idarə işlərindən yoxsulların kənar edilməsinə bir sıra güzəştlər etmədən, əlbəttə, “keçinmək olmaz”. Sosializm zamanı “ibtidai” demokratiyanın bir çox cəhətləri labüddən canlanacaqdır, çünki mədəni cəmiyyətlərin tarixində ilk dəfə olaraq əhali kütləsi nəinki səs verməkdə və seçkilərdə, habelə gündəlik işlərində də müstəqil iştirak etmək dərəcəsinə yüksələcəkdir. Sosializm zamanı hamı növbə ilə idarə edəcək və tez bir zamanda, heç kəsin idarə etməməsi şəraitinə alışacaqdır.

Marks öz dahiyanə tənqidi-təhlili zəkası ilə Kommunanın əməli tədbirlərindəki dönüşü görmüşdür; bu dönüşdən opportunistlər qorxurlar və öz qorxaqlıqlarına görə, burjuaziya ilə əlaqəni qəti kəsmək istəmədiklərinə görə onu qəbul etmək istəmirlər; anarxistlər isə ya tələsdikləri üçün, ya da ümumiyyətlə kütləvi ictimai çevrilişlərin şərtlərini anlamadıqları üçün həmin dönüşü görmək istəmirlər. İliyinə qədər filister olan və əslində inqilaba, onun yaradıcılığına nəinki inanmayan, ondan hətta bağrı çatlayacaq dərəcədə qorxan (bizim menşeviklərin və eserlərin qorxduğu kimi) opportunist belə düşünür: “Köhnə dövlət maşınını dağıtmağı heç xəyala da gətirmək lazım deyildir, nazirliklər və məmurlar olmadan biz necə keçinə bilərik”.

“Köhnə dövlət maşınını yalnız dağıtmaq haqqında fikirləşmək lazımdır, keçmiş proletar inqilablarının konkret dərslərini dərindən öyrənməyə və dağıdılan dövlət maşınını nə ilə və necə əvəz etmək lazım gəldiyini təhlil etməyə ehtiyac yoxdur”; anarxist (əlbəttə, anarxistlərdən burjuaziya dalınca c. Kropotkinlər və K-sı kimi sürünənləri yox, onların ən yaxşısı) belə düşünür; ona görə anarxistlərin taktikası ümidsizlik taktikası olur, konkret vəzifələr uğrunda amansızcasına cəsarətli bir taktika və eyni zamanda kütlələr hərəkatının əməli şəraiti ilə hesablaşan inqilabi bir iş taktikası olmur. Marks bu səhvlərin hər ikisindən çəkinməyi bizə öyrədir, bütün köhnə dövlət maşınını dağıtmaqda qəti cəsarət göstərməyi və eyni zamanda məsələni konkret şəkildə qoymağı bizə öyrədir: Kommuna daha geniş demokratizm yaratmaq və bürokratizmin kökünü kəsmək üçün həmin tədbirləri filan cür həyata keçirməklə bir neçə həftə ərzində yeni dövlət maşını, proletar dövlət maşınını qurmağa başlaya bildi. Kommunarlardan inqilabi cəsarət dərsi alaq, onların əməli tədbirlərini, əməli cəhətdən

downloaded from KitabYurdu.org

zəruri olan və dərhal mümkün olan tədbirlərin irəli sürülməsi hesab edək, o zaman belə bir yolla gedərək, biz bürokratizmin tamamilə dağıdılmasına nail olarıq.

Bunu dağıtmağın mümkün olması onunla təmin edilmişdir ki, sosializm iş gününü qısaldacaq, kütlələri yeni həyata qaldıracaq, əhalinin əksəriyyəti üçün, istisnasız olaraq hamıya "dövlət vəzifələrini" yerinə yetirmək imkanı verən şərait yaradacaqdır, bu isə ümumiyyətlə hər bir dövlətin tamamilə ölüb getməsinə səbəb olur.

Kautski sözünə davam edib deyir: "…Kütləvi tətilin vəzifəsi heç vaxt dövlət hakimiyyətini dağıtmaqdan ibarət ola bilməz, onun vəzifəsi ancaq müəyyən bir məsələdə hökuməti güzəştə getməyə vadar etməkdən və ya proletariata düşmən olan hökuməti ona rəğbət göstərən (entgegen kommende) bir hökumətlə əvəz etməkdən ibarət ola bilər… Lakin bu" ( yəni proletariatın düşmən hökuməti üzərində qələbəsi) "heç vaxt və heç bir şəraitdə dövlət hakimiyyətinin dağıdılmasına səbəb ola bilməz, ancaq dövlət hakimiyyəti içərisində qüvvələrin nisbətinin müəyyən dərəcə dəyişməsinə (Verschiebung) səbəb ola bilər… Eyni zamanda bizim siyasi mübarizəmizin də məqsədi, indiyə qədər olduğu kimi, parlamentdə əksəriyyət qazanmaq vasitəsi ilə dövlət hakimiyyətini əldə etməkdən və parlamenti hökumətin ağasına çevirməkdən ibarət olaraq qalır" (səh. 726, 727, 732)
Bu lap xalis və lap bayağı opportunizmdir, sözdə inqilabı qəbul edərək, işdə ondan üz döndərməkdir. Kautskinin fikri "proletariata rəğbət göstərən bir hökumətdən" irəli getmir, bu isə "Kommunist Manifesti" "proletariatın hakim sinif halında təşkilini" elan etmiş olduğu 1847-ci ilə nisbətən filisterliyə tərəf geri atılan bir addımdır.

Kautski "proletariata rəğbət göstərən" bir hökumət uğrunda mübarizə etməyə hamılıqca razı olan şeydemanlarla, Plexanovlarla, Vanderveldlərlə çox sevdiyi "birliyi" həyata keçirməli olacaqdır. Biz isə sosializmə xəyanət edən bu adamlardan ayrılacağıq və bütün köhnə dövlət maşınını dağıtmaq uğrunda mübarizə edəcəyik ki, silahlı proletariat özü hökumət olsun. Bu – "iki böyük fərqdir". Kautski Leginlərin və Davidlərin, Plexanovların, Potresovların, Seretelilərin, Çernovların mehriban kompaniyasında qalmalı olacaqdır; çünki onların hamısı "dövlət hakimiyyəti içərisində qüvvələrin nisbətinin dəyişməsi" uğrunda, "parlamentdə əksəriyyət qazanmaq" uğrunda və "parlamentin hökumət üzərində tam hökmranlığı uğrunda" mübarizə etməyə tamamilə razıdır; bu isə hər bir cəhəti opportunistlər üçün əlverişli olan, hər bir şeyi burjua parlamentli respublikası çərçivəsində saxlayan ən nəcib bir məqsəddir.

Biz isə opportunistlərdən ayrılacağıq; və "qüvvələrin nisbətinin dəyişməsi" uğrunda deyil, burjuaziyanı yıxmaq uğrunda, burjua parlamentarizmi dağıtmaq uğrunda, Kommuna tipli demokratik respublika uğrunda və ya fəhlə və əsgər deputatları Sovetləri respublikası uğrunda, proletariatın inqilabi diktaturası uğrunda mübarizədə bütün şüurlu proletariat da bizimlə olacaqdır.

***

downloaded from KitabYurdu.org

*Almaniyadakı "Sosialist Aylığı" ( Legin, David, Kolb və skandinaviyalılardan Stauninq və Brantinq də daxil olmaqla bir çox başqaları), Fransada və Belçikada jorescilər və Vanderveld, habelə Turati, Treves və italyan partiyasının sağ qanadının başqa nümayəndələri, İngiltərədə fabiçilər və "müstəqillər" (işdə həmişə liberallardan asılı olan "müstəqil fəhlə partiyası") və başqa bu kimi cərəyanlar beynəlxalq sosializmdə Kautskidən daha sağıda dururlar. Bu cənabların hamısı partiyanın parlament işində və publisistikasında olduqca böyük, çox vaxt üstün bir rol oynayaraq, proletariat diktaturasını açıqdan-açığa inkar edir, açıqdan-açığa opportunizm yeridir. Bu cənabların fikrinə görə proletariatın diktaturası" demokratiyaya "ziddir"!! Əslində onların xırda burjua demokratlardan heç bir ciddi fərqi yoxdur.*

*Bu göstərilənləri nəzərə alaraq, bizim belə bir nəticə çıxarmağa haqqımız vardır ki, ikinci İnternasionalın rəsmi nümayəndələrinin böyük əksəriyyəti tamamilə opportunizmə yuvarlanmışdır. Kommunanın təcrübəsi nəinki unudulmuşdur, həm də təhrif edilmişdir. Fəhlə kütlələrinə nəinki öyrədilmirdi ki, onların çıxış edərək köhnə dövlət maşınını dağıtmalı olacaqları, onu yeni dövlət maşını ilə əvəz etməli və beləliklə öz siyasi hökmranlığını cəmiyyətin sosialistcəsinə yenidən qurulması üçün bir təmələ döndərməli olacaqları vaxt yaxınlaşmaqdadır; kütlələrə bunun əksi öyrədilirdi və "hakimiyyətin əldə edilməsi" elə bir şəkildə təsəvvür olunurdu ki, burada opportunizm üçün minlərlə yol qalırdı.*

*İmperialistlərin yarışı nəticəsində, daha çox qüvvətləndirilmiş hərbi aparata malik olan dövlətlər: dünyaya İngiltərəninmi, yoxsa Almaniyanın, İngiltərə maliyyə kapitalınınmı, yoxsa Almaniya maliyyə kapitalının ağalıq etməli olması haqqında mübahisəni həll etmək xatirinə milyonlarla insanları qırıb məhv edən nəhəng hərbi dövlətlərə çevrilmiş olduqları bir zamanda proletar inqilabının dövlətə münasibəti məsələsini təhrif etmək və bu məsələnin üzərindən sükutlə keçmək çox böyük rol oynamaya bilməzdi.*

***

*Əlyazmasında sonra bu sətirlər vardır:*

*"7-ci fəsil*

*1905 və 1917-ci illərdəki Rus inqilablarının təcrübəsi*

*Bu fəslin sərlövhəsində göstərilən mövzu o qədər geniş və böyükdür ki, bu xüsusda cildlərlə əsər yazmaq olar və yazmaq lazımdır. Bu kitabçada, söz yox, dövlət hakimiyyəti barəsində inqilabda proletariatın bilavasitə vəzifələrinə aid olan ən başlıca təcrübənin dərsləri ilə kifayətlənmək lazım gələcəkdir"(Burada əlyazması kəsilir)*

*Birinci Nəşrə Sözardı*

*Bu kitabça 1917-ci ilin avqust və sentyabrında yazılmışdır. "1905 və 1917-ci illərdəki rus inqilablarının təcrübəsi" adlı sonrakı, yeddinci fəslin planını tərtib etmişdim. Lakin sərlövhəsindən*

downloaded from KitabYurdu.org

*başqa bu fəsildən bir sətir də yazmağa macal tapmadım: siyasi böhran, 1917-ci il Oktyabr inqilabının yaxınlaşması "mane oldu". Belə bir "maneəyə" ancaq sevinmək olar. Lakin kitabçanın ("1905 və 1917-ci illərdəki rus inqilablarının təcrübəsi"nə həsr edilmiş) ikinci hissəsini olsun ki, uzun müddət təxirə salmaq lazım gələcəkdir; "inqilabın təcrübəsindən" yazmaqdansa, bu təcrübəni həyata keçirmək daha xoş və daha faydalıdır.*

*Petroqrad*

*30 noyabr 1917-ci il*

downloaded from KitabYurdu.org